Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

Vüsal Qasımlı

# MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ
## 2016 - 2021



Bakı 2021


“AZƏRBAYCAN
İNDİ İQTİSADİ İNKİŞAF,
CİDDİ İSLAHATLAR YOLUNDADIR.
İSLAHATLAR CƏMİYYƏT TƏRƏFİNDƏN
YÜKSƏK QİYMƏTLƏNDİRİLİR.”
Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEV

# MÜNDƏRİCAT


03 **Abreviatura**

04 **Giriş**

06 **Monitorinq və qiymətləndirmə təcrübəsi**

06 Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı

09 2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı

11 Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019–2020-ci illər üçün Tədbirlər Planı

14 Özünüməşğulluq tədbirlərinin monitorinq və qiymətləndirilməsi

15 Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı

15 2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası

16 Strateji Yol Xəritələrinin monitorinq və qiymətləndirilməsi

20 **Monitorinq və qiymətləndirmə metodologiyası**

21 MQ sistemlərinin dövlət idarəçiliyinin təkmilləşdirilməsində rolu

22 Monitorinq və qiymətləndirmənin növləri və metodoloji inkişaf

26 **Həyata keçirilən monitorinq və qiymətləndirmə tədbirləri**

34 **Monitoring.az portalının təqdimatı**

43 **Monitorinq və qiymətləndirmə fəaliyyətində beynəlxalq əməkdaşlıq**

53 **Rəqəmsal transformasiyanın monitorinq və qiymətləndirməyə tətbiqi: www.monitoring.az**

55 **Monitoring.az portalının istifadəçi təlimatı**

73 **Monitorinq və qiymətləndirmə fəaliyyətinin hüquqi əsasları**

# ABREVİATURA

| | |
|---|---|
| AİB | Asiya İnkişaf Bankı |
| AQTA | Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi |
| ASC | Açıq Səhmdar Cəmiyyəti |
| AZPROMO | Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu |
| BMK | Beynəlxalq Maliyyə Korporasiyası (IFC) |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| BMTİP | BMT-nin İnkişaf Proqramı (UNDP) |
| CFRR | Dünya Bankının Maliyyə Hesabatları İslahatı Mərkəzi |
| ETSN | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| GEI | Global Evaluation Initiative - Qlobal Qiymətləndirmə Təşəbbüsü |
| İİTKM | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi |
| KOB | Kiçik və orta biznes |
| KOBİA | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi |
| KOS | Kiçik və orta sahibkarlıq |
| MİDA | Mənzil İnşaatı Dövlət Agentliyi |
| MMC | Məhdud Məsuliyyətli Cəmiyyət |
| MQ | Monitorinq və Qiymətləndirmə |
| NRYTN | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi |
| QSC | Qapalı Səhmdar Cəmiyyəti |
| Strategiya | "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" |
| SYX | Strateji Yol Xəritəsi |
| ÜDM | Ümumi Daxili Məhsul |

# GİRİŞ

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Azərbaycanda aparılan iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsi, bu sahədə işlərin səmərəli şəkildə əlaqələndirilməsini təmin etmək məqsədilə Prezident İlham Əliyevin 20 aprel 2016-cı il tarixli 879 nömrəli fərmanı ilə yaradılıb. İİTKM özünün əsas fəaliyyət istiqamətlərindən biri kimi monitorinq və qiymətləndirmə fəaliyyətini həyata keçirir. Belə ki, İİTKM-in Nizamnaməsinin 2.2.1-2-ci və 2.2.1-3-cü bəndlərinə əsasən, dövlət qurumlarının sifarişi əsasında sənaye parkları, məhəllələri və aqroparklarda həyata keçirilən fəaliyyətin, habelə iqtisadi yönümlü dövlət proqramlarının monitorinq və qiymətləndirilməsinin aparılması, icra müddəti bitmiş dövlət proqramlarının və dövlət investisiya layihələrinin iqtisadi səmərəsinin qiymətləndirilməsi əsas fəaliyyət istiqaməti olaraq hədəflənib.




Hal-hazırda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Monitorinq və Qiymətləndirmə Qrupu strateji yol xəritələrinin, dövlət proqramlarının, tədbirlər planlarının, iqtisadi yönümlü təşviq layihələrinin monitorinq və qiymətləndirilməsini həyata keçirir. Strateji yol xəritələrində və digər dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin icrasının vaxtında və yüksək səviyyədə yerinə yetirilməsi üçün yerli və xarici ekspertlərin, təcrübəli mütəxəssislərin, məsləhətçi şirkətlərin, elmi təşkilatların, ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatların təcrübəsi əsasında monitorinq və qiymətləndirmə idarəetmə sistemi formalaşdırılmışdır və hazırda davamlı olaraq əlaqələndirici və icraçı qurumlarla qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərilərək MQ prosesi həyata keçirilir. Azərbaycan Prezidentinin 2016-cı il 6 dekabr tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanı ilə təsdiq edilən strateji yol xəritələrində nəzərdə tutulan fəaliyyətlərlə bağlı monitorinq, qiymətləndirmə və kommunikasiya tədbirləri 2017-ci ildən başlayaraq İİTKM tərəfindən aparılıb. Davamlı monitorinq fəaliyyəti prosesində, ümumilikdə 50-dək dövlət qurumundan daxil olan hesabatlar təhlil edilib, müvafiq MQ hesabatları hazırlanıb. 2017-ci, 2018-ci və 2019-cu illər

üzrə 12 Strateji Yol Xəritəsi ilə bağlı ümumilikdə 48 hesabat hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

"2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019–2020-ci illər üçün Tədbirlər Planı", "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı", "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" və "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı"nın monitorinq və qiymətləndirilməsi İİTKM tərəfindən həyata keçirilir. "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" üzrə ümumilikdə 4 hesabat hazırlanaraq aidiyyəti qaydada təqdim edilib. "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019–2020-ci illər üçün Tədbirlər Planı" üzrə 2019-cu ilin I yarımilliyi, 2019-cu il illik, 2020-ci ilin I yarımilliyi,2020-ci il illik və 2019-2020-ci illəri əhatə edən yekun hesabat olmaqla ümumilikdə 5 hesabat hazırlanıb və aidiyyəti üzrə təqdim edilib. "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı"nın monitorinq və qiymətləndirilməsinə 2019-cu ildən başlanıb və müvafiq il üzrə hesabat hazırlanaraq aidiyyəti üzrə təqdim edilib. 2020-ci il üzrə isə MQ nəticələrinə əsasən, ilkin hesabat hazırlanıb. Bundan başqa, İİTKM tərəfindən özünüməşğulluq tədbirlərinin monitorinq və qiymətləndirilməsi həyata keçirilib. "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı"nın 2020-ci il üzrə monitorinq və qiymətləndirilməsi aparılıb və yekun hesabat aidiyyəti üzrə təqdim edilib. "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın 2020-ci il üzrə monitorinq və qiymətləndirilməsinə başlanılıb və hal-hazırda bu istiqamətdə işlər davam etdirilir.

İllər ərzində həyata keçirilən MQ fəaliyyəti İİTKM-in bu sahədə institusional yaddaşının yaranmasına, eləcə də İİTKM-də monitorinq və qiymətləndirmənin institut kimi formalaşmasına imkan verib. Birləşmiş Millətlər Təşkilatı və Dünya Bankı ilə qarşılıqlı partnyorluq əsasında MQ sahəsində qabaqcıl təcrübənin yerli şəraitə tətbiqi və bu sahə üzrə bacarıqların artırılması istiqamətində nailiyyətlər əldə edilib, "açıq hökumət" və "yaxşı idarəetmə" prinsiplərinə əməl olunub.

İİTKM yarandığı gündən dünyanın aparıcı beyin mərkəzlərindən biri olmaqla bir çox innovativ layihələrin müəllifi kimi də çıxış edib. Dünya Bankının "Avropa və Mərkəzi Asiyada səmərəli, hesabatlı və inklüziv institutların qurulması" mövzusunda hesabatında qeyd edilib ki, Azərbaycan monitorinq və qiymətləndirmə sahəsində innovativ həlləri tətbiq etməklə "nəticə əsaslı yaxşı idarəetmə" nümunəsi yaradıb. Dünya Bankının regionda uğur hekayəsi kimi təqdim etdiyi İİTKM-də yaradılan monitorinq və qiymətləndirmə institutu BP şirkətinin dəstəyi ilə www.monitoring.az portalı əsasında rəqəmsallaşdırılıb. Portal öz fəaliyyətini aşağıdakı dəyərlərə əsaslanaraq uğurla davam etdirir:

- Yüksək peşəkar standartlara riayət etmək;
- Yüksək etik normalara əməl etmək;
- Monitorinq və qiymətləndirmə prosesinin aparılmasında sifarişçi inamlarını qorumaq;
- Dövlətçilik maraqlarını üstün tutmaq;
- Çevik koordinasiya və kommunikasiyanı təmin etmək;
- Monitorinq və qiymətləndirmə prosesinin şəffaflığını təmin etmək;
- Hesabatlılığı gücləndirmək.

Hazırda effektivliyin, uyğunluğun və səmərəliliyin ölçülməsi məqsədilə əsas qiymətləndirmə sualları icraçı qurumlara onlayn platforma üzərindən təqdim edilərək, optimal sənəd dövriyyəsi prosesinə imkan yaradılır. Eləcə də, portal vasitəsilə dövlət proqramlarının MQ ilə bağlı Böyük Verilənlər (Big Data) bazasının formalaşması stimullaşdırılır. İİTKM-də MQ prosesində bu kimi innovativ yeniliklərin tətbiqi ilə data əsaslı idarəetmə siyasətinin həyata keçirilməsi üçün baza formalaşır.

# MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ TƏCRÜBƏSİ

İİTKM-in Səmərəliliyin qiymətləndirilməsi departamenti monitorinq və qiymətləndirmə fəaliyyətinin aparılması üzrə institusional struktur kimi formalaşıb. İİTKM-də Departament tərəfindən strateji yol xəritələri və digər dövlət proqramlarında nəzərdə tutulan fəaliyyətlərlə bağlı monitorinq, qiymətləndirmə və koordinasiya tədbirləri, həmçinin iqtisadi yönümlü dövlət proqramlarının monitorinqi və qiymətləndirilməsi həyata keçirilir. İİTKM MQ prosesini beynəlxalq təşkilatların tövsiyələrindən, habelə innovativ həllərdən, Dünya Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, BMT strukturlarının və digər beynəlxalq təşkilatların MQ sahəsində əldə olunan nailiyyətlərindən istifadə etməklə həyata keçirir.

Hazırda İİTKM tərəfindən aşağıdakı sənədlər üzrə nəzərdə tutulmuş tədbirlərin və tapşırıqların icra vəziyyətinin monitorinq və qiymətləndirilməsi aparılır:

- Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı;
- 2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı;
- Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019–2020-ci illər üçün Tədbirlər Planı;
- Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı;
- 2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası;
- Milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi.

## AZƏRBAYCAN RESPUBLİKASINDA QİDA TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNƏ DAİR 2019–2025-Cİ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin monitorinq və qiymətləndirilməsini apardığı dövlət proqramlarından biri "Azərbaycan Respublikasında **qida təhlükəsizliyinin təmin edilməsinə dair** 2019–2025-ci illər üçün Dövlət Proqramı"dır. Dövlət Proqramı üzrə 2025-ci ilədək strateji baxış əhalinin sağlam və təhlükəsiz qida ilə tam təmin edilməsinə və bununla da qida mənşəli xəstəliklərin nəzərəçarpacaq dərəcədə azalmasına, habelə kənd təsərrüfatı və qida məhsullarının məhsuldarlığının və rəqabət qabiliyyətinin artırılmasına, inkişaf etmiş ölkələrin bazarlarına ixrac həcminin artırılmasına nail olmağı nəzərdə tutur.




Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 aprel tarixli 1143 nömrəli Sərəncamının 4-cü bəndinə əsasən sözügedən Dövlət Proqramı üzrə nəzərdə tutulmuş tədbirlərin monitorinq və qiymətləndirilməsi İİTKM tərəfindən aparılır. 2019-cu ildən başlayaraq İİTKM tərəfindən monitorinq və qiymətləndirilməsi aparılan Dövlət Proqramının müvafiq il üzrə MQ hesabatı hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

Dövlət Proqramının monitorinq və qiymətləndirilməsi zamanı nəticələr çərçivəsinin indikatorları üzrə hədəflənən və görülmüş işlər üzərində qiymətləndirmələr aparılıb. Görülmüş işlərin qiymətləndirilməsi icraçı qurumlar tərəfindən təqdim edilmiş müvafiq təsdiqedici sənədlər, aidiyyəti tərəflərlə müzakirələr və digər qiymətləndirmə vasitələri əsasında həyata keçirilib. 2019-cu il üzrə görülən tədbirlərin icrası 44 indikator üzərindən 84 faiz səviyyəsində qiymətləndirilib. Bu indiyə qədər monitorinq və qiymətləndirilməsi aparılan dövlət proqramları arasında ən yüksək icra faizi olmaqla yanaşı nəticə əsaslı qiymətləndirilməsi aparılan ilk dövlət proqramıdır. Yəni qiymətləndirmə hər bir tədbir üzrə görülmüş işlər əsasında (fəaliyyət əsaslı) deyil, görülmüş işlərin ilkin, aralıq nəticə və gözlənilən təsir indikatorları əsasında (nəticə əsaslı) aparılıb.

Dövlət Proqramı üzrə 2019-cu ildə əsas icraçı qurumlar Kənd Təsərrüfatı Nazirliyi və AQTA-dır. Hesabata görə, qeyd edilən dövrdə Kənd Təsərrüfatı Nazirliyi üzrə 4 indikatora görə icra faizi 96 faiz, Agentlik üzrə 40 indikatora görə isə icra faizi 82 faiz müəyyən edilib.

## HƏDƏF İNDİKATORLARI ÜZRƏ ƏSAS İCRAÇI QURUMLARIN İCRA VƏZİYYƏTİ



### ƏSAS İCRAÇI QURUMLAR ÜZRƏ İCRA VƏZİYYƏTİ




** Əsas icraçı qurumların performansı və ümumi icra faizi müəyyənləşdirilərkən hər bir qurumun əsas icraçı olduğu tədbirlərdən icra edilmiş tədbirlər üzrə əldə olunmuş ümumi nəticələr həmin qurumların əsas icraçı olduqları tədbirlərin ümumi sayına bölünmüşdür. Belə ki, performans qiymətləndirilərkən ayrı-ayrı indikatorlar üzrə 100 faiz göstəricidən artıq əldə olunmuş nəticələr 100 faiz kimi götürülmüşdür.*

*** Aidiyyəti qurumların məsul olduqları indikatorların sayı bu Dövlət Proqramının nəticələr çərçivəsi üzrə 2019-cu ildə əldə olunması planlaşdırılan nəticələri özündə ehtiva edir.*

Dövlət Proqramının MQ çərçivəsində qida təhlükəsizliyi ilə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsi, infrastruktur təminatının yaxşılaşdırılması, qida təhlükəsizliyi sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsi, elmi sübutlara əsaslanan risklərin təhlili sisteminin formalaşdırılması, dövlət-özəl sektor əməkdaşlığının inkişaf etdirilməsi, müasir texnologiyaların və innovativ həllərin tətbiqi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, qida təhlükəsizliyi ilə bağlı əhalinin maarifləndirilməsi, sağlam qidalanmanın təşviqi və istehlakçı hüquqlarının qorunması və s. istiqamətlərdə 12 əsas prioritet üzrə 2019-cu ildə icra edilmiş fəaliyyətlərin qiymətləndirilməsi aparılıb.

Ümumilikdə, 2019-cu il ərzində Dövlət Proqramı üzrə nail olunması planlaşdırılmış 12 prioritetdən 8-i üzrə tam, 4-ü üzrə isə əsasən nəticələrə nail olunub.

## HƏDƏF İNDİKATORLARI ÜZRƏ PRİORİTETLƏRİN 2019-CU İL ƏRZİNDƏ İCRA VƏZİYYƏTİ



### PRİORİTETLƏR ÜZRƏ İCRA VƏZİYYƏTİ

***2019-cu il üzrə** — ≤ 30% | 31%–80% | ≥ 80%

| | |
|---|---|
| 10.1. Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, qida təhlükəsizliyi ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi | 80 |
| 10.2. Qida təhlükəsizliyi sahəsində infrastruktur təminatının yaxşılaşdırılması | 97 |
| 10.3. Qida təhlükəsizliyi sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsi | 61 |
| 10.4. Qida təhlükəsizliyinin təmin edilməsi sahəsində elmi sübutlara əsaslanan risklərin təhlili sisteminin formalaşdırılması | 94 |
| 10.5. Qida təhlükəsizliyinin təmin edilməsi sahəsində qeydiyyat, təsdiq və sertifikatlaşdırma sisteminin müasir tələblərə uyğun təkmilləşdirilməsi | 100 |
| 10.6. Qida təhlükəsizliyinə risk əsaslı dövlət nəzarəti sisteminin formalaşdırılması | 100 |
| 10.7. Heyvan sağlamlığına nəzarət üzrə effektiv və müasir tələblərə cavab verən sistemin yaradılması | 92 |
| 10.8. Bitki sağlamlığına nəzarət üzrə effektiv və müasir tələblərə cavab verən sistemin yaradılması | 100 |
| 10.9. Qida təhlükəsizliyinin təmin olunması istiqamətində dövlət-özəlsektor əməkdaşlığının inkişaf etdirilməsi | 66 |
| 10.10. Qida təhlükəsizliyi sahəsində müasir texnologiyaların və innovativ həllərin tətbiqi | 67 |
| 10.11. Qida təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi | 100 |
| 10.12. Qida təhlükəsizliyi ilə bağlı əhalinin maarifləndirilməsi, sağlam qidalanmanın təşviqi və istehlakçı hüquqlarının qorunması | 78 |

** Prioritetlərin icra vəziyyəti müəyyənləşdirilərkən hər bir prioritet üzrə tədbirlərdən icra edilmiş tədbirlər üzrə əldə olunmuş ümumi nəticələr tədbirlərin ümumi sayına bölünmüşdür. Belə ki, prioritetlər üzrə hesablamalar aparılarkən ayrı-ayrı indikatorlar üzrə 100 faiz göstəricidən artıq əldə olunmuş nəticələr 100 faiz kimi götürülmüşdür.*

Ölkədə ilk genişmiqyaslı nəticə əsaslı icra və qiymətləndirmə prosesi olan bu proqramın 2019-cu il üzrə MQ hesabatının hazırlanmasında beynəlxalq təşkilatların nəticə əsaslı MQ sahəsində əldə olunan nailiyyətlərindən geniş istifadə edilib. Hal-hazırda isə 2020-ci il üzrə MQ prosesi davam edir. Qeyd edilən il üzrə MQ nəticələrinə əsasən ilkin hesabat hazırlanaraq aidiyyəti üzrə təqdim edilib. İİTKM tərəfindən "Azərbaycan Respublikasında **qida təhlükəsizliyinin təmin edilməsinə dair** 2019–2025-ci illər üçün Dövlət Proqramı" üzrə nəzərdə tutulmuş tədbirlərin icrasının MQ ilə yanaşı indikatorlar siyahısının təkmilləşdirilməsi üzrə AQTA-ya konsultativ dəstək göstərilib.

# 2018-2020-Cİ İLLƏRDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA RƏQƏMSAL ÖDƏNİŞLƏRİN GENİŞLƏNDİRİLMƏSİ ÜZRƏ DÖVLƏT PROQRAMI

## "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Rəqəmsal transformasiya və texnoloji innovasiyalar bir çox maliyyə xidmətinə sürətli, asan və effektiv çıxış əldə etməyə imkan verir.

"2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın (bundan sonra – Dövlət Proqramı) strateji məqsədi vətəndaş, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş mühitinin xeyli genişlənməsi, nağd dövriyyənin həcminin minimuma endirilməsi və nəticədə bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsidir. Bu məqsədlə ölkədə rəqəmsal ödəniş xidmətlərinin institusional və hüquqi bazasının gücləndirilməsi, infrastruktur imkanlarının artırılması yolu ilə həmin xidmətlərin çeşidinin, keyfiyyətinin və tətbiq dairəsinin genişləndirilməsi, habelə onlardan istifadənin kütləviləşdirilməsi başlıca strateji prioritetlərdir.

Rəqəmsal ödənişlərin tətbiqinin və istifadəsinin genişləndirilməsi iqtisadi dövriyyələri şəffaflaşdırmaqla, nağd pulla bağlı xərclərin, bank və müəssisələrin əməliyyat xərclərinin azalmasına gətirib çıxaracaq ki, bu da öz növbəsində, vergi bazasının, habelə əhali və müəssisələrin maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsinə, bank sektorunun kreditləşmə və investisiya imkanlarının gücləndirilməsinə və son nəticədə iqtisadi artıma təkan verəcəkdir.

Bu Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə rəqəmsal ödənişlərin genişləndirilməsi ilə bağlı nəzərdə tutulan tədbirlərin icrası və müəyyən olunmuş icra göstəricilərinə nail olmaq məqsədilə hazırlanmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında elektron ödəniş xidmətlərinin inkişaf etdirilməsi və tətbiqinin genişləndirilməsi məqsədilə qərara alıram:

1. "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Mərkəzi Bankı:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinq və qiymətləndirilməsi Azərbaycan Respublikası Mərkəzi Bankının sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Bakı şəhəri, 26 sentyabr 2018-ci il — İlham ƏLİYEV,

№ 508 — Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli 508 nömrəli Sərəncamı ilə təsdiqlənən “2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın strateji məqsədi vətəndaş, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş mühitinin xeyli genişlənməsi, nağd dövriyyənin həcminin minimuma endirilməsi və nəticədə bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsidir.

Müvafiq Sərəncamın 3-cü bəndinə əsasən, İİTKM 2018-ci ildən etibarən Azərbaycan Respublikası Mərkəzi Bankının sifarişi əsasında Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının MQ-ni həyata keçirir. Cari dövrə qədər 2018-ci il rüblük, 2019-cu il 1-ci yarımillik, 2019-cu il illik, 2020-ci il 1-ci yarımillik olmaqla ümumilikdə 4 hesabat hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.




“2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın əsas icraçı qurumları və MQ-ni həyata keçirən qurum tərəfindən tədbirlər planının digər icraçı qurumlarının rəy və təklifləri nəzərə alınmaqla hər bir tədbir üzrə alt-tədbirləri özündə ehtiva edən Təfsilatlı Tədbirlər Planı işlənib hazırlanıb. Dövlət Proqramının hər bir prioritet istiqaməti bu istiqamətdə yer alan alt-tədbirlər üzərindən qiymətləndirilib.

“2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın 2019-cu ilin icra vəziyyətinin monitorinq və qiymətləndirilməsi əsasında planlaşdırılmış tədbirlərin 50%-nin icrası yekunlaşmış, 2%-i qismən icra edilmiş, 48%-i isə icra olunmamış hesab edilib. Ümumilikdə Proqramın müvafiq dövr üçün icrası 51 bal səviyyəsində qiymətləndirilib.

“2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın 2019-cu ildə icra vəziyyəti



Qeyd edilən dövr üçün “rəqəmsal ödənişlərin institusional mühitinin daha da yaxşılaşdırılması” strateji istiqaməti 67 faiz, “bank sektorunun yenidən canlandırılması” istiqaməti 35 faiz, “rəqəmsal ekosistemin formalaşdırılması” istiqaməti 47 faiz, “rəqəmsal ödənişlər üzrə maarifləndirmə və təbliğatın gücləndirilməsi” strateji istiqaməti isə 55 faiz icra edilmiş olaraq qiymətləndirilib.




Müvafiq proqramın MQ hesabatında, eləcə də əsas icraçı qurumların icra faizləri hesablanaraq reytinq göstəriciləri cədvəli hazırlanıb.

2020-ci il üzrə MQ nəticələrinə əsasən, ilkin hesabat hazırlanıb və aidiyyəti üzrə təqdim edilib. MQ prosesində 2020-ci ildə icra edilmiş və eyni il üzrə nəzərdə tutulan tədbirlərin təhlilinin aparılması, hədəfə nailolunmalar, əsas problemlər və onların həlli yollarının araşdırılması, müvafiq surətdə yekun MQ hesabatının hazırlanaraq aidiyyəti üzrə təqdim olunması nəzərdə tutulur.

## AZƏRBAYCAN RESPUBLİKASINDA PLASTİK QABLAŞDIRMA TULLANTILARININ ƏTRAF MÜHİTƏ MƏNFİ TƏSİRİNİN AZALDILMASINA DAİR 2019–2020-Cİ İLLƏR ÜÇÜN TƏDBİRLƏR PLANI

İİTKM dövlət proqramları ilə yanaşı “Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019–2020-ci illər üçün Tədbirlər Planı” üzrə nəzərdə tutulan işlərin qiymətləndirməsini aparır. Tədbirlər Planı plastik qablaşdırma məhsullarından kütləvi istifadənin bitkilərə, heyvanlara, torpaq və su resurslarına mənfi təsirinin qiymətləndirilməsi əsasında bu sahədə çirklənmənin azaldılması ilə bağlı tədbirlərin icrası məqsədilə hazırlanıb.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 7 fevral tarixli 935 nömrəli Sərəncamının 3-cü bəndinə əsasən, İİTKM 2019-cu ilin 1-ci yarısından etibarən “Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019–2020-ci illər üçün Tədbirlər Planı”nda icrası nəzərdə tutulmuş tədbirlərin monitorinq və qiymətləndirməsini həyata keçirib.




Tədbirlər Planı üzrə 2019-cu ilin I yarımilliyi, 2019-cu il üzrə illik, 2020-ci ilin I yarımilliyi, 2020-ci il üzrə illik və 2019-2020-ci illəri əhatə edən yekun hesabat olmaqla ümumilikdə 5 hesabat hazırlanıb və aidiyyəti üzrə təqdim edilib. Eyni zamanda qeyd edilməlidir ki, Tədbirlər Planı üzrə son iki MQ prosesi Azərbaycanda ilk dəfə olaraq www.monitoring.az portalı vasitəsi ilə elektron platforma üzərindən həyata keçirilib.

**"Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirlərinin azaldılması üzrə 2019–2020-ci illər üçün Tədbirlər Planı"nın Monitorinq və Qiymətləndirilməsinə dair Hesabat**




* Əsas icraçı qurumun performansı müəyyənləşdirilərkən qurumun əsas icraçı olduğu tədbirlərə daxil olan alt-tədbirlərdən icra edilmiş alt-tədbirlər «1» bal, qismən icra edilmiş alt-tədbirlər «0.5» bal, icra edilməmiş alt-tədbirlər «0» bal ilə qiymətləndirilməklə, əldə edilmiş toplam nəticə həmin qurumun əsas icraçı olduğu tədbirlərə daxil olan alt-tədbirlərin ümumi sayına bölünmüşdür.

** Əsas icraçı qurumun məsul olduqları tədbirlərin sayı təfsilatlı tədbirlər planı üzrə monitorinq ediləcək dövr üçün həyata keçirilməsi nəzərdə tutulan alt-tədbirlərin daxil olduğu tədbirləri özündə ehtiva edir.

Tədbirlər Planının icrasına dair MQ çərçivəsində yeganə əsas icraçı qurum olan ETSN-nin məsul olduğu tədbirlərin nəticələri qiymətləndirilib və həm portal üzərindən elektron olaraq, həm də Tədbirlər Planı üzrə nəzərdə tutulan tədbirlərin, prioritetlərin və məqsədlərin icra göstəricisi əks olunan hesabatlar aşağıdakı formada müvafiq icraçı quruma təqdim edilib:

**“Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirlərinin azaldılması üzrə 2019–2020-ci illər üçün Tədbirlər Planı”nın Monitorinq və Qiymətləndirilməsinə dair Hesabat**

| | İcra vəziyyəti |
|---|---|

| Prioritetlərin icra vəziyyəti* | | Əsas icra gostəriciləri “outcome” (2020-ci il üzrə) | | Təsir “impact” |
|---|---|---|---|---|
| Plastik qablaşdırma tullantılarının idarə edilməsi sahəsində potensialın artırılması | | Plastik tullantıların ölkə üzrə selektiv toplanılma səviyyəsi artacaq, ətraf mühitə atılan plastik tullantıların həcmi azalacaqdır. | | 2020-ci ildə plastik qablaşdırma tullantılarının çeşidlənməsi və utilizasiyası səviyyəsi artacaqdır; |
| Plastik qablaşdırma tullantılarının idarə edilməsi sisteminin təkmilləşdirilməsi | | Təkrar emal müəssisələrinin inkişafı və yeni müəssisələrin yaradılması üçün daha münbit şərait yaradılacaqdır. | Plastik qablaşdırma tullantılarının idarə olunması ilə bağlı qanunvericilik bazası təkmilləşdiriləcək, ümumilikdə, plastik tullantıların ölkədə təkrar emalı səviyyəsi artacaqdır. | |
| Plastik qablaşdırma tullantılarının idarə edilməsi üzrə məlumat bazasının yaradılması | | Plastik qablaşdırma məhsullarının istehsalçılarının və idxalçılarının uçot, hesabatvermə və monitorinq sistemi yaradılacaqdır. Plastik qablaşdırma tullantılarının göstəriciləri və emal sahəsində istifadə olunacaq xammal ehtiyatı ilə bağlı məlumat sistemi formalaşacaq, uçot və hesabatvermə sistemi təkmilləşdiriləcəkdir. | | 2020-ci ildə plastik qablaşdırma tullantılarının təkrar emal səviyyəsi artacaqdır; |
| Plastik qablaşdırma materiallarından istifadənin beynəlxalq təcrübəyə uyğunlaşdırılması | | Plastik torbalardan istifadə səviyyəsi azalacaq, alternativ qablaşdırma materiallarından istifadə artacaqdır. | | 2020-ci ildə alternativ qablaşdırma vasitələrindən istifadə səviyyəsi artacaqdır. |
| Plastik qablaşdırma tullantılarının səmərəli idarə olunmasının, yaranma tempinin azaldılmasının, o cümlədən alternativ qablaşdırma materiallarından istifadənin əhəmiyyəti haqqında maarifləndirmə və təbliğatın gücləndirilməsi | | | | |

* Prioritetlərin icra vəziyyəti təfsilatlı tədbirlər planı üzrə monitorinq ediləcək dövr üçün həyata keçirilməsi nəzərdə tutulan alt-tədbirləri özündə ehtiva edir.

Ümumilikdə, müvafiq hesabat dövründə Tədbirlər Planı üzrə hədəflərə nail olunması planlaşdırılmış prioritetlər əsasən icra olunmuş olaraq qiymətləndirilib.

## ÖZÜNÜMƏŞĞULLUQ TƏDBİRLƏRİNİN MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Azərbaycan Respublikasının Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1758 saylı Fərmanının və 2018-ci il 21 dekabr tarixli "İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1351-VQ nömrəli Qanununun tətbiqi barədəki Fərmanının 5-ci bəndinin icrasını təmin etmək üçün İİTKM tərəfindən "Özünüməşğulluq tədbirlərinin təşkili" ilə bağlı görülmüş işlərin monitorinq və qiymətləndirilməsi həyata keçirilib, hesabat hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

İİTKM tərəfindən aparılan MQ, habelə verilən tövsiyələr özünüməşğulluq proqramı üzrə növbəti illərdə davam edən fəaliyyətlərin genişləndirilməsinə münbit şərait yaradıb.


Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

2018-ci il ərzində özünüməşğulluq tədbirlərinin təşkili ilə bağlı görülmüş işlərin monitorinq və qiymətləndirilməsi üzrə

HESABAT

Bakı - 2019



## YERİN TƏKİNİN GEOLOJİ ÖYRƏNİLMƏSİNƏ VƏ MİNERAL XAMMAL BAZASINDAN SƏMƏRƏLİ İSTİFADƏYƏ DAİR 2020-2024-CÜ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI

İİTKM-in monitorinq və qiymətləndirilməsini apardığı başqa bir proqram isə "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı"dır. Dövlət Proqramı sistemləşdirilmiş geoloji tədqiqatların (regional geoloji, geofiziki, hidrogeoloji, mühəndisi-geoloji, geoekoloji) aparılmasını, perspektiv sahələrdə geoloji axtarış və geoloji kəşfiyyat işlərinin yerinə yetirilməsini, mineral xammal ehtiyatlarının və resurslarının hesablanmasını, yerin dərinlik quruluşunun, seysmohidrogeodinamik şəraitinin, ekzogen geoloji proseslərin və digər təbiət hadisələrinin öyrənilməsini və mineral xammal bazasından səmərəli istifadəni özündə ehtiva edir.


Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

"Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı"nın monitorinq və qiymətləndirilməsinin əsas prinsiplərinə dair

METODOLOJİ ÇƏRÇİVƏ

Bakı - 2021




Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 16 mart tarixli 1941 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Dövlət Proqramının 7-ci bəndinə əsasən, Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının MQ Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sifarişi əsasında İİTKM-ə tapşırılıb. İİTKM cari ildən etibarən "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı" üzrə icrası tapşırılan tədbirlərin tam, effektiv və vaxtında icrasının həyata keçirilməsinin monitorinq və qiymətləndirməsini aparır. Bunun üçün Proqramın metodoloji çərçivəsi hazırlanaraq aidiyyəti üzrə təqdim edilib. 2020-ci il MQ prosesində İİTKM əsas icraçı qurum olan Azərbaycan Respublikasının ETSN-dən təqdim olunmuş məlumatları və müvafiq təsdiqedici sənədləri təhlil edərək qiymətləndirmə hesabatını hazırlayıb və müvafiq quruma təqdim edib. MQ-nin aparılması ilə yanaşı İİTKM Proqramın Təfsilatlı İcra Planının hazırlanmasında yaxından iştirak edib, plana rəy və təkliflərini bildirib. 2021-ci il üzrə MQ prosesi davam edir.

## 2019–2030-CU İLLƏR ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ MƏŞĞULLUQ STRATEGİYASI


Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

"Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün Tədbirlər Planı" üzrə müəyyən edilmiş vəzifələrin icrasının monitorinq və qiymətləndirilməsinin əsas prinsiplərinə dair

METODOLOJİ ÇƏRÇİVƏ

Bakı - 2021

İİTKM qeyd edilən fəaliyyətlərlə yanaşı "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın monitorinq və qiymətləndirməsini həyata keçirir. Strategiya məşğulluğun inkişafına və layiqli əməyin təmin olunmasına imkan verən əmək bazarının tənzimlənməsinə dair qanunvericilik bazasının və institusional strukturun təkmilləşdirilməsi, işçi qüvvəsinin bacarıqlarının yüksəldilməsi, əmək məhsuldarlığının artırılması, aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və sosial müdafiəyə xüsusi ehtiyacı olan əhali qruplarının əmək bazarına inteqrasiyasının gücləndirilməsi, sosial dialoqun davamlı aparılması, əmək standartlarının yenilənməsi, əmək bazarının monitorinqi və

proqnozlaşdırılması sisteminin inkişafı məsələlərini özündə əks etdirməklə, məşğulluq siyasətinin ekstensiv mərhələdən intensiv mərhələyə keçidinin təmin edilməsinə istiqamətləndirilib.

"2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 30 oktyabr tarixli 602 nömrəli Sərəncamının 5-ci bəndi ilə Strategiya üzrə planlaşdırılan icranın səmərəliliyinin və effektivliyinin təmin edilməsi məqsədilə tədbirlərin monitorinq və qiymətləndirilməsi hal-hazırda İİTKM tərəfindən həyata keçirilir. MQ beynəlxalq və yerli təcrübəyə əsaslanaraq hazırlanmış metodoloji çərçivə əsasında aparılır. İİTKM MQ fəaliyyəti ilə yanaşı Tədbirlər Planı üzrə nəzərdə tutulan fəaliyyətlərin icrasının səmərəliliyinin artırılması üçün Təfsilatlı Tədbirlər Planının hazırlanması prosesində birbaşa iştirak edib, Strategiya üzrə tədbirlərin əsas icraçıları ilə müzakirələr aparıb, hər bir alt-tədbir üzrə müvafiq qaydada rəy və təkliflər verib.

## STRATEJİ YOL XƏRİTƏLƏRİNİN MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Strateji yol xəritələri postsovet məkanında yeni iqtisadi çağırışlar fonunda bütün maraqlı tərəflərin iştirakı və açıq ictimai müzakirələr aparılmaqla qəbul edilən ilk belə sənəd olması baxımından böyük əhəmiyyət daşıyır. Azərbaycan Respublikasının Prezidenti 6 dekabr 2016-cı il 1138 nömrəli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanı ilə təsdiq edilən SYX-də nəzərdə tutulan fəaliyyətlərin monitorinq və qiymətləndirilməsi 2017-ci ildən başlayaraq İİTKM tərəfindən həyata keçirilir. İİTKM beynəlxalq metodologiyalar, habelə daxilində formalaşmış institusional yaddaş və təcrübəyə əsaslanaraq milli iqtisadiyyat perspektivi və 11 iqtisadi sektora dair yol xəritəsinin monitorinq və qiymətləndirilməsini həyata keçirir.

**Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

....

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin perspektiv inkişaf hədəflərini və istiqamətlərini müəyyənləşdirmək, onların gerçəkləşdirilməsini təmin etmək məqsədilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamına uyğun olaraq qərara alıram:

...

"2.2. bu Fərmanla təsdiq edilən strateji yol xəritələrində nəzərdə tutulmuş fəaliyyətlərlə bağlı monitorinq, qiymətləndirmə və kommunikasiya tədbirlərini İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirir."

Bakı şəhəri, 6 dekabr 2016-cı il
№ 1138

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

## MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ APARILAN STRATEJİ YOL XƏRİTƏLƏRİ

Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi

Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi

Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi

Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi

Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi

Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi

Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi

Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi

Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi

Qeyd edilən ildən proqram idarəetməsinə uyğun olaraq icra, monitorinq, qiymətləndirmə, koordinasiya və kommunikasiya məsələləri çərçivəsində davamlı olaraq icraçı qurumlarla müzakirələr aparılıb, onların rəy və təklifləri toplanıb, ümumilikdə 50-yə yaxın dövlət qurumundan daxil olmuş hesabatlar təhlil edilərək icraçı qurumların reytinqi və görülən işlərə dair müvafiq MQ hesabatları hazırlanıb. Hesabatlarda həyata keçirilmiş tədbirlər barədə təhlillər, MQ nəticələri, habelə icra prosesində qarşıya çıxan problemlərin həlli və qoyulmuş hədəflərə nail olunma üçün tövsiyələr öz əksini tapıb.

## MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ HESABATI

Tədbirlər Planı

| 1.1 Prioritet | | | | |
|---|---|---|---|---|
| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə |
| **1.1.1 Tədbir** | | | **2018-2020** | **icra edilmişdir** |
| **1. Alt-tədbir** | | | **2018** | **icra edilmişdir** |
| Monitorinq və qiymətləndirmə sualı | | | 2018-ci ilin birinci yarımili | 2020-ci ildə icra edilmişdir |
| Monitorinq və qiymətləndirmə sualı | | | 2018-ci ilin ikinci yarımili | Bəli |
| **2. Alt-tədbir** | | | **2019** | **icra edilmişdir** |
| Monitorinq və qiymətləndirmə sualı | | | 2019-mütəmadi | Bəli |
| Monitorinq və qiymətləndirmə sualı | | | 2019-mütəmadi | Bəli |
| **3. Alt-tədbir** | | | **2020** | **qismən icra edilmişdir** |
| Monitorinq və qiymətləndirmə sualı | | | 2020-ci ilin birinci yarımili | Bəli |
| Monitorinq və qiymətləndirmə sualı | | | 2020-ci ilin ikinci yarımili | Xeyr |
| Monitorinq və qiymətləndirmə sualı | | | 2020-mütəmadi | Bəli |
| Monitorinq və qiymətləndirmə sualı | | | 2020-mütəmadi | Bəli |
| Monitorinq və qiymətləndirmə sualı | | | 2020-mütəmadi | Xeyr |

Hesabatlar dövlət qurumlarına hər bir prioritet, tədbir, alt-tədbirin icra vəziyyəti və MQ suallarının yekun nəticəsi qeyd edilməklə yuxarıdakı formada təqdim olunur. Bundan başqa nəzərdə tutulan strateji hədəflərin, eləcə də hər bir prioritetin icra göstəriciləri üzrə aşağıdakı formada ayrı-ayrı hesabatlar hazırlanaraq müvafiq sənədin bütün parametrləri üzrə məlumatlar kompleks şəkildə dövlət qurumlarına təqdim edilir.




* Əsas icraçı qurumların performansı müəyyənləşdirilərkən hər bir qurumun əsas icraçı olduğu tədbirlərdən icra edilmiş tədbirlər «1» bal, qismən icra edilmiş tədbirlər «0.5» bal, icra edilməmiş tədbirlər «0» bal ilə qiymətləndirilməklə, əldə edilmiş toplam nəticə həmin qurumların əsas icraçı olduqları tədbirlərin ümumi sayına bölünmüşdür.

** Aidiyyəti qurumların məsul olduqları tədbirlərin sayı müvafiq il üzrə həyata keçirilməsi nəzərdə tutulan tədbirləri özündə ehtiva edir.

### Prioritetlərin icra vəziyyətinə dair monitorinq və qiymətləndirilmə Hesabatı

88% - Müvafiq il üzrə ümumi icra vəziyyəti

| Prioritetlərin icra vəziyyəti* | | Əsas icra göstəriciləri "outcome" | Təsir** "outcome" |
|---|---|---|---|
| Prioritet 1 | 95% | | |
| Prioritet 2 | 94% | | |
| Prioritet 3 | 79% | | |
| Prioritet 4 | 85% | | |
| Prioritet 5 | 83% | | |
| Prioritet 6 | 82% | | |
| Prioritet 7 | 75% | | |
| Prioritet 8 | 78% | | |
| Prioritet 9 | 86% | | |
| Prioritet 10 | 89% | | |

* Prioritetlərin icra vəziyyəti müvafiq ildə həyata keçirilməsi nəzərdə tutulan tədbirləri özündə ehtiva edir.

** Təsir indikatoru üzrə qiymətləndirmə müvafiq dövrün sonunda aparılır.

Hazırlanmış hesabatlar strateji yol xəritələrinin icrası dövründə və onun nəticələrinin qiymətləndirilməsi dövründə mühüm əhəmiyyət kəsb edir. SYX istiqamətində görülmüş işlərin monitorinq və qiymətləndirilməsinə dair 2017-ci ilin 1-ci yarımilliyi, 2017-ci il illik, 2018-ci il illik, 2019-cu il illik olmaqla milli iqtisadiyyat perspektivi və 11 iqtisadi sektora dair yol xəritəsi üzrə bu müddət ərzində toplam 48 yekun hesabat hazırlanaraq müvafiq əlaqələndirici qurumlara təqdim edilib.

# MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ METODOLOGİYASI

Son zamanlar çox sayda dünya ölkələrində hökumətlər tərəfindən öz performanslarını ölçmək, eləcə də öz fəaliyyət nəticələrini yaxşıya doğru inkişaf etdirmək məqsədilə MQ institutları yaradılır. Bu proses son zamanlar dar fiskal çərçivə və vətəndaşların dövlət xidmətlərinin keyfiyyətinə olan tələbinin artması ilə daha da vacib məsələyə çevrilir. MQ institutları dövlət tərəfindən təqdim olunan xidmətlərin, həmçinin həyata keçirilən sosial-iqtisadi siyasətin kəmiyyətini, keyfiyyətini ölçərək hədəflərə nə dərəcədə nail olunmasını ortaya çıxarır. Bu institutlar həm də yaxşı və zəif performansın səbəblərinin anlaşılmasını asanlaşdırmağa yardımçı olan əsas vasitələrdən biridir. MQ institutları dövlət idarəetməsinin istənilən səviyyəsində, yəni yerli orqan, bütöv sektor və ümumi hökumət səviyyəsində fəaliyyət göstərə bilər.

Beləliklə, ortaya bu sual çıxır: monitorinq və qiymətləndirmə ayrı-ayrılıqda nədir? Nə üçün bu qədər vacibdir?

- Monitorinq - müəyyənləşdirilmiş göstəricilər üzrə məlumatın sistematik yığımından istifadə edərək rəhbərliyi və davam edən inkişaf müdaxiləsinin əsas maraqlı tərəflərini tərəqqi və məqsədlərə nail olunma səviyyəsi, habelə ayrılmış vəsaitlərdən istifadə vəziyyətinə dair informasiya ilə təmin edən davamlı funksiyadır.
- Qiymətləndirmə - davam edən və ya tamamlanmış layihə, proqram və ya siyasətin, onların tərtibatı, tətbiqi və nəticələrinin sistematik və obyektiv qaydada qiymətləndirilməsidir.

MQ institutları milli, sektorial və sub-sektorlar üzrə rəhbərliyi layihə, proqram və strategiyaların performans göstəriciləri barədə vacib analitik informasiya ilə təmin edir. Digər sözlə, MQ prosesi fəaliyyətin həyata keçirilməsi zamanı nəyin işlədiyini, nəyin işləmədiyini müəyyən etməklə, bunun səbəbləri haqqında geniş informasiyanı təmin edir. MQ ayrı-ayrı qurumlar, rəhbərlər və heyət ilə bağlı performans nəticələrini müəyyən edərək yaxşı təcrübələrin işıqlandırılmasını təmin edir.

Şübhəsiz ki, bu fəaliyyətin həyata keçirilməsinin müsbət nəticələri layihənin erkən icra mərhələsindən sonrakı dövrdə özünü göstərir. Erkən icra dövründə məhz MQ fəaliyyəti ilə hansı layihə alt-komponentlərinin icra edilmədiyi və səbəbləri, hansı alt-komponentlərin istənilən hədəflərə gətirib çıxarmadığı müəyyən edilərək hərtərəfli dövlət siyasətinin, strategiyasının təhlili aparılır. Məhz bunun sayəsində dəlillərə əsaslanan siyasət formalaşdırılır.

Bu fəaliyyətin digər vacib faydalarından biri də büdcə resurslarının səmərəli və düzgün bölgüsünü təmin etməyə kömək etməsidir. Keçmiş təcrübələrdən qazanılan biliklər vasitəsilə büdcə kənarlaşmaları minimumlaşdırılır, bunun nəticəsində isə illik fəaliyyət planında ən uyğun və səmərəli proqramın qəbuluna imkan yaranır.

Həyata keçirilən layihənin növbəti dövründə, yəni büdcə tərəfindən maliyyələşdirmə və nəzərdə tutulan tədbirlərin icrası mərhələsində MQ fəaliyyəti menecerlərə tədbirlərin icrasına, eləcə də resursların düzgün və vaxtında bölgüsünə nəzarətin təmin olunmasına şərait yaradır. Beləliklə, plana uyğun olmayan proseslərin cəld bir şəkildə müəyyən olunması və uyğun preventiv addımların atılması təmin edilir.

MQ fəaliyyəti güclü hesabatlılıq sistemi qurulmasına da təkan verir. Belə ki, icraçı strukturlar, qanunverici orqanlar, digər səlahiyyətli qurumlar, eləcə də vətəndaş cəmiyyəti qarşısında hesabatlılığın formalaşdırılması təmin olunur.

MQ fəaliyyətinin həyata keçirilməsində digər məqsəd əldə olunmuş təcrübələrin sənədləşdirilərək saxlanmasıdır. Belə ki, icra zamanı əldə edilən məlumatlar toplanaraq saxlanılır və onlardan gələcək dövrlərdə istifadə olunur. Ümumi olaraq qeyd etmək olar ki, MQ aşağıdakı istiqamətlərdə xüsusi əhəmiyyət daşıyan fəaliyyət növü hesab edilir:

- Siyasətin müəyyən olunması və onun inkişaf etdirilməsi;
- Dəlillərə əsaslanan siyasətin hazırlanması və büdcələmə;
- Performans idarəetməsi;
- Hesabatlılıq.

Monitorinq və qiymətləndirmə fəaliyyəti auditdən həm konseptual baxımdan, həm həyata keçirilən fəaliyyətin məqsədinə görə fərqlənir. Audit monitorinqdən fərqli olaraq, əsasən, aşağıdakı istiqamətlərə fokuslanan fəaliyyət növü hesab edilir:




- Protokollara, qanunlara, qaydalara, standartlara uyğunluğun yoxlanılması;
- Həyata keçirilən işlər üçün istifadə edilən resursların və prosedurların leqallığının yoxlanılması;
- Layihə, proqram və strategiyaların idarəetmə prosesinin tərkib hissəsi olmadan müstəqil fəaliyyət növü kimi həyata keçirilməsi.

## MQ SİSTEMLƏRİNİN DÖVLƏT İDARƏÇİLİYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ ROLU

Dövlət MQ sistemləri, əsasən, hökumət tərəfindən icra olunan proqram və layihələrin ilkin, aralıq və yekun nəticələri üzərində fokuslanır. Artıq məlumdur ki, MQ sistemləri dövlət idarəetmə strukturunun bütün səviyyələrində, eləcə də milli, sektorial və sub-sektor dövlət proqram və layihələrinin dəyərləndirilməsində istifadə oluna bilir. Amma digər bir diqqət edilməsi vacib olan məsələ bu fəaliyyətin uğurla icra olunmasının təmin olunmasından ibarətdir. Aşağıda qeyd olunan 3 xüsusiyyət uğurlu MQ sistemlərində mövcud olur:

- Dövlət siyasətinin həyata keçirildiyi bütün dövrlərdə MQ sistemi vasitəsilə toplanmış məlumatların aktiv şəkildə istifadəsi;
- Toplanılan informasiyanın qiymətləndirmə standartlarına uyğunluğu və məlumatların etibarlılığı;
- Hökumətdə və idarəetmədə baş verən sistem dəyişikliklərinə davamlılığı.




MQ fəaliyyətinin dövlət idarəetməsində performansın artımına hansı formada müsbət təsir göstərməsini yuxarıdakı sxemdə müşahidə edə bilərik. İlk mərhələdə icra prosesində olan proqram yenidən nəzərdən keçirilir, kənarlaşmalar müəyyən edilir. Bundan sonra proqram həyata keçirilməsi üçün siyasət yenidən təkmilləşdirilir və planlaşdırma həyata keçirilir. Təkmilləşdirilmiş siyasət əsasında büdcə planlaşdırması aparılır. Proqram üzrə nəzərdə tutulan tədbirlər icra olunur və idarəetmə təmin edilir. Bundan sonrakı mərhələdə davamlı olaraq fəaliyyətin monitorinqi və xərc hesabatlılığı aparılır. Tsiklin yekun mərhələsində monitorinq zamanı müəyyən edilən məlumatlar əsasında qiymətləndirmə aparılır. Bu proseslər yekunlaşdıqdan sonra siyasətə yenidən baxılır və təkmilləşdirmə üçün işlər həyata keçirilir. Bu proses proqram tam icra olunub bitənə qədər aparılır və proqramın davamlılığı təmin olunur. Beləliklə, MQ sistemlərinin dövlət idarəetməsində performansın artırılmasında əsas vasitələrindən biri kimi mühüm rola malik olduğu aydındır.

## MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏNİN NÖVLƏRİ VƏ METODOLOJİ İNKİŞAF

Monitorinq və qiymətləndirmədən dövlət idarəçiliyində istifadənin tarixi İƏİT ölkələrində onilliklər əvvəllərə getsə də, monitorinq və qiymətləndirmə funksiyaları zamanla təkmilləşdirilib. Xüsusi olaraq, ənənəvi, icraya əsaslanan MQ-dən nəticəyə əsaslanan monitorinq və qiymətləndirməyə keçid tədricən baş verib və zamanla fəaliyyətlərin nəticələrinə, təsirlərinə və daha geniş miqyasda faydalarına diqqət verilməyə başlanıb. Monitorinq və qiymətləndirmə istənilən fəaliyyətin icrası ilə əlaqədar "nə olsun?" sualını ortaya qoyur. Başqa sözlə, nəticə əsaslı MQ zamanı tədbirin icra edilməsinin daha geniş ictimai mənafe baxımından əhəmiyyətinin nədən ibarət olması ön plana çıxır.

Ənənəvi icraya əsaslanan MQ-nin əsasını çox vaxt yoxlama, yaxud fəaliyyətin keçirilib-keçirilməməsi təşkil edir. Bu yoxlamalarda, əsasən, nəzərdə tutulan hədəflərin əldə olunub-

olunmaması yoxlanılır və müəyyən məsuliyyət vahidlərinin diqqətinə çatdırılır. Ənənəvi monitorinq və qiymətləndirməyə adətən aşağıdakılar daxil edilir:

- Fəaliyyətdən əvvəl problem və ya vəziyyətin təsviri;
- Fəaliyyət və təxirəsalınmaz nəticələr üçün bençmarklar (müqayisəli göstəricilər);
- Töhfələr, fəaliyyətlər və təxirəsalınmaz nəticələrə dair məlumatların toplanması;
- Verilən töhfələrlə bağlı hesabatların sistematik olaraq təqdim olunması;
- Nəticələrin əldə olunmasına dair sistematik hesabatvermə;
- Birbaşa konkret fəaliyyətlə bağlılığın olması;
- Daha çox inzibati, icra və idarəetmə məsələləri barədə məlumatların verilməsi üçün hesabatların hazırlanması.

Öz növbəsində, nəticəyə əsaslanan MQ ənənəvi MQ-nin inkişaf etdirilmiş forması olub nəticələrin əldə olunub-olunmadığını, fəaliyyətlərin baş verib-vermədiyini və nəticədə nə baş verdiyini yoxlayır. Burada əsas diqqət ənənəvi monitorinq və qiymətləndirmə vasitəsilə müşahidə olunan tərəqqinin ümumi məqsədlərə nə dərəcədə nail olmanın müəyyənləşdirilməsinə yönəlir. Nəticəyə əsaslanan monitorinq və qiymətləndirməyə adətən aşağıdakılar daxil edilir:

- Fəaliyyətin həyata keçirilməsindən əvvəl problem və ya vəziyyətin təsviri üçün baza məlumatlarının toplanması;
- Nəticələrə dair göstəricilərin müəyyən edilməsi;
- Nəticələrə və onların məqsədlərə nail olunmasına nə dərəcədə töhfə vermәsinə dair məlumatların toplanması;
- Nəticələrə doğru tərəqqiyə dair keyfiyyət və kəmiyyət məlumatlarının hesabatının daha sistematik şəkildə çatdırılması;
- Strateji qruplarla birlikdə həyata keçirilməsi.

Nəticə əsaslı monitorinq və qiymətləndirmənin həyata keçirilməsi üçün indikatorlar həyata keçirilən proqramın bütün səviyyələrində düzgün formada dizayn olunmalıdır. Bu o deməkdir ki, proqramdan gözlənilən nəticələr müxtəlif səviyyələr üzrə tərtib edilmiş indikatorlar vasitəsilə qiymətləndirilir. Ümumilikdə müxtəlif proqramlar, layihələr, eləcə də strategiyalar üzrə aşağıdakı formada səviyyələr müəyyən edilməli və MQ fəaliyyəti bu səviyyələrə görə əvvəlcədən təyin edilmiş indikatorlar vasitəsilə həyata keçirilməlidir. Proqramın icrası üçün ilk səviyyə icra mərhələsi üçün lazım olan resursların təmin edilməsidir. Bundan sonrakı mərhələdə ayrılmış resurslar vasitəsilə proqramın həyata keçirilməsi istiqamətində addımlar atılır, yəni müəyyən fəaliyyət həyata keçirilir. Növbəti mərhələdə həyata keçirilən fəaliyyətin ilkin nəticələri meydana gəlir ki, bu nəticələr də ilkin nəticə indikatorları vasitəsilə qiymətləndirilir. Bundan sonra müəyyən edilmiş ilkin nəticələr proqramın icrasının ortamüddətli dövründə gözlənilən aralıq nəticələrin yaranmasına təkan verir və bu nəticələr aralıq nəticə indikatorları vasitəsilə qiymətləndirilir. Nəhayət proqramda nəzərdə tutulmuş fəaliyyətlərin son nəticəsi olaraq yekun nəticələr meydana gəlir ki, bu nəticələr isə yekun nəticə indikatorları vasitəsilə qiymətləndirilir. Nəzərdə tutulan proqramın uğurla həyata keçirilməsi və proqramdan kənarlaşmaların vaxtında müəyyən edilməsi üçün əvvəlcədən bütün səviyyələr üzrə indikatorlar təsbit edilir.



## İNDİKATORLAR (GÖSTƏRİCİLƏR) NƏDİR?

Monitorinq və qiymətləndirmə qərar qəbul edən şəxslərə uğurun ölçülməsində göstəricilər ortaya qoymaqla proqramın nə qədər işləyib-işləmədiyinin müəyyənləşdirilməsində kömək edir. Bu göstəricilər spesifik olaraq indikatorlar kimi tanınır və hər hansı nəticə və ya dəyişikliyin ölçülməsində istifadə olunan ölçü (göstərici) kimi müəyyən edilir. İndikator komponentlərinə aşağıdakılar daxildir:

- İndikatorun adı: qısa olmalı, nəyin ölçüldüyünün əsas mahiyyətini özündə ehtiva etməlidir;
- Tərifi (açıqlaması): nəyin ölçülməsi haqqında detalları, o cümlədən alt-komponentlərin siyahısını və hesablama metodlarını özündə əks etdirir;
- Mənbə: məlumatlar kim tərəfindən və ya haradan əldə edilir;
- Tezlik: məruzə olunan indikatora dair məlumat hansı tezlikdədir;
- Vahid: indikatoru ölçmək üçün istifadə olunan kəmiyyət (kəmiyyət indikatorları üçün);
- Baza göstərici: fəaliyyətə başlama müddətinin başlanğıcındakı vəziyyəti ölçür;
- Hədəf: hər hansı subyektin müəyyən zaman kəsiyində nail olmaq istədiyi hesablana bilən göstəricini bildirir.

| İndikatorun adı | Tərifi (açıqlaması) | Mənbəyi | Tezliyi | Vahidi | Baza | Hədəf 2021 | Hədəf 2022 | Hədəf 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Qeyri-neft sektoru üzrə ixracda artım | Qeyri-neft sektoru üzrə ixracın həcmi (manatla) | Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi | İllik | Milyon manat | | | | |

İndikatorlar kəmiyyət, həmçinin keyfiyyət indikatorları formasında ola bilər. Keyfiyyət indikatorları daha çox aidiyyəti prosesləri təsvir edir və fəaliyyətlərin daha yaxşı anlaşılmasına kömək edir. Bundan əlavə, keyfiyyət indikatorları fəaliyyətlərlə bağlı rəqəm formasında olmayan məlumatların ölçülməsinə kömək edir.

İndikatorlar müəyyən edilərkən SMART kriteriya uyğunluğu nəzərə alınmaqla hazırlanmalıdır. SMART kriteriya uyğunluğu dedikdə indikatorların aşağıdakı kriteriyalar əsasında hazırlanması nəzərdə tutulur:

- Spesifik: indikator nəzərdə tutulan nəticənin qiymətləndirilməsi üçün mümkün qədər konkret olmalıdır. Ona görə də, indikatorun ölçmək istədiyi müvafiq nəticəni əvvəlcədən müəyyən etmək gərəkdir;
- Ölçüləbilən: ölçülən məsələ ilə bağlı aydın və tam müəyyənliyi əks etdirməlidir;
- Əlaqəli/əldə oluna bilən: proqramda nəzərdə tutulan fəaliyyətlər ilə əlaqəlidir/fəaliyyətlər zamanı əldə edilə biləndir. Burada proqramın nəyə dəstək verdiyinə fokuslanmaq lazımdır;
- Uyğunluq: mövzuya uyğunluq. İndikator nəzərdə tutulan nəticənin qiymətləndirilməsi üçün uyğun olmalıdır. Bu kriteriya adətən ölçmə növünün aidiyyəti araşdırma sahəsinə müvafiq olmasını özündə ehtiva edir;
- Zaman çərçivəliliyi: İndikatorlar hədəflər və fəaliyyətlərin müddəti ilə bağlı spesifik olmalıdır. Dövlət proqramının məqsədləri üçün, zaman baxımından uyğunluq dedikdə proqramın illər üzrə icra dövrünə uyğunluq nəzərdə tutulur. Beləliklə, vaxt əsasında müəyyən edilən indikatorlar baş verəcək dəyişiklikləri əhatə etməli və müvafiq dövrdə ölçülməlidir.

İndikatorlar üzrə nəticələrin ölçülməsi tam olaraq mümkün olmazsa, mütləq təsirin sıfırlanması, ekstrapolyasiya və ya ümumi fəaliyyət əsaslı meyar qiymətləndirməsindən istifadə edilə bilər.



Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda MQ institutu strateji idarəetmənin tərkib hissəsi kimi formalaşdırılır. İİTKM tərəfindən BMT İnkişaf Proqramı, Dünya Bankı və Avropa İttifaqının dəstəyilə monitorinq və qiymətləndirmə çərçivəsi və metodologiyası hazırlanıb. Metodologiya çərçivəsində fəaliyyət əsaslı və nəticə əsaslı MQ yanaşmaları işlənilib. Eyni zamanda beynəlxalq inkişaf partnyorlarının dəstəyilə həm İİTKM, həm də monitorinq və qiymətləndirilməsi aparılan qurumlarda bu sahədə bacarıqların artırılması həyata keçirilir. İİTKM tərəfindən həm fəaliyyət əsaslı, həm də nəticə əsaslı MQ fəaliyyəti aparılır.

İlk dəfə ölkədə "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı"nın nəticə əsaslı monitorinq və qiymətləndirilməsi İİTKM tərəfindən həyata keçirilib.

## "AZƏRBAYCAN RESPUBLİKASINDA QİDA TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNƏ DAİR 2019–2025- Cİ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI"NIN NƏTİCƏƏSASLI MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRİLMƏSİNİN İNDİKATORLAR ÜZRƏ HESABATI

Nümunə

| Tədbirin № | Fəaliyyətin adı | Əsas İcraçı Qurum | Digər İcraçılar | İcra müddəti | İlkin nəticə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | İndikatorun adı | Ölçü vahidi | İzahı | Baza göstərici 2018-ci il | Hədəf göstərici 2019-cu il | Nail olunmuş hədəf göstəricisi 2019-cu il | İndikatorun icra faizi | İndikator üzrə əlavə qeydlər |
| **2019-cu il üzrə** | | | | | | | | ≤ 30% (qırmızı) | | 31% - 80% (sarı) | | ≥ 80% (yaşıl) |
| 10.2.1. | Qida təhlükəsizliyi sisteminə daxil olan mövcud laboratoriyaların diaqnostik qiymətləndirilməsinin aparılması | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi | 2019 | Laboratoriyaların diaqnostik qiymətləndirmə hesabatı | Bəli/Xeyr | Laboratoriyaların mövcud vəziyyətinin qiymətləndirilməsi, onların optimallaşdırılması və modernləşdirilməsinə dair hesabat | Xeyr | Bəli | Bəli | 100 | |
| 10.2.4. | Qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən laboratoriyaların milli və beynəlxalq akkreditasiyasının keçirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | İqtisadiyyat Nazirliyi | 2019-2022 | Yerli və beynəlxalq akkreditasiyadan keçmiş laboratoriyaların sayı | Ədəd | Beynəlxalq standartlara uyğun fəaliyyət göstərən yerli və beynəlxalq akkreditasiyadan keçmiş laboratoriyaların sayı | 1 | 1 | 1 | 100 | |
| 10.4.1. | Beynəlxalq təcrübə nəzərə alınmaqla, risklərin təhlili metodologiyasının və qaydasının hazırlanması | Qida Təhlükəsizliyi Agentliyi | Ədliyyə Nazirliyi | 2019 | Qida təhlükəsizliyi və heyvan sağlamlığı üzrə risklərin təhlili qaydaları hazırlanıb | Bəli/Xeyr | Risklərin təhlili risk qiymətləndirməsi, risklərin idarə edilməsi və risk kommunikasiyası komponentlərini özündə birləşdirir | Xeyr | Bəli | Bəli | 100 | |
| 10.9.1. | Qida təhlükəsizliyi sahəsində dövlət-özəl sektor əməkdaşlığı üzrə platformaların yaradılması istiqamətində tədbirlər görülməsi | Qida Təhlükəsizliyi Agentliyi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2019-2025 | Özəl sektor cəlb edilməklə yaradılan platformaların sayı | Ədəd | Özəl sektorun iştirakı ilə yaradılan yeni platformaların (işçi qrup, komissiya, şura) sayı | 0 | 3 | 2 | 67 | |
| 10.9.3. | Sahibkarlıq subyektləri tərəfindən qida təhlükəsizliyi üzrə idarəetmə sistemlərinin (HACCP və digər beynəlxalq standartların) və qabaqcıl fəaliyyət kodekslərinin (GAP, GHP, GMP və s.) tətbiqi ilə bağlı dəstək tədbirlərinin həyata keçirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | | 2019-2025 | Qida təhlükəsizliyi idarəetmə sistemləri barədə məsləhət xidmətləri göstərilmiş özəl müəssisələrin sayı | Nəfər | Qida Təhlükəsizliyi İnstitutu tərəfindən və beynəlxalq təşkilatlarla həyata keçirilən layihələr çərçivəsində HACCP, ISO 22000, GAP, GHP, GMP kimi standartların və sistemlərin tətbiqi ilə bağlı məsləhət xidməti göstərilən müəssisələrin sayı | 30 | 100 | 97 | 97 | Tədbirin mahiyyətinə uyğun olaraq indikatorun adına düzəliş olunması təklif olunur |
| 10.11.4. | Qida təhlükəsizliyi sahəsində beynəlxalq layihələrin həyata keçirilməsi və donor təşkilatların fəaliyyətinin əlaqələndirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi | 2019-2025 | AQTA ilə birlikdə həyata keçirilən çoxtərəfli və ikitərəfli yardım layihələrinin sayı | Ədəd | Hesabat ili üzrə AQTA ilə birlikdə həyata keçirilən beynəlxalq layihələrin ümumi sayı | 3 | 4 | 4 | 100 | |

# HƏYATA KEÇİRİLƏN MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ TƏDBİRLƏRİ

İİTKM strateji yol xəritələrinin, dövlət proqramlarının və digər iqtisadi yönümlü fəaliyyətlərin icra, monitorinq, qiymətləndirmə, koordinasiya və kommunikasiya məsələləri çərçivəsində davamlı olaraq icraçı qurumlarla, beynəlxalq təşkilatlarla və digər tərəfdaşlarla müzakirələr aparır. Strateji yol xəritələri İİTKM-in MQ fəaliyyətində xüsusi yer tutur. Hər bir strateji yol xəritəsinin icra vəziyyəti ilə bağlı müvafiq dövrlərdə davamlı olaraq müzakirələr təşkil edilib və həyata keçirilmiş tədbirlərin təhlili aparılıb.

"**Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi**"nə dair 2017-2020-ci illərdə davamlı olaraq müvafiq illərdə görülən işlərin icraçı qurumlarla birlikdə müzakirələri aparılıb. Görüşlərdə Yol Xəritəsinin icrası üçün cavabdeh qurumların nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətlə icrası üçün bütün resursları mobilizasiya etdikləri vurğulanıb. Müzakirələr zamanı aidiyyəti qurumlar tərəfindən icrası nəzərdə tutulan və icrası davam edən tədbirlərin icra vəziyyəti və bu prosesdə qarşıya çıxan çətinliklər, tapşırıqların icrasının sürətləndirilməsi imkanları təhlil olunub.



İclaslarda "Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulan ölkədə aparılan iqtisadi islahatların əsas istiqaməti kimi fiskal dayanıqlılığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi, özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsi, insan kapitalının, əlverişli biznes mühitinin inkişaf etdirilməsi tədbirləri müzakirə edilib. Müzakirələrdə ötən illər ərzində bu istiqamətdə mühüm irəliləyişlərə nail olunduğu və zəruri addımlar atıldığı qeyd edilib. İclaslarda Prezident Administrasiyası, Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Təhsil Nazirliyi, Əmlak Məsələləri üzrə Dövlət Komitəsi, Statistika Komitəsi, ASAN Xidmət və digər qurumların nümayəndələri iştirak edib.




“**Uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi**”nin icra vəziyyətinin müzakirələri zamanı bu yol xəritəsinin həyata keçirilməsi üçün 2 strateji hədəfin, 6 strateji prioritetin və 18 tədbirin həyata keçirilməsinin planlaşdırıldığı bildirilib. Görüşlər zamanı vurğulanıb ki, uyğun qiymətə mənzil təminatının layihələndirilməsi və həyata keçirilməsi səviyyəsinin yüksəldilməsi, dövlət mülkiyyətində olan boş torpaq sahələrinin mənzil tikintisinə cəlb edilməsi nəticəsində layihələrin icra xərclərinin azaldılması xüsusi diqqət mərkəzindədir. Bundan başqa qeyd edilib ki, rəqabət mühitinin tam təmin edilməsi sayəsində layihələrin xərclərinə qənaət edilməsi, “MİDA” MMC-nin həyata keçirdiyi xidmətlərin böyük hissəsinin “Elektron hökumət” portalı vasitəsilə yerinə yetirilməsi, urbanizasiya probleminin azalması, mənzillərin orta inşaat müddətinin azaldılması, bu günədək mənzillə təmin edilməyən qaçqın və ya məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşması və ölkənin tikinti sektoruna xarici investisiyaların cəlb edilməsi əsas məqsədlərdən biridir.



Görüşlərdə Xəritənin icrası ilə aşağı gəlirli ailələrin mənzil şəraitinin daha da yaxşılaşdırılması, tikinti sektorunda rəqabət mühitinin artırılması və sektorun inkişaf dinamikasının davamlılığının təmin edilməsi kimi strateji məqsədlərin diqqət mərkəzində olması vurğulanıb.

Müzakirələrdə Prezident Administrasiyası, MİDA, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, "Azərbaycan İnvestisiya Şirkəti" ASC, "MİDA" MMC və Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun nümayəndələri iştirak edib.

"**Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi**"nin icra vəziyyətinə dair İİTKM tərəfindən təşkil edilən tədbirlərdə proqram idarəetməsinə uyğun olaraq icra, monitorinq, qiymətləndirmə, koordinasiya və kommunikasiya məsələləri müzakirə edilib. Qeyd etmək lazımdır ki, bu yol xəritəsinin həyata keçirilməsi üçün 7 strateji hədəf və 14 strateji prioritet üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Müzakirələr zamanı bildirilib ki, "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"nin icrası zamanı bu istiqamətdə mühüm işlər görülüb, kommunal xidmətlər sahəsində aparılan iqtisadi islahatların nəticəsi olaraq, əhali üzrə təbii qazın aşağı tariflə illik istehlak həcmi artırılıb.





Görüşlər zamanı həmçinin bildirilib ki, bu yol xəritəsinin əsas istiqaməti kimi kommunal xidmətlər sektorunun tənzimlənməsində dayanıqlılığın və effektivliyin təmin edilməsi, tam şaxələndirilmiş və ekoloji baxımdan təmiz elektrik enerjisi istehsalının təmin edilməsi, dünya üzrə orta səmərəlilik və keyfiyyət standartlarının tətbiqi və məqsədlərə nail olmaq üçün mexanizmlərin işə salınması nəzərdə tutulur. Eyni zamanda səmərəli və effektiv qazpaylama infrastrukturunun inkişafı, yüksək səviyyəli su idarəetmə strukturunun yaradılması, su təchizatında itkilərin azaldılması və səmərəliliyin təmin edilməsi, dayanıqlı və etibarlı istilik təchizatı infrastrukturunun yaradılması tədbirləri zəruri addımlar kimi qeyd edilib.

Müzakirələrdə Prezident Administrasiyası, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, Tarif (qiymət) Şurası, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Dövlət Neft Şirkəti, "Azərenerji" ASC, "Azərişıq" ASC, "Azəristiliktəchizat" ASC və "Azərsu" ASC-nin nümayəndələri iştirak edib.

"**Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi**" üzrə müzakirələr zamanı icrası nəzərdə tutulan və davam edən tədbirlərin icra vəziyyəti və bu prosesdə qarşıya çıxan çətinliklər, tapşırıqların icrasının sürətləndirilməsi imkanları təhlil olunub. Müzakirələr zamanı qeyd olunub ki, Xəritədə nəzərdə tutulmuş strateji məqsədlərə çatmaq üçün 5 strateji hədəf və 16 strateji prioritet üzrə tədbirlərin həyata keçirilməsi planlaşdırılıb.




Bu hədəfləri bankların restrukturizasiyası və kapitallaşması, aktivlərin sağlamlaşdırılması, sığorta bazarının inkişafı, maliyyə inklüzivliyinin gücləndirilməsi, kapital və pul bazarının inkişafı, bazar iştirakçıları üçün əlverişli mühitin yaradılması, kredit məlumatlarının mübadiləsi sisteminin inkişafı, kreditorların hüquqlarının müdafiəsi üzrə işlək mexanizmlərin yaradılması, məhkəmə qərarlarının standartlaşdırılması və icra intizamının yaxşılaşdırılması və s. istiqamətlərdə tədbirlərdən ibarət olduğu vurğulanıb. İclaslarda qarşıya qoyulan hədəflərə vaxtında və uğurla nail olunduğu bildirilib. Maliyyə sisteminin daxili və xarici şoklara qarşı dayanıqlılığının artırılması, risk idarəetməsi proseslərinin keyfiyyətinin artırılması, maliyyə sisteminin infrastrukturunun gücləndirilməsi, maliyyə sisteminin inkişaf potensialının artırılmasının sosial-iqtisadi inkişafın təmin olunmasında açar faktor kimi əhəmiyyəti vurğulanıb. Həmçinin qeyd edilib ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin apardığı iqtisadi islahatların nəticəsi olaraq bank sisteminin maliyyə dayanıqlığı göstəriciləri artıb.






"**Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi**"nin icra vəziyyətinin müzakirəsi istiqamətində təşkil edilən görüşlərdə icraçı qurumların fəaliyyətinin əlaqələndirilməsi, MQ sahəsində izahat və qarşıda duran tapşırıqların uğurla həyata keçirilməsi məsələlərinə toxunulub. Müzakirələr zamanı bildirilib ki, qarşıya qoyulan məqsədlərə çatmaq üçün 9 strateji hədəf və 36 strateji prioritet üzrə tədbirlərin həyata keçirilməsi planlaşdırılıb. Bu hədəflər ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün institusional potensialın gücləndirilməsi, maliyyəyə çıxışın asanlaşdırılması, kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı, kənd təsərrüfatı

sahəsində elm, təhsil və informasiya-məsləhət xidmətləri sisteminin inkişafı, kənd yerlərində məşğulluğun artırılması və əhalinin rifahının yüksəldilməsi və digər tədbirlərdən ibarət olub. Qeyd olunub ki, ötən illər ərzində bu istiqamətdə mühüm irəliləyişlərə nail olunub və zəruri addımlar atılıb. Müzakirələrdə qeyd edilib ki, tərəvəz, bostan məhsulları və ayrı-ayrı meyvəçilik sahələri üzrə də məhsuldarlıqda əsaslı artımlara nail olunub.

Müzakirələrdə Prezident Administrasiyası, Kənd Təsərrüfatı Nazirliyi, AQTA, Maliyyə Bazarlarına Nəzarət Palatası, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Əmlak Məsələləri üzrə Dövlət Komitəsi və digər qurumların nümayəndələri iştirak edib.

"**Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi**" üzrə müzakirələr zamanı aidiyyəti qurumlar tərəfindən icrası nəzərdə tutulan və davam edən tədbirlərin icra vəziyyəti və bu prosesdə qarşıya çıxan çətinliklər, tapşırıqların icrasının sürətləndirilməsi imkanları təhlil olunub. Bildirilib ki, Xəritə üzrə qarşıya qoyulan məqsədlərə çatmaq üçün 3 strateji hədəf və 7 strateji prioritet üzrə tədbirlərin həyata keçirilməsi planlaşdırılıb.



Görüşlərdə Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində görülən tədbirlərin ölkənin sosial-iqtisadi inkişafında önəmi vurğulanıb. Müzakirələr zamanı aparılan işlərin ölkənin mühüm logistika və ticarət qovşağına çevrilməsi və digər strateji məqsədlərə nail olunmasında rolu və əhəmiyyəti təhlil edilib.

Strateji Yol Xəritəsi üzrə qarşıya qoyulan hədəflər Azərbaycan üzərindən ticarət həcminin artırılması üçün əlverişli mühitin yaradılması, tranzit ticarətindən daha yüksək dəyərin əldə edilməsi, logistika və ticarət sahəsində məqsədlərin gerçəkləşdirilməsi üçün mühüm hərəkətverici mexanizmlərin tətbiqi istiqamətlərində tədbirlərdən ibarət olub. Qeyd edilən yol xəritəsinə dair müzakirələrdə Prezident Administrasiyası, "Bakı Beynəlxalq Dəniz Limanı" QSC, "Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azəravtoyol" ASC", "Silk Way Aviaşirkəti" MMC, "Azərbaycan Hava Yolları" QSC və İqtisadiyyat Nazirliyinin nümayəndələri iştirak edib.

Mütəmadi olaraq müzakirələri təşkil edilən digər bir SYX "**İxtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi**"dir. Müvafiq illərdə həyata keçirilmiş tədbirlərdə proqram idarəetməsinə uyğun olaraq icra, monitorinq, qiymətləndirmə, koordinasiya və kommunikasiya məsələləri müzakirə edilib.

Müzakirələr zamanı bildirilib ki, Xəritə üzrə qarşıya qoyulan məqsədlərə çatmaq üçün 4



strateji hədəf və 16 strateji prioritet üzrə tədbirlərin həyata keçirilməsi planlaşdırılıb. Bu hədəflər xarici turistləri daha çox cəlb etməklə Bakı şəhərinin turizm potensialının tam gerçəkləşdirilməsi, turizm sektorunun inkişafı üçün ölkə üzrə əlverişli mühitin formalaşdırılması, yerli və regional turistlər üçün regional turizm növlərinin inkişaf etdirilməsi, turistlərin məmnunluğunun artırılması məqsədilə milli turizm keyfiyyət sisteminin yaradılması istiqamətlərində tədbirlərdən ibarət olub. Bundan başqa iclaslarda Prezident İlham Əliyevin apardığı iqtisadi islahatların nəticəsi olaraq turizm sektorunun dinamik inkişaf meyli nümayiş etdirdiyi vurğulanıb. Eyni zamanda müvafiq illər üzrə turizm xidmətləri üzrə tədiyə balansının müsbət saldosunun qorunub saxlanılmasına nail olunub. Müzakirələrdə o da qeyd edilib ki, ölkədə turizm sahəsində strateji yol xəritələrinin icrası çərçivəsində görülən işlərin nəticələri beynəlxalq mötəbər reytinq agentlikləri tərəfindən də təsdiq edilir. Belə ki, Dünya İqtisadi Forumunun "Turizm və səyahətin rəqabət qabiliyyəti" adlı hesabatın əsas indikator qruplarından sayılan biznes mühiti üzrə Azərbaycan maksimum 7 baldan 5.1 bal əldə edib ki, bu da ölkəyə müvafiq indikator üzrə 57-ci yerdən 28-ci pilləyə qədər irəliləməyə imkan verib, əldə olunan nailiyyətə əsasən, ölkə müvafiq indikator üzrə “ən inkişaf etmiş” ölkə statusunda qiymətləndirilib.



“Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”nə dair müzakirələrdə Prezident Administrasiyası, Dövlət Turizm Agentliyi, Azərbaycan Turizm Bürosu, NRYTN, Mülki Aviasiya Administrasiyası, İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Sərhəd Xidməti, ETSN və Dövlət Gömrük Komitəsinin nümayəndələri iştirak edib.

İİTKM, həmçinin “**Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı üzrə Strateji Yol Xəritəsi**” üzrə müzakirələrin təşkilini həyata keçirib.



Müzakirələr zamanı bildirilib ki, Strateji Yol Xəritəsi üzrə qarşıya qoyulan məqsədlərə çatmaq üçün 5 strateji hədəf və 21 strateji prioritet üzrə tədbirlərin həyata keçirilməsi planlaşdırılıb. Bu hədəflər KOS fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması, KOS subyektlərinin maliyyə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi, KOS subyektlərinin beynəlmiləlləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılması, KOS subyektlərinin bilik və bacarıqlarının artırılması, qabaqcıl təcrübələrin tətbiqinin sürətləndirilməsi, innovasiyaların təşviqi, KOS subyektləri üçün araşdırma və inkişaf fəaliyyətlərinin genişləndirilməsi istiqamətlərində tədbirlərdən ibarət olub.



Qeyd edilib ki, ötən illər ərzində bu istiqamətdə mühüm irəliləyişlərə nail olunub və zəruri addımlar atılıb. Vurğulanıb ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin apardığı iqtisadi islahatların nəticəsi olaraq kiçik və orta sahibkarlıq və ümumilikdə biznes mühiti dinamik inkişaf meyli nümayiş etdirməkdədir. Strateji Yol Xəritəsinin icrası çərçivəsində KOBİA, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, «Lisenziyalar və icazələr» portalı, İpoteka və Kredit Zəmanət Fondu, daşınar əmlakın yüklülüyü üzrə dövlət reyestri yaradılıb. Həmçinin, qanunvericiliyin təsiri analizinin tətbiqi, dövlət satınalmalarında KOB subyektlərinin minimum iştirak payı, sənaye klasterlərinin rezidentlərinə verilən güzəşt və imtiyazlar kimi tədbirlər həyata keçirilib. Müzakirələr zamanı bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji yol xəritələrinin icrası, monitorinqi və qiymətləndirilməsi bütövlükdə idarəetmənin səmərəliliyinin, şəffaflığının və hesabatlılığının daha da artmasını təmin edir.

"Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı üzrə Strateji Yol Xəritəsi"nə dair müzakirələrdə Prezident Administrasiyası, İqtisadiyyat Nazirliyi, KOBİA, AZPROMO və İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun nümayəndələri iştirak edib.

"**Ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi**"nin icra vəziyyətinə dair tədbirlərdə proqram idarəetməsinə uyğun olaraq icra, monitorinq, qiymətləndirmə, koordinasiya və kommunikasiya məsələləri müzakirə edilib. Müzakirələr zamanı bildirilib ki, bu yol xəritəsinin həyata keçirilməsi üçün 3 strateji hədəf və 9 strateji prioritet üzrə tədbirlərin həyata keçirilməsi planlaşdırılıb. Bu yol xəritəsinin əsas istiqaməti kimi mövcud aktivlərin optimallaşdırılması, rəqabətədavamlı sektorun yaradılması, maliyyə dəstəyinin təmin edilməsi və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi tədbirləri zəruri addımlar kimi qeyd edilib. İclasda Xəritənin icrası zamanı bu istiqamətlərdə mühüm işlər görüldüyü vurğulanıb. İslahatların nəticəsi olaraq, investisiya məlumat bankı yaradılıb. Biznes proseslərini tənzimləyən prosedurların daha da sadələşdirilməsi ilə investisiya mühitinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görülüb.

Müzakirələr zamanı qeyd edilib ki, yüngül, yeyinti, kimya, tikinti və digər emal sənayesi sahələrinin və mədənçıxarma sənayesinin inkişafı ağır sənaye və maşınqayırma sənayesinin hazır məhsulları olan istehsalat xətləri, maşın və avadanlıqlar, müxtəlif dəzgahların və digər məhsulların intensiv inkişafından asılıdır. İclaslarda, həmçinin ağır sənayenin inkişaf etdirilməsində dağ-mədən sənayesi və metallurgiya sənayesi inkişafı, enerji resurslarından istifadədə optimal səmərəliliyin əldə olunması, məhsuldarlığın artırılması, idxal əvəzlənməsi istiqamətlərində fikir mübadiləsi aparılıb. "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"nə dair müzakirələrdə Prezident Administrasiyası, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi, Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin və digər dövlət qurumlarının nümayəndələri iştirak edib.





# MONITORING.AZ PORTALININ TƏQDİMATI

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin BP şirkəti ilə birgə hazırladığı yeni www.monitoring.az portalının təqdimat mərasimi keçirilib. Təqdimat zamanı vurğulanıb ki, portalın yaradılmasının əsas məqsədi strateji yol xəritələrinin və digər dövlət proqramlarının monitorinqi və qiymətləndirilməsində qurumlar arasında olan "kommunikasiya məsafəsini" azaltmaq, MQ institutunu rəqəmsallaşdırmaq, sadələşdirmək və şəffaflaşdırmaqdır.




Təqdimat mərasimində bildirilib ki, Azərbaycanda elektron hökumət və elektron məhkəmə ilə yanaşı, həm də elektron monitorinq sisteminin yaradılması çevik və səmərəli dövlət idarəetməsini təmin edir. Tədbirdə İİTKM-in strateji yol xəritələrində nəzərdə tutulan fəaliyyətlərlə bağlı monitorinq, qiymətləndirmə və kommunikasiya tədbirlərini, həmçinin öz səlahiyyətləri çərçivəsində dövlət qurumlarının sifarişi əsasında sənaye parkları, məhəllələri və aqroparklarda həyata keçirilən fəaliyyətlərin, habelə iqtisadi yönümlü dövlət proqramlarının monitorinqini və qiymətləndirilməsini həyata keçirməsi haqqında məlumat verilib. Təqdimat zamanı islahat proseslərinin rəqəmsal platformalar vasitəsilə

aparılmasının Prezident İlham Əliyevin ölkədə islahatların davamlı və ən qabaqcıl beynəlxalq təcrübələr və yanaşmaların tətbiqi barədə tapşırıqlarının nəticəsi olduğu qeyd edilib. "Monitoring.az" portalı dövlət strategiyalarının, proqramların, tədbirlər planlarının monitorinqi və qiymətləndirilməsi nəticəsində Böyük Verilənlər (Big Data) bazası yaratmağa imkan yaradır. Digər tərəfdən Azranking.az portalı isə Verilənlər Bazasından istifadə etməklə islahatların generasiyasını təmin edir və beləliklə islahatlar yenidən monitorinq olunur.

Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın özünəməxsus iqtisadi islahatların idarəedilməsi modeli yaradılıb. "Monitoring.az" portalı İİTKM-in monitorinq institutu kimi qiymətləndirmə, koordinasiya və kommunikasiya imkanlarını artırmaqla bərabər ölkədəki islahat proseslərinin də sürətlənməsinə müsbət təsir göstərir.




Təqdimat mərasimində BP-nin vitse-prezidenti Bəxtiyar Aslanbəyli İİTKM-in BP ilə elektron MQ infrastrukturunu modernləşdirmək layihəsinin uğurla başa çatmasından məmnunluğunu ifadə edib: "BP həmişə ölkədə iqtisadiyyatın diversifikasiyasına dəstək vermək öhdəliyinə sadiq olub. Biz Azərbaycanın davamlı iqtisadi inkişafına töhfə verəcəyini hesab etdiyimiz bu layihəni dəstəkləməkdən qürur duyuruq."

Elektron portalın fəaliyyətə başlaması ölkədə hesabatlılıq, şəffaflıq, çeviklik, obyektivlik, qanunun aliliyi, səmərəli qərar qəbuletmə və yaxşı idarəetmə prinsiplərinə əsaslanmaqla MQ prosesinin koordinasiyasına imkan yaradır. Belə idarəetmə ilk növbədə ədalətli təmsilçiliyə, bürokratik prosedurların azalmasına, cəmiyyətin ehtiyaclarının nəzərə alınmasına xidmət edir. Belə bir portalın istismara verilməsi elektron platforma vasitəsilə təqdim olunan məlumatların həqiqiliyinin, tamlığının, etibarlılığının və sərbəst əldə olunmasının təmin edilməsi, məlumat mübadiləsinə sərf olunan vaxtın maksimum azaldılmasına şərait yaradır. Tədbirdə qeyd edilib ki, bu, ölkəyə müasir texnologiyaların geniş tətbiqi ilə dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artması, effektiv, şəffaf, nəzarət oluna bilən dövlət idarəetməsinin və yerli özünüidarəetmənin bərqərar olması,

vətəndaşların dövlət idarəçiliyində və islahatların aparılması prosesində fəal iştiraka cəlb olunması kimi məsələlərdə də əlavə stimullar yaradacaqdır.



Bildirilib ki, portal MQ prosesini institusionallaşdırır, islahat proseslərini rəqəmsallaşdırır, koordinasiya və kommunikasiyanın effektivliyini artırır, hesabatlılıq, şəffaflıq və səmərəliliyi yüksəldir. Əlavə olunub ki, Portal icra, monitorinq, qiymətləndirmə, koordinasiya və kommunikasiya proseslərini tam əhatə edir. “Monitoring.az” portalının fəaliyyət mexanizminə uyğun olaraq əlaqələndirici, icraçı qurumların, monitorinq qrupunun funksionallıqları barədə iştirakçılara geniş məlumatlar təqdim olunub. Qeyd olunub ki, portaldan istifadə nəticəsində məlumat mübadiləsinə sərf olunan vaxt müddətinin azaldılması, real vaxt rejimində hesabatlılıq, performans analizi imkanları yaranacaq. Tədbirdə MQ prosesinin keyfiyyətinin yüksəldilməsi və digər müsbət təsirlər iştirakçıların nəzərinə çatdırılıb. Təqdimat mərasimində İİTKM-in əməkdaşları tərəfindən proqram təminatı ilə bağlı dövlət qurumları ilə görüşlərin və təlimlərin keçiriləcəyi vurğulanıb.




MONİTORİNQ VƏ
QİYMƏTLƏNDİRMƏ PORTALI
MONITORING.AZ
PORTALI NİYƏ YARATDIQ ?
Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi
Monitorinq və Qiymətləndirmə prosesini institusionallaşdırmaq
Koordinasiya və kommunikasiyanın effektivliyini yüksəltmək
İslahat proseslərini rəqəmsallaşdırmaq
Hesabatlılıq, şəffaflıq və səmərəliliyi artırmaq


MONİTORİNQ VƏ
QİYMƏTLƏNDİRMƏ PORTALI
MONITORING.AZ
PORTAL NƏLƏR VƏD EDİR ?
Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi
https://monitoring.az/
Portalın ön internet səhifəsi
Daxili sənəd mübadiləsi
EN
DAXİL OL
Axtarış
İCRA VƏZİYYƏTİ
PORTALA GİRİŞ
Giriş

MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ PORTALI

MONITORING.AZ

## ƏLAQƏLƏNDİRİCİ QURUMUN FUNKSİONALLIĞI

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

- Vasitəçi rolunda çıxış edir
- Məlumatların tamlığını, düzgünlüyünü yoxlayır
- Şərh yazıb geri qaytara bilir




MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ PORTALI

MONITORING.AZ

## ƏLAQƏLƏNDİRİCİ QURUMUN FUNKSİONALLIĞI

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi




Əlaqələndirici qurum vasitəçi rolunda çıxış edir

MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ PORTALI

MONITORING.AZ

## ƏLAQƏLƏNDİRİCİ QURUMUN FUNKSİONALLIĞI

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi




MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ PORTALI

MONITORING.AZ

## İCRAÇI QURUMUN FUNKSİONALLIĞI

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

- İcra vəziyyətinə baxa bilir
- Şərh, izah yazmaq, fayl yükləmək imkanı mövcuddur
- Performans təhlili apara bilir



MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ PORTALI

MONITORING.AZ

## İCRAÇI QURUMUN FUNKSİONALLIĞI

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi




İcraçı qurum şərh, izah yazır, fayl yükləyir

MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ PORTALI

MONITORING.AZ

İCRAÇI QURUMUN FUNKSİONALLIĞI

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi




İcraçı qurum real vaxt rejimində icra vəziyyətini görə bilir

MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ PORTALI

MONITORING.AZ

## MONİTORİNQ QRUPUNUN FUNKSİONALLIĞI

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

- Fəaliyyəti qiymətləndirir
- Sənəd dövriyyəsinə nəzarət edir
- Şərh yazır, rəyə göndərir
- Qiymətləndirmə hesabatı hazırlayır və nəticələri ictimaiyyətə açıqlayır




MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ PORTALI

MONITORING.AZ

MONİTORİNQ QRUPUNUN FUNKSİONALLIĞI

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi



Monitorinq qrupu fəaliyyət qiymətləndirilməsi aparır


MONİTORİNQ VƏ
QİYMƏTLƏNDİRMƏ PORTALI
MONITORING.AZ
MONİTORİNQ QRUPUNUN FUNKSİONALLIĞI
Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi
Monitorinq və qiymətləndirmə
ÜMUMİ NƏTİCƏ
HƏDƏFLƏR
Əsas icraçı qurumların performansı
Monitorinq və
qiymətləndirmə hesabatları


MONİTORİNQ VƏ
QİYMƏTLƏNDİRMƏ PORTALI
MONITORING.AZ
ƏLDƏ OLUNACAQ FAYDALAR
Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi
Məlumat mübadiləsinə sərf olunan vaxtı azaldacaq
Real vaxt rejimində hesabatlılıq, performans analizi apara bilmək imkanları yaradacaq
Monitorinq və Qiymətləndirmə prosesinin keyfiyyətini daha da yüksəldəcək
Monitorinq və Qiymətləndirmə prosesinin şəffaflığını daha da artıracaq
Hesabatlılığı gücləndirəcək

# MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ FƏALİYYƏTİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi öz monitorinq və qiymətləndirmə fəaliyyətini həyata keçirərkən beynəlxalq təcrübədən yararlanır. Belə ki, İİTKM tərəfindən monitorinq və qiymətləndirmə fəaliyyətinin həyata keçirilməsində müasir metodologiyalar və yeniliklər tətbiq edilir. 2020-ci ildə İİTKM-in MQ fəaliyyəti Dünya Bankının hesabatında Avropa və Mərkəzi Asiyada innovativ həlləri tətbiq etməklə "nəticə əsaslı yaxşı idarəetmə" nümunəsi kimi qəbul edilib və başqa ölkələrə nümunə olaraq təqdim olunub. Həmçinin, İİTKM-in MQ mexanizmi hazırda Dünya Bankının "Transformasiya dəyişikliklərinin qiymətləndirilməsi mükafatı"na namizədlərdən biridir. İİTKM monitorinq və qiymətləndirməsini apardığı sənaye parkları, məhəllələri və aqroparklarda həyata keçirilən fəaliyyətlərin, həmçinin iqtisadi yönümlü dövlət proqramlarının nəticələrinin inkişaf partnyorları ilə birgə müzakirə olunmasını təmin edir ki, bu da "yaxşı idarəetmə" və "açıq hökumət" prinsiplərinə uyğunluğu əks etdirir. "Yaxşı idarəetmə" və "açıq hökumət" prinsiplərinin yerinə yetirilməsi isə öz növbəsində donor koordinasiyasının həyata keçirilməsinə töhfə verir. İnkişaf partnyorlarının ölkədə həyata keçirilən islahatlarla yaxından tanış olması texniki dəstək, bacarıqların artırılması, maliyyələşmə və digər məsələlərdə koordinasiyanın güclənməsinə zəmin yaradır. Bu da beynəlxalq təşkilatlarla Azərbaycan hökuməti arasında əməkdaşlığın səmərəliliyinin artmasına, daha az resursla daha yüksək nəticələrin əldə olunmasına gətirib çıxarır. Eyni zamanda islahatların dizaynı, həyata keçirilməsi, monitorinqi, qiymətləndirilməsi və kommunikasiyasında qabaqcıl beynəlxalq təcrübənin tətbiq edilməsi üçün də hökumət qurumları və inkişaf partnyorları arasında əməkdaşlığın əhəmiyyəti böyükdür. İİTKM təkcə dövlətin deyil, həm də beynəlxalq təşkilatların Azərbaycanda həyata keçirdiyi 20-ə qədər layihənin monitorinq və qiymətləndirilməsini həyata keçirir. Bu isə monitorinq və qiymətləndirmənin şaxələndirilməsini, əməkdaşlığın güclənməsini, yığılan təcrübənin diversifikasiyasını təmin edir. İİTKM MQ sahəsində BMTİP, Dünya Bankı, BMT, AİB kimi nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. MQ sahəsində davamlı olaraq bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində işgüzar görüşlər, təlimlər, seminarlar, müzakirələr, bilik sərgiləri keçirilir.

İİTKM beynəlxalq təşkilatlarla özəl sektorun inkişafı, monitorinq sorğusunun nəticələrinin analizi, sosial islahatlar, makroiqtisadi çərçivə, maliyyə və pul siyasəti, şəffaflıq və səmərəliliyin yüksəldilməsi tədbirləri istiqamətində görüşlər və müzakirələr təşkil edib.

## SƏNAYE SEKTORUNUN İNKİŞAFI MƏSƏLƏLƏRİNİN MÜZAKİRƏSİ

İİTKM və Dünya Bankının özəl sektorun inkişafı üzrə ixtisaslaşmış nümayəndə heyəti arasında görüş keçirilib. Görüş zamanı sənaye sektorunun inkişafı, şaxələndirmə və qlobal dəyər zəncirinə inteqrasiya və digər məsələlər daxil olmaqla bir neçə mövzu müzakirə edilib.



## SOSİAL RİFAH ÜZRƏ MONİTORİNQ SORĞUSUNUN APARILMASI VƏ TƏHLİLİ MÖVZUSUNDA GÖRÜŞ

İİTKM-də Dünya Bankının nümayəndələri ilə bir digər görüş isə Azərbaycanın Sosial Rifah üzrə Monitorinq Sorğusunun aparılması və nəticələrinin təhlili istiqamətində olub. Bu sorğuların keçirilməsində məqsəd sosial müdafiənin, xüsusilə ünvanlı sosial yardım proqramlarının səmərəliliyinin qiymətləndirilməsi olub.

Görüşdə Dünya Bankının baş sosial müdafiə mütəxəssisi və qrup lideri Marina Petroviç, aparıcı iqtisadçıları Aleksandra Posarak, Arvo Kuddo, Nista Sinha, Sayles Tivari və səhiyyə mütəxəssisi Elvira Anadolu iştirak edib.



## İCTİMAİ TƏŞKİLATLARIN ŞƏFFAFLIĞININ VƏ SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI MÖVZUSUNDA MÜZAKİRƏLƏR

Bundan başqa, İİTKM-də Azərbaycanda ictimai təşkilatların şəffaflığının və səmərəliliyinin artırılması barədə beynəlxalq ekspertlərlə müzakirələr aparılıb. Müzakirədə Dünya Bankının Maliyyə Hesabatları İslahatı Mərkəzinin baş maliyyə meneceri Natalie Manuilova, CFRR-in məsləhətçisi İrina Gorgeladze və Beynəlxalq Maliyyə Korporasiyasının korporativ idarəetmə üzrə eksperti Boris Dzhandzhaliya iştirak edib.



Görüşdə biznes mühitinin yaxşılaşdırılması, dövlət qurumlarının şəffaflığı və səmərəliliyinin artırılması məqsədilə ölkədə həyata keçirilən tədbirlər və islahatlara tətbiq olunan yanaşmalar müzakirə edilib. Görüşdə Missiyanın dövlət qurumlarının korporativ idarəetməsinin hüquqi və tənzimləyici bazasının təhlilinə, bu sahədəki müvafiq institusional mexanizmlərə, bu təşkilatların məlumatlarının şəffaflığına və hesabatlılığına diqqət yetirməsi məsələləri müzakirə edilib.

## DÖVLƏT MÜƏSSİSƏLƏRİNDƏ ŞƏFFAFLIĞIN ARTIRILMASI MƏSƏLƏLƏRİNİN MÜZAKİRƏSİ

BMK-nın korporativ idarəetmə üzrə mütəxəssisi Boris Janjalianın və Dünya Bankının Maliyyə Hesabatı İslahatları Mərkəzinin məsləhətçisi İrina Gordeladzenin iştirakı ilə keçirilən görüşdə dövlət müəssisələrində şəffaflığın artırılması və korporativ idarəetmə səylərinin davamlılığı müzakirə edilib. Müzakirədə Dünya Bankının Azərbaycanda dövlət müəssisələrinin şəffaflığını və səmərəliliyini artırmaq üçün texniki yardım göstərməyə hazır olduğu qeyd edilib.

## MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİNİN MÜZAKİRƏSİ

Dünya bankı ilə əməkdaşlığın digər uğurlu sahəsi MQ sahəsində təlim və seminarların keçirilməsi yolu ilə proseslərin keyfiyyətinin artırılması, hesabatlılığın beynəlxalq standartlara uyğunluğunun təmin edilməsidir.

Dünya Bankının Azərbaycan üzrə meneceri Navid Həsən Nəqvinin İİTKM-i ziyarəti çərçivəsində keçirilən görüşdə bir sıra mühüm mövzulara toxunulub. İclas çərçivəsində İİTKM-lə Dünya Bankı arasında islahat gündəliyinin qurulması, həmçinin monitorinq və qiymətləndirmədə əməkdaşlığın üstünlükləri müzakirə edilib. Yekun olaraq isə, İİTKM və Dünya Bankının əməkdaşlığının daha geniş formatda davam etdirilməsinə qərar verilib.



## SƏNAYE PARKLARI VƏ MƏHƏLLƏLƏRİNİN FƏALİYYƏTİ, MONİTORİNQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ TƏLİMİ

İİTKM-də Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində Dünya Bankının baş mütəxəssisi Melissa Recasın iştirakı ilə "Sənaye parkları və məhəllələrinin fəaliyyəti, monitorinqi və qiymətləndirilməsi" təlimi keçirilib.




Dünya Bankının baş mütəxəssisi sənaye parkları və məhəllələrinin yaradılmasının milli iqtisadiyyatın balanslı inkişafına yönəlmiş siyasətin bir parçası olduğunu vurğulayıb. O, həmçinin qeyd edib ki, bu istiqamətdə ixrac potensialının artırılması və rəqabətə davamlı məhsulların istehsalı, məşğulluq kimi vacib vəzifələr stimullaşdırılmalıdır. Tədbirdə sənaye parkları rezidentlərinin fəaliyyətinə dair statistik məlumatların hazırlanması metodları, onların fəaliyyətinin monitorinqi sahəsində qanunvericilik qaydaları və dünya təcrübəsinin müqayisəli təhlili nəzərdən keçirilib.

Sənaye parkları və məhəllələrinin inkişafında xarici təcrübədən müsbət təsir əldə etmək məqsədi daşıyan bu təlimdə sənaye parklarının, aqroparkların və nazirliklərin nümayəndələri iştirak ediblər.

Təlimin sonunda iştirakçıların sualları mütəxəssislər tərəfindən cavablandırılıb, iştirakçılara sertifikatlar təqdim edilib.

## STRATEJİ YOL XƏRİTƏLƏRİNİN MONİTORİNQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİNƏ DƏSTƏK TƏLİMİ



İİTKM, həmçinin strateji yol xəritələrinin monitorinq və qiymətləndirilməsində qabaqcıl beynəlxalq təcrübələrin tətbiqi üçün beynəlxalq ekspertlər cəlb etməklə strateji yol xəritələrinin monitorinqi və qiymətləndirilməsinə dəstək təlimi təşkil edib. Təlim Dünya Bankının ölkə sektoru mütəxəssisi və missiya qrupunun rəhbəri Elena Gergieva-Andonovska, monitorinq və qiymətləndirmə məsləhətçisi Anet Rixter, proqram köməkçisi Nigar  Sadıqova tərəfindən aparılıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin əməkdaşları İİTKM-in Dünya Bankına müraciəti əsasında təşkil olunan təlimdə beynəlxalq təcrübələrini bölüşüblər.

Təlimdə MQ-nin strateji idarəetmənin vacib bir hissəsi olduğu xüsusi vurğulanıb. Həmçinin, İİTKM tərəfindən tətbiq olunan mükəmməl MQ-nin hesabatlılıq, şəffaflıq və açıq hökumət prinsipinin tətbiqi baxımından vacibliyi qeyd edilib.

Bu təlim proqramından əldə edilən beynəlxalq təcrübəyə əsaslanan səriştələr, bilik və bacarıqlar İİTKM-in növbəti illərdə həyata keçirdiyi MQ fəaliyyətində geniş istifadə edilib.

## "İQTİSADİ İMKANLAR YARATMAQ ÜÇÜN NƏQLİYYAT VƏ LOGİSTİKADAN İSTİFADƏ" ADLI BİLİK SƏRGİSİ

İİTKM strateji yol xəritələrinin MQ prosesi ilə yanaşı, nəticələrin müzakirəsi üçün də beynəlxalq ekspertlər dəvət edərək, öz təcrübəsini paylaşıb. Bu istiqamətdə SYX-nin nəticələri  İİTKM və Dünya Bankı ilə birlikdə təşkil edilən "İqtisadi imkanlar yaratmaq üçün

nəqliyyat və logistikadan istifadə" adlı bilik sərgisində təqdim edilib.

Görüşdə bildirilib ki, qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan nəqliyyat infrastrukturu Azərbaycanda həyata keçirilən mühüm iqtisadi islahatlar nəticəsində yenilənib. Həmçinin, tranzit imkanların genişləndirilməsi istiqamətində mühüm işlərin görüldüyü, müasir nəqliyyat infrastrukturunun yaradıldığı və tranzit potensialının artırıldığı vurğulanıb.






Sərgidə qabaqcıl beynəlxalq təcrübənin tətbiqi, ən yeni texnologiyaların və yeniliklərin ölkəmizə gətirilməsi məqsədi ilə həyata keçirilən tədbirlər də müzakirə olunub. Bilik Sərgisi zamanı iştirakçılar "Nəqliyyat Dəhlizləri və İqtisadi Böyümə", "Qafqaz Nəqliyyat Dəhlizi: Rəqabətli və effektiv yük dəhlizinə necə çevirməli" təqdimatları ilə çıxış ediblər. Müzakirələr zamanı dövlət, özəl təşkilatlar, qeyri-hökumət təşkilatları və akademik ictimaiyyət nümayəndələri ilə fikir mübadiləsi aparılıb.

## STRATEJİ YOL XƏRİTƏLƏRİNİN NƏTİCƏLƏRİNİN MÜZAKİRƏSİ

Strateji yol xəritələrinin nəticələrinin müzakirəsi üçün İİTKM həmçinin Asiya İnkişaf Bankı ilə də görüş keçirib. Görüşdə Bankın İqtisadi Tədqiqatlar üzrə direktoru Edmon Gintinqin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycanda aparılan iqtisadi islahatlar, strateji yol xəritələrinin MQ nəticələri barədə geniş fikir mübadiləsi aparılıb.



AİB nümayəndələri Azərbaycanda apardıqları "ölkə iqtisadiyyatının diaqnostik tədqiqat" layihəsi, eləcə də "dövlət müəssisələri sektorunun qiymətləndirilməsi" layihəsi barədə məlumatlar verib. AİB-in və İİTKM-in nümayəndələri tədqiqatın ilkin nəticələrini müzakirə edib. Görüş zamanı dövlət müəssisələrinin özəlləşdirilməsi istiqamətində SYX çərçivəsində görülən və gələcək illərdə icrası nəzərdə tutulmuş işlər barəsində müzakirələr aparılıb. Bundan başqa, layihələr çərçivəsində iqtisadiyyatın müxtəlif sektorlarını əhatə edə bilən iqtisadi riyazi modelin qurulması və onun vacibliyi qeyd edilib.

## BEYNƏLXALQ DONOR VƏ İNKİŞAF QURUMLARI İLƏ STRATEJİ YOL XƏRİTƏLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏHLİLİ

Bundan başqa, Azərbaycanda fəaliyyət göstərən beynəlxalq donor və inkişaf qurumlarının rəhbərləri ilə görüş baş tutub. Görüş donor qurumların koordinasiya mandatına malik olan BMTİP-in həmsədrliyi ilə keçirilib. Müzakirənin əsas məqsədi milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin 2017-ci il üzrə nəzərdə tutulan hissəsinin MQ nəticələrini təqdim etmək olub. Müzakirə zamanı strateji yol xəritələrində müəyyən edilmiş strateji hədəflərin yerinə yetirilməsi statusu haqqında Azərbaycanda donor və inkişaf təşkilatlarına məlumatlar verilib və həyata keçirilən islahatlar barədə məlumatlılıq təmin olunub.



İllik hesabatın MQ nəticələri təqdim edilərkən bildirilib ki, strateji yol xəritələrinin icrasına beynəlxalq ictimaiyyətin diqqəti təqdirəlayiqdir. Görüşdə qeyd edilib ki, İİTKM strateji yol xəritələrini elə bir dialoq platforması kimi təqdim edir ki, bu müstəvidə hökumət qurumları və donor ictimaiyyəti ilə müzakirələrin aparılmasına imkan yaranır. Beləliklə, strateji yol xəritələrinin icrasında səmərəliliyin daha da artırılması təmin edilir. İİTKM-in monitorinq və qiymətləndirmə üzrə institusional inkişafında beynəlxalq təşkilatlarla əməkdaşlıq mühüm rol oynayır. Xüsusən də, monitorinq və qiymətləndirmə metodologiyasının inkişaf etdirilməsində beynəlxalq təcrübənin öyrənilməsi əhəmiyyətlidir.

Daha sonra, beynəlxalq donor və inkişaf qurumlarının rəhbərləri ilə hesabatın nəticələrinə dair fikir mübadiləsi aparılıb. Qeyd edək ki, müzakirələrdə BMTİP, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi, Dünya Bankı, Avropa İttifaqı, Asiya İnkişaf Bankı, İslam İnkişaf

Bankı, Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Agentliyi, Beynəlxalq Maliyyə Korporasiyası və 20-ə yaxın xarici ölkənin Azərbaycandakı səfirliklərinin nümayəndələri iştirak edib.

Dünya Bankı ilə yanaşı, İİTKM MQ sahəsində təcrübə mübadiləsini həyata keçirmək üçün digər beynəlxalq təşkilatlarla da əməkdaşlıq edir. İİTKM SYX-nin və müvafiq MQ çərçivəsinin hazırlanmasında BMT-nin İnkişaf Proqramı tərəfindən təmin edilən ekspert dəstəyi və donor qurumları ilə koordinasiyada əməkdaşlıq aparıb. Eyni zamanda İİTKM-in Strateji Fəaliyyət Planının hazırlanması və müvafiq sektorlar üzrə tədqiqatların aparılmasında BMTİP-in təmin etdiyi texniki dəstək qeyd edilməlidir.

## AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONAL İDARƏETMƏ KONFRANSI

İİTKM eləcə də, bir çox beynəlxalq MQ tədbirlərində ölkəmizin əsas beyin mərkəzlərindən biri olaraq Azərbaycanı uğurla təmsil edib və bu sahədə əldə olunan nailiyyətləri beynəlxalq auditoriyanın diqqətinə çatdırıb.

Dünya Bankı tərəfindən Ankarada “Dövlət idarəçiliyi ilə bağlı səmərəli, hesabatlı və inklüziv institutların qurulması” mövzusunda təşkil edilən konfransda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı təqdimatla çıxış edib və Azərbaycanın MQ təcrübəsini təqdim edib. Tədbirdə məlumat verilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda MQ institutu strateji idarəetmənin tərkib hissəsi kimi formalaşdırılır. Həmçinin, bildirilib ki, Azərbaycan MQ sahəsində topladığı təcrübəni digər ölkələrlə bölüşməyə hazırdır.






## BMT-NİN İNKİŞAF PROQRAMI TƏŞKİLATI İLƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ İNSTİTUTUNUN MÜZAKİRƏSİ

Əməkdaşlıq çərçivəsində BMTİP-in rezident nümayəndəsi Alessandro Fracassetti ilə İİTKM-də MQ institutunun müzakirəsi zamanı əməkdaşlıq istiqamətləri və qarşılıqlı təcrübə mübadiləsi müzakirə edilib.

Həmçinin MQ potensialının ölkə səviyyəsində daha da gücləndirilməsi və BMT-nin İnkişaf Proqramı tərəfindən hər il ənənəvi olaraq qlobal səviyyədə təşkil olunan “Qlobal qiymətləndirmə həftəsi”ndə İİTKM-in nümayəndələrinin iştirakı müzakirə olunub.



BMTİP-in rezident nümayəndəsi Alessandro Fracassetti Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) qəbul olunan strateji inkişaf sənədləri və müvafiq dövlət proqramlarının hazırlanmasında nəzərə alınması, eləcə də, ölkədə bu məqsədlərə nail olunması üzrə maliyyələşmə çərçivəsinin qurulmasının vacibliyini vurğulayıb.



## “QLOBAL QİYMƏTLƏNDİRMƏ TƏŞƏBBÜSÜ” TƏDBİRLƏRİ

İİTKM Dünya Bankı və BMT İnkişaf Proqramının təşkil etdiyi “Qlobal Qiymətləndirmə Təşəbbüsü” (GEI) çərçivəsində 31may-04 iyun 2021-ci il tarixlərində keçirilmiş “Qlobal qiymətləndirmə həftəsi”ndə icraçı direktor Vüsal Qasımlı tərəfindən təmsil olunub. İcraçı direktor tədbirdə “Monitorinq və qiymətləndirmənin dövlət idarəçiliyində rolu” mövzusunda çıxış edib. Çıxışda strategiyaların və milli proqramların monitorinqi və qiymətləndirilməsi üçün institusional potensialın inkişafı prosesi əks etdirilib, Azərbaycanda dövlət xərclərinin səmərəliliyini artırmaq üçün dövlət qurumlarının nəticələrə əsaslanan fəaliyyətinin üstünlüklərinə xüsusi yer verilib.




Translate
Select Language

Register

**THE ROLE OF MONITORING AND EVALUATION IN IMPROVING PUBLIC MANAGEMENT: CASE OF AZERBAIJAN**

Evaluation Capacity Development | Panel | Single Session

**Organized by** Center for Analysis for Economic Reforms and Communication of Azerbaijan

**Co-Organized by** UNDP Country Office in Azerbaijan

**Summary**

The event will outline the process of building the institutional capacity for monitoring and evaluation of the strategies and national programmes. The specific focus will be made on the advantages of the result-driven performance of government agencies to increase the effectiveness of its public spending in Azerbaijan.

To highlight, in 2016 the Government of Azerbaijan adopted twelve Strategic Roadmaps (SRMs) to promote competitiveness, inclusion, and increase social welfare for sustainable growth in Azerbaijan by embedding national SDGs goals. M&E of the implementation of the SRMs was mandated by the Presidential Decree to the Center for Analysis of Economic Reforms and Communication. With the support of the World Bank and UNDP, the Center established a robust M&E system for each Roadmap with an extended scope on appraising the economic efficiency of roadmaps and state programs. The webinar will highlight the impact of the M&E system on public decision-making in Azerbaijan.

**Event Details**

**Date:** May 31

**Time:** 11:00 AM Local Time | 7:00 am GMT

**Duration:** 1 hr 00 Mins

**Location**

City: Baku

http://iqtisadiislahat.org/

View Map

**Speaker, Presenter, or Instructor**

**Prof. Dr. Vusal Gasimli, Center for Analysis of Economic Reforms and Communication of Azerbaijan, Executive Director**

Prof. Dr. Vusal Gasimli was awarded with a certificate of completion for the "Leading Economic Growth" Executive Education Program, at Harvard University. Previously, he served as a consultant at ADB, an expert at the EU. He was a head of department at the Center for Strategic Studies (SAM) in Baku.

**About Center for Analysis for Economic Reforms and Communication of Azerbaijan**

The objectives of the Center for Analysis of Economic Reforms and Communication is to develop proposals for realization of economic reforms based on analytical data by conducting analyses and researches on macro - and micro - economic levels directed to ensuring sustainable economic development of the country, as well as prepare mid – and long-term forecasts, provide government authorities and agencies with the same and organize promotion of the achievements made by the Republic of Azerbaijan in various sectors of the economy.

## DÜNYA BANKI İLƏ “İDARƏETMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏNİN ROLU” MÖVZUSUNDA SEMİNAR

Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində “İdarəetmənin təkmilləşdirilməsində monitorinq və qiymətləndirmənin rolu” mövzusunda keçirilən seminar Azərbaycanda milli monitorinq və qiymətləndirmə potensialına həsr olunub.

Seminarda Azərbaycanda monitorinq və qiymətləndirmə potensialının qurulması, strateji yol xəritələrinin monitorinq və qiymətləndirməsi üçün metodologiya və çərçivənin hazırlanmasında Dünya Bankının göstərdiyi ekspert dəstəyi qeyd edilib. Onlayn müzakirədə Dünya Bankının Avropa və Mərkəzi Asiya Regionu üzrə departamentinin dövlət sektoru üzrə baş mütəxəssisi xanım Kathrin Plangemann və Dünya Bankının dövlət sektoru üzrə aparıcı mütəxəssisi xanım Elena Georgieva-Andonovska iştirak ediblər.

Xanım Plangemann MQ hesabatlarının hazırlanması və nəşr edilməsi, eləcə də dövlət proqramlarının nəticələrə əsaslanan MQ metodologiyası əsasında dünyanın ən qabaqcıl sistemlərindən birinin qurulmasında İİTKM-in rolunu yüksək qiymətləndirib. O, qısa müddət ərzində MQ sahəsində dünyanın aparıcı qurumları və şəbəkələri ilə İİTKM-in əməkdaşlığını və “Monitoring.az” portalı kimi yenilikçi rəqəmsal texnologiyanın tətbiq edilməsinin təqdirəlayiq hal olduğunu bildirib. Elena Georgieva-Andonovska Dünya Bankının yeni

təşəbbüsü olan "Govtech" və eləcə də "Rəqəmsal iqtisadiyyat strategiyası" barədə məlumat verib. Monitorinq və qiymətləndirmənin aparılmasında e-idarəetmə, elektron xidmətlərin və bir pəncərə xidmətlərinin tətbiqinin proqresi ölçməyə imkan verdiyi vurğulanıb.



# RƏQƏMSAL TRANSFORMASİYANIN MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏYƏ TƏTBİQİ: WWW.MONITORING.AZ

Müasir çağırışlar fonunda dövlət idarəetməsində proseslərin asanlaşdırılması və texnoloji yeniliklərin tətbiqi xüsusi əhəmiyyət daşıyır. Azərbaycanda dövlət idarəetməsində elektron funksionallığın tətbiqinə böyük diqqət ayrılır. Ölkəmizdə uğurla həyata keçirilən elektron hökumət portalı və elektron məhkəmə sistemləri çevik və səmərəli dövlət idarəetməsinə şərait yaradır. Bu kimi elektron sistemlər layihə və proqramların icrasının elektron qaydada monitorinqi, inkişaf məqsədlərinə nail olunması və nəticələrin izlənilməsi, çatışmazlıqlar və boşluqlar barədə preventiv xəbərdarlıqların verilməsini vəd etməklə problemlərin və məhdudiyyətlərin həllinə yeni baxış bucağı gətirir.

İslahat proseslərinin rəqəmsal platformalar vasitəsilə aparılması Prezident İlham Əliyevin ölkədə islahatların davamlı və ən qabaqcıl beynəlxalq təcrübələr və yanaşmaların tətbiqi barədə tapşırıqlarının nəticəsidir. İİTKM dövlət idarəetməsinin rəqəmsallaşdırılmasına elektron monitorinq portalı ilə töhfə verir, MQ prosesində ən son innovativ və rəqəmsal həlləri tətbiq edir. İİTKM-də islahatların "həyat tsikli"nə aid olan bütün mərhələlər tam rəqəmsallaşdırılıb. Bu mərhələlərdən biri kimi MQ prosesinin rəqəmsallaşması islahatların kəsilməzliyini, sistemliliyini, səmərəliliyini, şəffaflığını, inklüzivliyini və hesabatlılığını təmin edir.

İİTKM 2019-cu ilin 25 oktyabr tarixində Azərbaycanda ilk dəfə olaraq BP Azərbaycan şirkəti ilə əməkdaşlıq çərçivəsində www.monitoring.az portalını ictimaiyyətə təqdim edib. Portalın əsas məqsədi monitorinq və qiymətləndirmə prosesində qurumlar arasında olan “kommunikasiya məsafəsi”ni azaltmaq, MQ institutunu rəqəmsallaşdırmaq, sadələşdirmək və şəffaflaşdırmaqdır. Bu portal vasitəsilə SYX-in, dövlət proqramlarının, strategiyaların, tədbirlər planlarının və iqtisadi yönümlü təşviq layihələrinin monitorinqi və qiymətləndirilməsi aparıla bilir. “Monitoring.az” istifadəçilərə məlumatlara anında giriş imkanı yaradan mərkəzləşdirilmiş informasiya bazasına əlçatanlığı təmin edir. Portal dövlət-özəl dialoqu əsasında islahatların hazırlanması, həyata keçirilməsi, monitorinqi, qiymətləndirilməsi və kommunikasiyasından ibarət rəqəmsal alqoritm əsasında fəaliyyət göstərir. Portal səmərəli qərar qəbuletmə və yaxşı idarəetmə prinsiplərinə əsaslanmaqla, ədalətli təmsilçiliyə, bürokratik prosedurların azalmasına, cəmiyyətin ehtiyaclarının nəzərə alınmasına xidmət edir.

Portalın missiyası icra, monitorinq, qiymətləndirmə, koordinasiya və kommunikasiya proseslərini vahid bir platformada institusionallaşdırmaqdır. Portalın vizyonu rəqəmsal MQ institutunu elektron hökumətin funksionallığı kimi görməkdir.

Geniş və unikal funksionallığa malik "Monitoring.az" portalı qurumların səlahiyyətində olan tədbirlərin icrasının operativ və yüksək səviyyədə yerinə yetirməsinə şərait yaradır. Platforma dövlət orqanları arasında çevik rabitəni və sadələşdirilmiş kommunikasiya prosesini, eləcə də şəffaflığı təmin edir, hesabatlılığı gücləndirir. Portal Azərbaycan və ingilis dili olmaqla iki dildə təqdim olunur.

"Monitoring.az" platforması funksional olaraq əlaqələndirilməklə islahatlar və monitorinqin iş axınlarını rəqəmsal olaraq bir-birinə bağlayır. Belə ki, qəbul edilən hər bir islahat yeni monitorinq, hər yeni monitorinq isə yeni islahat deməkdir.

"Monitoring.az" portalının ön səhifəsi əsas dörd bölmədən ibarətdir:

**"Monitoring.az"**

HAQQIMIZDA

İİTKM-in fəaliyyəti, görülən işlərlə bağlı ümumi məlumat, missiya və vizyon, qaydalar və işçi qrupların tərkibi haqqında məlumatlar yer alır.

QANUNVERİCİLİK

Strateji yol xəritələri, dövlət proqramları, tədbirlər planı və strategiyaların normativ hüquqi bazası haqqında məlumatlar qeyd edilir.

HESABATLILIQ

Strateji yol xəritələri, dövlət proqramları, tədbirlər planları və strategiyaların nəticələri açıq şəkildə ictimaiyyətə təqdim olunur.

KOMMUNİKASİYA

MQ ilə bağlı keçirilən iclaslar, tədbirlər, video icmal və fotolar, həmçinin əhalinin irad və təkliflərini göndərməsi üçün xüsusi bölmə yer alır.

Portal islahatların kommunikasiyasında iki vacib kütləni hədəfləyir. Bunun biri mesajları əhali, biznes, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti və digər istiqamətlərdə düzgün çatdırmaqdır. İkinci hədəf isə əks-əlaqə qurmaqla islahatların icrası zamanı yaranan fikir və rəyləri yenidən "islahat gündəliyi"nin formalaşmasında istifadə etməkdir. Bu istiqamətdə Portal vasitəsilə bütün maraqlı tərəflər və ictimaiyyət monitorinq və qiymətləndirilməsi aparılan dövlət proqramlarının MQ prosesini yaxından izləmək imkanını əldə edir. Belə ki, portalın "kommunikasiya" bölməsində strateji yol xəritələri, dövlət proqramlarının icra vəziyyəti ilə bağlı keçirilən iclaslar, tədbirlər, video icmal və fotolar şəffaf şəkildə ictimaiyyətlə paylaşılır. Həmçinin əhalinin və digər maraqlı tərəflərin təkliflərini göndərməsi üçün xüsusi bölmə yaradılıb. Bunun nəticəsində portal vətəndaşların dövlət idarəçiliyində və islahatların aparılması prosesində fəal iştirakını təmin edir. Göndərilən təkliflər ideya bankında toplanaraq ölkədə islahatların aparılması prosesinin növbəti mərhələlərində nəzərə alınır. Bu da onu deməyə əsas verir ki, vətəndaşlar nəinki dövlətin gördüyü bütün bu işləri şəffaf şəkildə izləyir, həmçinin prosesin bilavasitə iştirakçısına çevrilir.

"Monitoring.az" portalının daha bir unikal funksionallığı portalın ön səhifəsində yerləşən "rəqəmsal təqvim" bölməsidir. Bu təqvim ölkə ictimaiyyətinin və vətəndaşların aparılan islahat prosesləri çərçivəsində görülən işlərlə tanış olmasına xidmət edir. Belə ki, bu təqvimə daxil olduqda işçi qrupların iclasları, həmin iclaslarda müzakirə olunan mövzular, keçirilən tədbirlər və digər məsələlər barədə ətraflı məlumat əldə etmək mümkündür. Bu da öz növbəsində dövlətin iqtisadiyyatın inkişafı istiqamətində gördüyü işlərin şəffaf və açıq formada vətəndaşlara çatdırılmasına şərait yaradır. Həmçinin, portal işçi qrupun üzvlərinə keçiriləcək iclaslar, tədbirlər barədə əvvəlcədən məlumat təmin etdiyi üçün kommunikasiyanın keyfiyyəti və səmərəliliyi artır.

# MONITORINQ.AZ PORTALININ İSTİFADƏÇİ TƏLİMATI

## ÜMUMİ MƏLUMAT

"Monitoring.az" portalı strateji yol xəritələrinin və digər dövlət proqramlarının, tədbirlər planlarının, strategiyaların, monitorinq və qiymətləndirilməsinin aparılması üçün yaradılmışdır.

Hal-hazırda aparılan fəaliyyət əsaslı monitorinq və qiymətləndirmə prosesində 3 tərəf iştirak edir:

- fəaliyyətin qiymətləndirilməsini həyata keçirən Monitorinq qrupu;
- hər bir strateji yol xəritəsi, dövlət proqramları üzrə əvvəlcədən müəyyənləşdirilmiş Əlaqələndirici qurum;
- hər bir strateji yol xəritəsində, dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin icrasını həyata keçirən İcraçı qurumlar.

Burada hər bir strateji yol xəritəsi və dövlət proqramları üzrə monitorinq qrupu tərəfindən hazırlanmış suallar əlaqələndirici quruma göndərilir və əlaqələndirici qurum tərəfindən həmin suallar qurumlar arasında əvvəlcədən müəyyən olunmuş qaydada bölüşdürülür. Suallar qurumlar tərəfindən emal olunur və qurumlar tərəfindən emal olunmuş məlumatlar əlaqələndirici quruma geri qaytarılır. Əlaqələndirici qurum öz növbəsində icraçı qurumlar tərəfindən təqdim edilmiş məlumatları yekun halda monitorinq qrupuna təqdim edir. Əlaqələndirici qurum tərəfindən yekun hesabat monitorinq qrupuna təqdim edildikdən sonra monitorinq qrupu tərəfindən ilkin qiymətləndirmə aparılır. Monitorinq qrupu ilkin qiymətləndirmə hazırladıqdan sonra portalın daxili sənəd dövriyyəsi tərəfindən monitorinq və qiymətləndirmə hesabatı əlaqələndirici quruma rəyə göndərilir. Eyni zamanda monitorinq və qiymətləndirmə prosesi zamanı monitorinq qrupu suallarla bağlı dəqiqləşdirmə aparmaq üçün icraçı qurumlara həm ilkin qiymətləndirmə zamanı, həm də rəydən sonra şərh göndərmək və icraçı qurumların şərhlərə cavab vermək, əlavə sənəd göndərmək fəaliyyətləri qarşılıqlı olaraq davam edir. Bütün proseslər yekunlaşdıqdan sonra monitorinq qrupu tərəfindən yekun qiymətləndirmə aparılır və portalın daxili sənəd dövriyyəsi tərəfindən yekun hesabatlar hazırlanır.

Bu təlimatda yuxarıda qeyd edilən prosesin mərhələləri əyani şəkildə ətraflı izah edilmişdir.

## DAXİLİ SƏNƏD MÜBADİLƏSİNƏ GİRİŞ

Monitorinq və qiymətləndirmə prosesində iştirak edən əlaqələndirici və əsas icraçı qurumların "Rəhbər istifadəçiləri", "İşçi qrup rəhbəri istifadəçiləri" və "İcraçı istifadəçiləri" https://monitoring.az/ portalının "Daxili sənəd mübadiləsi"ndən istifadə edə bilər.

Portalın ön səhifəsində aşağıda qeyd edilən "Daxil ol" düyməsini sıxmaqla "Portala giriş" pəncərəsi açılır.

Hər bir istifadəçi burada "İstifadəçi adı"nı və "Şifrə"sini qeyd etməklə portalın "Daxili sənəd mübadiləsi"nin funksionallıqlarından istifadə edir.




## ƏLAQƏLƏNDİRİCİ QURUMUN "RƏHBƏR" İSTİFADƏÇİSİNİN "SƏNƏDLƏRİM" BÖLMƏSİNDƏKİ FUNKSİONALLIQLARI

Əlaqələndirici qurumun "Rəhbər istifadəçisi" daxili sənəd dövriyyəsinə daxil olduqda iki hesabdan birini seçməklə əməliyyatı həyata keçirə bilər. Əlaqələndirici qurum kimi funksionallıqlardan istifadə etmək üçün "Əlaqələndirici", icraçı qurum kimi funksionallıqdan istifadə etmək üçün isə "İcraçı" hesabını seçməlidir. Əlaqələndirici qurumunun "Rəhbər" istifadəçisi qurumun "Koordinator" hesabının üzərinə sıxır.




### Sualların hazırlanması və icraçılara göndərilməsi

Burada Monitorinq qrupu tərəfindən gələn sualların əlaqələndirici qurumun rəhbər istifadəçisi tərəfindən "Sənədlərim" bölməsində "Əməliyyatı seçin" düyməsini sıxmaqla "Sualların hazırlanması və icraçılara göndərilməsi" funksionallığından istifadə edir və monitorinq qrupu tərəfindən təyin edilmiş tarixə uyğun olaraq tarix təyin edərək sualları icraçı qurumların rəhbər istifadəçilərinə göndərir.






## İcraçı qurumların rəhbər istifadəçisi tərəfindən təqdim edilən cavablandırılmış hesabatın monitorinq qrupuna göndərilməsi

Əlaqələndirici qurumun rəhbər istifadəçisi icraçı qurumlar tərəfindən göndərilmiş hesabatın tamlığını, düzgünlüyünü yoxlamaq üçün hesabatı əlaqələndirici qurumun işçi qrup rəhbərinə göndərir və işçi qrup rəhbəri icraçı qurumlar tərəfindən göndərilmiş hesabata münasibət bildirdikdən sonra, əlaqələndirici qurumun rəhbəri təsdiqləyib monitorinq qurumuna göndərə və ya qeydlər bildirərək yenidən cavablandırılma üçün geri göndərə bilər.

Prosesin davamı olaraq icraçı qurumlardan gələn sənədlər əlaqələndirici qurumun rəhbərinin "Sənədlərim" bölməsinə daxil olur.

Əlaqələndirici qurumun rəhbər istifadəçisi sənəd üzərində "Əməliyyatları seçin" və "İşçi qrupunun rəhbərinə göndər" düyməsini sıxmaqla qurumlar tərəfindən təqdim edilmiş hesabatın düzgünlüyünü, tamlığını yoxlamaq üçün işçi qrupunun rəhbərinə göndərir.




İşçi qrupunun rəhbəri rəhbər tərəfindən daxil olmuş sənədi "Təsdiq və ya imtina edib" rəhbərə göndərir.

Əlaqələndirici qurumun rəhbərinin "Sənədlərim" bölümünə işçi qrupun rəhbəri tərəfindən "təsdiq" edilmiş sənəd daxil olduqdan sonra rəhbər istifadəçi "Əməliyyatı seçin" düyməsində "Cavablara bax", "Monitorinq qrupuna göndər" düymələrini görür. "Monitorinq qrupuna göndər" düyməsini sıxaraq sənədi monitorinq qrupuna göndərir.



Əlaqələndirici qurumun rəhbərinin “Sənədlərim” bölümünə işçi qrupun rəhbəri tərəfindən “imtina” edilmiş sənəd daxil olduqdan sonra rəhbər istifadəçi “Əməliyyatı seçin” düyməsində “Cavablara bax”, “Geri qaytar” düymələrini görür. “Geri qaytar” düyməsini sıxaraq sənəddə sualların qarşısında və ümumi geri qaytarma səbəbini qeyd etməklə sənədi icraçı quruma göndərir.




Açılan pəncərədə sualların qarşısında qeyd yazılması üçün bölməyə lazımi məlumatları daxil edir (qırmızı işarələnən hissə) və sonda “Geri qaytar” düyməsinin üzərinə sıxır. Bu zaman növbəti pəncərə açılır. Sənədin qaytarılma səbəbini qeyd edib “Göndər” düyməsini sıxır.




## Monitorinq qurumu tərəfindən ilkin qiymətləndirilmiş hesabatın icraçı qurumlara rəyə göndərilməsi

Burada Monitorinq qrupu tərəfindən ilkin qiymətləndirilmə aparıldıqdan sonra göndərilən sualların əlaqələndirici qurumun rəhbər istifadəçisi tərəfindən “Əməliyyatı seçin” düyməsini sıxmaqla “İcraçı quruma rəyə göndər” funksionallığından istifadə edir və monitorinq qrupu tərəfindən təyin edilmiş tarixə uyğun olaraq tarix təyin edərək sualları icraçı qurumların rəhbər istifadəçilərinə göndərə bilir.




Eyni zamanda burada “Əməliyyatı seçin” və “Sənədə bax” düyməsini sıxmaqla hesabata baxmaq və onu “excel” fayl formasında yükləmək olar.



### İcraçı qurumların rəhbər istifadəçisi tərəfindən təqdim edilən rəydən sonra yenidən cavablandırılmış hesabatın monitorinq qurumuna göndərilməsi

Əlaqələndirici qurumun rəhbərinə icraçı qurumların rəhbər istifadəçisi tərəfindən təqdim edilən rəydən sonra yenidən cavablandırılmış hesabat sənədi daxil olduqdan sonra "Əməliyyatı seçin" düyməsində "Sənədə bax" və "İşçi qrupunun rəhbərinə göndər" düymələri görünür. İcraçı qurumun rəhbərində gələn cavabı təsdiqləmək üçün "İşçi qrupunun rəhbərinə göndər" düyməsinin üzərinə sıxaraq sənədi göndərir.




İşçi qrupunun rəhbəri tamlığını və düzgünlüyünü yoxladıqdan sonra sənədləri əlaqələndirici qurumun rəhbərinə göndərir və əlaqələndirici qurumun rəhbərinin "Sənədlərim" bölməsinə sənəd daxil olduqdan sonra "Əməliyyatı seçin" düyməsində "Sənədə bax" və "Rəyi monitorinq qrupuna göndər" düymələri görünür. İcraçı menecerdən gələn cavabı təsdiqləmək "Rəyi monitorinq qrupuna göndər" düyməsinin üzərinə sıxmaqla icraçı qurumlar tərəfindən rəydən sonra cavablandırılmış sənədi monitorinq qrupuna yekun monitorinq və qiymətləndirmə fəaliyyəti aparılması üçün göndərir.

## İCRAÇI QURUMUN "RƏHBƏR" İSTİFADƏÇİSİNİN "SƏNƏDLƏRİM" BÖLMƏSİNDƏKİ FUNKSİONALLIQLARI




"Rəhbər" istifadəçi "Əlaqələndirici" hesabından icraçı hesabına keçidi "Hesabı dəyiş" funksionallığından istifadə etməklə yerinə yetirə bilər.




### Suallarla tanış olmaq və onların cavablandırılması üçün icraçı qurumun əməkdaşlarına göndərilməsi

Burada Əlaqələndirici qurumun rəhbər istifadəçisi tərəfindən göndərilən sualların icraçı qurumun rəhbər istifadəçisi tərəfindən "Əməliyyatı seçin" düyməsini sıxmaqla "Sənədə bax" və "İşçi qrupun rəhbərinə göndər" funksionallığından istifadə edilə bilər. Monitorinq qrupu tərəfindən təyin edilmiş tarixə uyğun olaraq tarix təyin edərək sualları icraçı qurumun işçi qrup rəhbəri istifadəçilərinə göndərə bilir.






“Sənədə bax” düyməsini sıxmaqla suallara baxa və endir düyməsini sıxmaqla “excel” fayl formasında endirə bilər.




“İşçi qrupun rəhbərinə göndər” düyməsini sıxmaqla vaxt məhdudiyyəti qeyd etməklə işçi qrupun rəhbərinə göndərə bilər.

## Qurum əməkdaşları tərəfindən cavablandırılmış suallara münasibət bildirilməsi və əlaqələndirici quruma göndərilməsi




İcraçı qurumun rəhbəri “Sənədlərim” menyusuna daxil olaraq, qurumun əməkdaşları tərəfindən cavablandırılmış monitorinq və qiymətləndirilmə suallarına münasibət bildirə bilər. Belə ki, Rəhbər tərəfindən “Sənədlərim” menyusunda icraçı qurumun işçi qrup rəhbəri tərəfindən göndərilmiş tədbirlər üzrə hesabatda icraçı qurumun rəhbəri “Əməliyyatı seçin” düyməsini sıxmaqla “Geri qaytar”, “Əlaqələndirici quruma göndər” və “Cavablara bax” funksionallıqlarından istifadə edə bilər.



Geri qaytarma: “Əməliyyatı seçin” və “Geri qaytar” düyməsini sıxmaqla açılan pəncərədə Rəhbər tərəfindən qurumun əməkdaşlarının bildirdiyi cavablara hər hansı bir qeyd, uyğun bilinmədiyi hal varsa sualların qarşısında qeyd yazılması üçün ayrılmış bölməyə qeydlər, izahlar yazaraq yenidən cavablandırılması üçün işçi qrupun rəhbərinə göndərilməsi üçün “Geri qaytar” düyməsinin üzərinə sıxır.

Bu zaman açılan növbəti pəncərədə ümumi olaraq sənədin (tədbirin) qaytarılma səbəbini qeyd etmək imkanı mövcuddur.

İcraçı qurumun rəhbəri əgər icraçı qurumun əməkdaşları tərəfindən cavablandırılmış məlumatlarla razıdırsa və ya geri qaytarma əməliyyatından istifadə edəndən sonra yeni cavablandırılmış hesabatda hər hansı bir qeyd olmayaraq razıdırlarsa onda "Əməliyyatı seçin" "Əlaqələndirici quruma göndər" düyməsini sıxaraq və ya hamısını işarələyərək tədbirləri əlaqələndirici qurumun rəhbərinə göndərə bilərlər.




"Cavablara bax" düyməsini seçməklə icraçı qurumun nümayəndələri tərəfindən cavablandırılaraq göndərilmiş məlumatlara baxa və onları yükləyə bilər.




## İlkin qiymətləndirilmədən sonra icraçı qurumlara rəyə göndərilən M/Q hesabatı ilə tanış olmaq və yekun cavablandırılması üçün icraçı qurumun əməkdaşlarına göndərilməsi

Əlaqələndirici qurumun rəhbər istifadəçisi tərəfindən göndərilən ilkin qiymətləndirilmiş M/Q hesabatı Rəy prosesində icraçı qurumun rəhbər istifadəçisi tərəfindən "Əməliyyatı seçin" düyməsini sıxmaqla "Sənədə bax" və "İşçi qrupun rəhbərinə göndər" funksionallığından istifadə edilə bilər.




Monitorinq qrupu tərəfindən Rəy prosesində təyin edilmiş tarixə uyğun olaraq tarix təyin edərək sualları icraçı qurumun işçi qrup rəhbəri istifadəçisinə göndərə bilər.

İlkin qiymətləndirilmədən sonra "Sənədə bax" düyməsini sıxmaqla monitorinq qrupu

tərəfindən hər bir sual üzrə qiymətləndirilməyə baxa bilər və endir düyməsini sıxmaqla "excel" fayl formasında endirə bilər.




"İşçi qrupun rəhbərinə göndər" düyməsini sıxmaqla və vaxt məhdudiyyəti qeyd etməklə işçi qrupun rəhbərinə göndərə bilər.




## Qurum əməkdaşları tərəfindən rəy bildirilmiş hesabata münasibət bildirilməsi və əlaqələndirici quruma göndərilməsi

İcraçı qurumun rəhbəri "Sənədlərim" menyusuna daxil olaraq, qurumun əməkdaşları tərəfindən rəy bildirilmiş ilkin qiymətləndirilən monitorinq və qiymətləndirilmə hesabatına münasibət bildirə bilər. Belə ki, Rəhbər tərəfindən "Sənədlərim" menyusunda icraçı qurumun işçi qrup rəhbəri tərəfindən göndərilmiş tədbirlər üzrə hesabatda icraçı qurumun rəhbəri "Əməliyyatı seçin" düyməsini sıxmaqla "Geri qaytar", "Rəyi əlaqələndirici quruma göndər" və "Cavablara bax" funksionallıqlarından istifadə edə bilər.



Geri qaytarma: "Əməliyyatı seçin" "Geri qaytar" düyməsini sıxmaqla açılan pəncərədə Rəhbər tərəfindən qurumun əməkdaşlarının bildirdiyi cavabların və rəylərin qeyd yazılması üçün ayrılmış bölməyə qeydlər, izahlar yazaraq yenidən cavablandırılması üçün işçi qrupun rəhbərinə göndərilməsi üçün "Geri qaytar" düyməsinin üzərinə sıxır.




Bu zaman açılan növbəti pəncərədə ümumi olaraq sənədin (tədbirin) qaytarılma səbəbini qeyd etmək imkanı mövcuddur.












İcraçı qurumun rəhbəri əgər icraçı qurumun əməkdaşları tərəfindən rəy bildirilmiş məlumatlarla razıdırsa və ya geri qaytarma əməliyyatından istifadə edəndən sonra yeni cavablandırılmış hesabatda hər hansı bir qeyd olmayaraq razıdırlarsa onda "Əməliyyatı seçin" "Rəyi əlaqələndirici quruma göndər" düyməsini sıxaraq və ya hamısını işarələyərək tədbirləri Əlaqələndirici qurumun rəhbərinə göndərə bilərlər.

"Cavablara bax" düyməsini seçməklə icraçı qurumun nümayəndələri tərəfindən rəy bildirilərək göndərilmiş məlumatlara baxa və onları yükləyə bilər.

## ƏLAQƏLƏNDİRİCİ QURUMUN "İŞÇİ QRUPUN RƏHBƏRİ" İSTİFADƏÇİSİNİN "SƏNƏDLƏRİM" BÖLMƏSİNDƏKİ FUNKSİONALLIQLARI

### İcraçı qurumlar tərəfindən cavablandırılmış məlumatların yoxlanılması




Əlaqələndirici qurumun "İşçi qrupun rəhbəri" istifadəçisi "Koordinator" hesabını seçməklə əlaqələndirici qurum kimi funksionallıqlardan istifadə edə bilər.

Əlaqələndirici qurumun "İşçi qrupun rəhbəri" istifadəçisi "Sənədlərim" bölməsinə daxil olduqdan sonra "Əməliyyatı seçin" düyməsinin üzərinə sıxmaqla "Təsdiq edib rəhbərə göndər", "İmtina edib rəhbərə göndər" və "Cavablara bax" funksionallıqlarını istifadə edə

bilər. Burada İşçi qrup rəhbəri, Rəhbər istifadəçi tərəfindən ona göndərilmiş icraçı qurumlar tərəfindən cavablandırılan hesabata münasibət bildirərək rəhbərə göndərməlidir.

Sənədlərlə tanış olduqdan sonra, məlumatların tamlığına, düzgünlüyünə əmin olduğu halda "Təsdiq edib rəhbərə göndər" düyməsini sıxmaqla sənədi rəhbərə göndərir.




Bu proses "Rəy" mərhələsində də təkrarlanır. Əlaqələndirici qurumun "İşçi qrupun rəhbəri" istifadəçisi "Sənədlərim" bölməsinə daxil olduqdan sonra "Əməliyyatı seçin" düyməsinin üzərinə sıxmaqla "Sənədə bax", "Rəyi rəhbərə göndər" funksionallıqlarını istifadə edə bilər. Burada İşçi qrup rəhbəri, Rəhbər istifadəçi tərəfindən ona göndərilmiş icraçı qurumlar tərəfindən cavablandırılan hesabata münasibət bildirərək rəhbərə göndərməlidir.

Sənədlərlə tanış olduqdan sonra, məlumatların tamlığına, düzgünlüyünə əmin olduğu halda "Rəyi rəhbərə göndər" düyməsini sıxmaqla sənədi rəhbərə göndərir.




Əlaqələndirici qurumun "İşçi qrupun rəhbəri" istifadəçisi sənədlərlə tanış olduqdan sonra, məlumatların tamlığına, düzgünlüyünə əmin olmadıqda, bu halda "İmtina edib rəhbərə göndər" düyməsini sıxmaqla ilə sənədi rəhbərə icraçı qurumlara yenidən cavablandırılması üçün göndərir.

Sənədi geri qaytaranda "Əməliyyatı seçin" bölümündən "Geri qaytar" düyməsini sıxır. Açılan pəncərədə sualların qarşısında qeyd yazılması üçün bölməyə lazımi məlumatları daxil edir (qırmızı işarələnən sahə) və "Geri qaytar" düyməsini sıxır.



Bu zaman növbəti pəncərə açılır. Sənədin qaytarılma səbəbini qeyd edib "Göndər" düyməsini sıxır.



## İCRAÇI QURUMUN "İŞÇİ QRUPUN RƏHBƏRİ" İSTİFADƏÇİSİNİN "SƏNƏDLƏRİM" BÖLMƏSİNDƏKİ FUNKSİONALLIQLARI

İcraçı qurumun İşçi qrupunun rəhbəri "İcraçıya göndər" düyməsini seçərək sənədi icraçıya göndərir.




"İcraçıya göndər" düyməsini üzərinə sıxdıqdan sonra aşağıdakı pəncərədə icraçıların adları qeyd olunan icraçılara "Göndər" düyməsinin üzərinə sıxır.




İcraçı qurumda "İcraçı" istifadəçiləri sualları cavablayıb, "İşçi qrupun rəhbərinə" göndərdikdən sonra İcraçı qurumun "İşçi qrupun rəhbəri" "Sənədlərim" menyusuna daxil olduqda "Əməliyyatı seçin" düyməsini sıxmaqla icraçı tərəfindən göndirilmiş sənədi "Geri qaytar"a, "Rəhbərə göndər"ə və "Cavablara bax"a bilər. Sənəd dövriyyəsinin iş axışına uyğun olaraq Sənədi rəhbərə göndərmək lazım olduğundan sənədi rəhbərə göndərir.




İcraçı qurumda "İcraçı" istifadəçiləri sualları cavablayıb, "İşçi qrupun rəhbərinə" göndərdikdən sonra İcraçı qurumun "İşçi qrupun rəhbəri" "Sənədlərim" menyusuna daxil olduqda "Əməliyyatı seçin" düyməsini sıxmaqla icraçı tərəfindən göndirilmiş sənədə əlavələr, dəyişikliklər edilməsinə zərurət hiss etdikdə "Geri qaytar" düyməsinin üzərinə sıxaraq sənədi "icraçı"ya yenidən işlənilməsi üçün göndərir.

Açılan pəncərədə sualların qarşısında qeyd yazılması üçün bölməyə lazımi məlumatları daxil edir və "Geri qaytar" düyməsini sıxır.






Bu zaman növbəti pəncərə açılır. Sənədin qaytarılma səbəbini qeyd edib "Göndər" düyməsini sıxır. Rəy prosesində icraçı qurumun İşçi qrupunun rəhbəri "Rəyi icraçılara göndər" düyməsini seçərək sənədi icraçıya göndərir.







İcraçı qurumun "İcraçı" istifadəçisi Rəylərə cavab verdikdən və əlavə məlumatlar qeyd etdikdən sonra sənədi "işçi qrupunun rəhbərinə" göndərir.

İcraçı qurumun işçi qrup rəhbəri "Sənədlərim" bölməsinə daxil olduqdan sonra "Əməliyyatı seçin" düyməsində "Sənədə bax", "Geri qaytar" və "Cavablanmış rəyi rəhbərə göndər" düymələrini görür. İcraçıdan gələn cavabı təsdiqləmək üçün "Cavablanmış rəyi rəhbərə göndər" düyməsinin üzərinə sıxaraq sənədi Rəhbərə göndərir.




## İCRAÇI QURUMUN "İCRAÇI" İSTİFADƏÇİSİNİN "SƏNƏDLƏRİM" BÖLMƏSİNDƏKİ FUNKSİONALLIQLARI

### İcraçı qurumun "İcraçı" istifadəçisi tərəfindən sualların cavablandırılması

İcraçı qurumun "İcraçı" istifadəçisi "Sənədlərim" bölməsinə daxil olaraq Monitorinq qrupu tərəfindən ona göndərilən sualları cavablamaq üçün, "Əməliyyatı seçin" düyməsində "Cavabla" düyməsini seçərək sənədi açır.



İcraçı tərəfindən hər bir sual “Bəli” və “Xeyr” olmaqla cavablandırıla bilər. “Bəli” qeyd etməklə məlumatlar yükləmək və izahlar bildirmək olar. “Xeyr” qeyd etməklə sualların icra edilməməsi ilə bağlı izahlar bildirmək olar.

Əgər cavab “Bəli”dirsə “Faylı seç” düyməsindən uyğun fayl seçilir və “Yüklə” düyməsinin üzərinə sıxılır.




Əgər cavab “Xeyr”dirsə izah yazılır.




Suallar cavablandıqdan sonra “Yadda saxla” düyməsi sıxılır.




“Yadda saxla” düyməsi sıxıldıqdan sonra portal “Sənədlərim” bölümünə yönləndirilir. “Əməliyyatı seçin” menyusuna daxil olduqda iki düymə - “İşçi qrupunun rəhbərinə göndər” və “Cavabla” görünür.

“İşçi qrupun rəhbərinə göndər” düyməsini seçərək sənədi göndəririk.




Rəyə göndərmə prosesində Monitorinq qurumu tərəfindən "Xeyr" kimi qiymətləndirilən suallara yenidən icra ilə bağlı əlavə təsdiqedici sənəd yükləmək və ya izah bildirmək olar.

Sənəd İcraçı qurumun İcraçısının "Sənədlərim" bölməsinə gəldikdən sonra, "İcraçı" istifadəçisi "Əməliyyatı seçin" düyməsində "İşçi qrupun rəhbərinə göndər" və "Rəy bildir" düymələri görünür.




Sənəd rəyə göndərildikdə bütün suallar rəyə göndərilir. Hansı suallara Monitorinq qrupu tərəfindən "Xeyr" cavabı bildirilibsə, həmin hissə işarələnir və o suallar aktiv olur, əlavə qeyd və sənəd yükləmə imkanı olur.




İcraçı qurumun İcraçısı rəyə cavab verdikdən sonra sənədi "İşçi qrupunun rəhbərinə" göndərir.

## Geri qaytarılan tədbirlərin İcraçı qurumun "İcraçı" istifadəçisi tərəfindən cavablandırılması

Geri qaytarılan sənəd "Sənədlərim" menyusuna daxil olur və statusu "İşçi qrupun rəhbərindən geri qaytarılıb" olaraq bildirilir.



“Ətraflı” düyməsinin üzərinə sıxaraq sənədin geri qaytarılma səbəbi haqqında məlumat əldə edə bilərsiniz.




Geri qayıdan sənədi “Sənədlərim” bölməsində “Cavabla” düyməsini sıxaraq yenidən cavablamaq mümkündür. Aşağıdakı rənglənmiş hissədə hər bir sual qarşısında rəhbərlik tərəfindən edilmiş qeydləri görmək olar.




Sualları yenidən cavabladıqdan sonra “Yadda saxla” düyməsi sıxılaraq proses iş axışına uyğun davam etdirilir.

## “İCRA ETDİKLƏRİM” BÖLMƏSİNİN FUNKSİONALLIQLARI

“Sənədlərim” bölməsində əməliyyatlar aparıldıqdan sonra göndərilən sənədlər istifadəçinin səhifəsində “İcra etdiklərim” bölməsinə düşür. Burada istifadəçi sənədə, onun icra üzərində əməliyyat aparılması tarixlərinə və statuslarına baxa və həmin sənədi yükləyə bilər.




| Sənədin tipi | Sənədin adı | Son icra tarixi | Göndərilmə tarixi | Cari İcraçı | Status | Baxış |
|---|---|---|---|---|---|---|
| Strateji Yol Xəritəsi | Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi | 02.10.2019 - 23:59 | 30.09.2019 16:19 | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (Koordinator) | Sənəd MQ-un rəhbərindədir | Bax |
| Strateji Yol Xəritəsi | Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi | 01.10.2019 - 23:59 | 30.09.2019 17:37 | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (Koordinator) | Cavablanmış SYX MQ-də menecerlərdə | Bax |
| Strateji Yol Xəritəsi | Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi | 01.10.2019 - 23:59 | 02.10.2019 09:44 | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (Koordinator) | Sənəd PA MQ-də | Bax |
| Strateji Yol Xəritəsi | Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi | 01.10.2019 - 23:59 | 02.10.2019 15:01 | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (Koordinator) | Sənəd PA MQ Rəhbərliyində | Bax |
| Strateji Yol Xəritəsi | Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi | 08.10.2019 - 23:59 | 02.10.2019 15:02 | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (Koordinator) | Rəyə göndərildi | Bax |

## "DÖVRÜ BİTMİŞ SƏNƏDLƏR" BÖLMƏSİNİN FUNKSİONALLIQLARI

Sənədlə bağlı monitorinq və qiymətləndirmə prosesi bitdikdən sonra sənəd istifadəçinin səhifəsində həmin sənədlər "Dövrü bitmiş sənədlər" bölməsinə düşür. Burada istifadəçi sənədə, onun icra üzərində əməliyyat aparılması tarixlərinə və statuslarına baxa və həmin sənədi yükləyə bilər.

## "ŞƏRHLƏR" BÖLMƏSİNİN FUNKSİONALLIQLARI

Bütün suallara şərh yazmaq imkanı mövcuddur. İcraçı qurumun "İşçi qrup rəhbəri" Monitorinq qurumu tərəfindən bildirilən şərhlərə cavab yazıb sənəd yükləyə bilər.







## "Sənəd dövriyyəsinin cari vəziyyəti" bölməsinin funksionallıqları



## HESABATLAR BÖLMƏSİ

### “Strateji hədəflər üzrə nəticə” bölməsinin funksionallıqları

Burada Əlaqələndirici qurumların hər bir istifadəçisi tərəfindən “Sənədin adı” seçilməklə dövlət proqramlarında nəzərdə tutulmuş “Hədəflər”, “Məqsədlər”in icra faizi və “Əsas icraçı qurumlar”ın icra faizi haqqında məlumatı əldə edə və hesabatı yükləyə bilərlər.




### “Prioritetlər üzrə hesabat” bölməsinin funksionallıqları

Burada Əlaqələndirici qurumların hər bir istifadəçisi tərəfindən “Sənədin adı” seçilməklə dövlət proqramlarında nəzərdə tutulmuş “Prioritetlər”in icra faizi haqqında məlumatı əldə edə və hesabatı yükləyə bilərlər.




### “Qurumun icra vəziyyəti” bölməsinin funksionallıqları

Burada İcraçı qurumların hər bir istifadəçisi tərəfindən “Dövr”, “Sənəd” və “Sənədin adı” seçilməklə dövlət proqramlarının icra faizi haqqında məlumatı əldə edə və hesabatı yükləyə bilərlər.



### "Tədbirlər planı üzrə hesabat" bölməsinin funksionallıqları

Burada İcraçı qurumların hər bir istifadəçisi tərəfindən "Dövr", "Sənəd" və "Sənədin adı" seçilməklə dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti haqqında məlumatı əldə edə və hesabatı yükləyə bilərlər.




Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə |
|---|---|---|---|---|
| Prioritet 1.1. Mənzil İnşaatı Dövlət Agentliyinin təşkilati strukturunun, vəzifələrinin və dəstək sahələrinin müəyyən edilməsi | | | | |
| 1.1.2. Mənzil İnşaatı Dövlət Agentliyi üçün effektiv təşkilati inkişaf planının hazırlanması | Mənzil İnşaatı Dövlət Agentliyi | Əmək və Əhalinin Sosial Müda fiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2017–2018 | icra edilmişdir |
| 1. Mənzil İnşaatı Dövlət Agentliyinin təşkilati strukturunun hazırlanması | Mənzil İnşaatı Dövlət Agentliyi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2017 | İcra vəziyyəti qiymətləndirilmir |
| 2. Mənzil İnşaatı Dövlət Agentliyinin təşkilatı inkişaf planının hazırlanması | Mənzil İnşaatı Dövlət Agentliyi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2018 | icra edilmişdir |
| Prioritet 1.2. Uyğun qiymətə mənzil təminatı ilə bağlı hədəflərin və dövlət dəstəyi mexanizmlərinin müəyyən edilməsi | | | | |
| 1.2.2. İctimai müzakirələrin aparılması | Mənzil İnşaatı Dövlət Agentliyi | Tövsiyə edilir: Yerli və beynəlxalq ekspertlərin iştirakı | 2018 | qismən icra edilmişdir |
| 1. Hazırlanan yekun hesabatın və mənzil tikintisi proqnozunun ictimai müzakirəyə təqdim edilməsi (Mənzil İnşaatı Dövlət Agentliyinin internet səhifəsi, mətbuat və sosial media vasitəsilə) | Mənzil İnşaatı Dövlət Agentliyi | Tövsiyə edilir: Yerli və beynəlxalq ekspertlərin iştirakı | 2018 | icra edilmişdir |
| 2. Hazırlanacaq hesabatdan istifadə olunmaqla "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla, dövlət proqramının layihəsinin hazırlanması və rəy üçün müvafiq qurumlara göndərilməsi | Mənzil İnşaatı Dövlət Agentliyi | Tövsiyə edilir: Yerli və beynəlxalq ekspertlərin iştirakı | 2018 | icra edilməmişdir |
| 3. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla hazırlanmış normativ hüquqi akt layihələrinin Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikası Prezidentinin aktlarına münasibətdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına münasibətdə, müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edilməsi | Mənzil İnşaatı Dövlət Agentliyi | Tövsiyə edilir: Yerli və beynəlxalq ekspertlərin iştirakı | 2018 | icra edilmişdir |
| 1.2.3. Uyğun qiymətə mənzil təminatı üçün dövlət dəstəyi mexanizmlərinin müəyyən edilməsi və təsdiqi, eləcə də normativ hüquqi bazanın təkmilləşdirilməsi | Mənzil İnşaatı Dövlət Agentliyi | İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu | 2017 | İcra vəziyyəti qiymətləndirilmir |

## ƏLAVƏ
## Sənəd dövriyyəsinin iş axışı sxemi

### Fəaliyyət əsaslı monitorinq və qiymətləndirmə prosesində sənəd dövriyyəsinin iş axışı



# MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ FƏALİYYƏTİNİN HÜQUQİ ƏSASLARI

Dövlət tərəfindən həyata keçirilən tədbirlərin monitorinq və qiymətləndirilməsinin aparılması və onun keyfiyyətinin artırılması həmişə ölkə rəhbərliyinin diqqət mərkəzində olub. Ölkədə aparılan islahatlar fonunda bu sahəyə diqqət daha da artırılıb və MQ prosesi həyata keçirilən islahatların əsas hərəkətverici qüvvəsinə çevrilib. İqtisadi islahatların davamlılığı, eləcə də dövlət orqanlarını analitik informasiya ilə təmin olunması məqsədilə 2016-cı il 20 aprel tarixində cənab Prezidentin imzaladığı Fərmanla İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi yaradılıb. Cənab Prezidentin 13 iyul 2016-cı ildə digər bir fərmanı ilə 879 nömrəli Fərmanla təsdiqlənmiş İİTKM-in Nizamnaməsinə dəyişikliklər edilib. İİTKM-in Nizamnaməsinə 2.2.1-1 – 2.2.1-4-cü yarımbəndlər əlavə edilərək əsas fəaliyyət istiqamətlərindən biri kimi iqtisadi yönümlü dövlət proqramlarının monitorinq və qiymətləndirilməsinin aparılması müəyyən edilib. Qeyd olunan fərmanlarla monitorinq və qiymətləndirmə fəaliyyətində, eləcə də iqtisadi islahatların aparılmasında müasir yanaşmaların tətbiqi üçün hüquqi əsas formalaşdırılıb.

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 13 iyul tarixli
Fərmanı ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 879 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 879 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, №4, maddə 684) ilə təsdiq edilmiş "İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 2.2.1-1 – 2.2.1-4-cü yarımbəndlər əlavə edilsin:

"2.2.1-1. dövlət qurumlarının sifarişi əsasında iqtisadi yönümlü dövlət proqramlarının və strategiyaların, iqtisadi təşviq layihələrinin texniki-iqtisadi əsaslandırılmasını və risk təhlilini aparır, həmin layihələrlə bağlı maraqlı şəxslər arasında sorğular keçirir;

2.2.1-2. dövlət qurumlarının sifarişi əsasında sənaye parkları, məhəllələri və aqroparklarda həyata keçirilən fəaliyyətin, habelə iqtisadi yönümlü dövlət proqramlarının monitorinqini və qiymətləndirilməsini aparır;

2.2.1-3. dövlət qurumlarının sifarişi əsasında icra müddəti bitmiş dövlət proqramlarının və dövlət investisiya layihələrinin iqtisadi səmərəsini qiymətləndirir;

2.2.1-4. iqtisadi islahatlara dair təkliflərin hazırlanması və həmin islahatların tətbiqi ilə əlaqədar sorğular keçirir və istehlakçı məmnunluq reytinqlərini nəşr edir;".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. iqtisadi təşviq layihələrinin monitorinqi və qiymətləndirilməsi qaydasının layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi qaydasının layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. bu Fərmanın 2.2.1-1 – 2.2.1-3-cü yarımbəndlərində nəzərdə tutulan məqsədlər üçün müvafiq dövlət qurumları tərəfindən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə sifarişlərin verilməsi və maliyyələşdirilməsi qaydasının layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.6. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.7. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

## "Dövlət qurumları tərəfindən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə sifarişlərin verilməsi və maliyyələşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

30 noyabr 2016

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 879 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 990 nömrəli Fərmanının 2.3-cü bəndinə uyğun olaraq qərara alıram:

1. "Dövlət qurumları tərəfindən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə sifarişlərin verilməsi və maliyyələşdirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi

aktlarının bu Fərmana uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

Bakı şəhəri, 30 noyabr 2016-cı il

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 30 noyabr tarixli
Fərmanı ilə təsdiq edilmişdir

**Dövlət qurumları tərəfindən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə sifarişlərin verilməsi və maliyyələşdirilməsi**
**QAYDASI**

**1. Ümumi müddəa**

Bu Qayda Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 879 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Nizamnaməsi"nə əsasən hazırlanmışdır və dövlət qurumları tərəfindən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə (bundan sonra – Mərkəz) sifarişlərin verilməsi və maliyyələşdirilməsi ilə bağlı münasibətləri tənzimləyir.

**2. Dövlət qurumlarının sifarişi əsasında Mərkəz tərəfindən göstərilən xidmətlər**

2.0. Bu Qaydanın məqsədlərinə uyğun olaraq, Mərkəz tərəfindən dövlət qurumlarının sifarişi əsasında aşağıdakı xidmətlər (bundan sonra – xidmətlər) göstərilir:

2.0.1. iqtisadi yönümlü dövlət proqramlarının və iqtisadi təşviq layihələrinin texniki-iqtisadi əsaslandırılmasının və risk təhlilinin aparılması, həmin layihələrlə bağlı maraqlı şəxslər arasında sorğuların keçirilməsi;

2.0.2. sənaye parkları, məhəllələri və aqroparklarda həyata keçirilən fəaliyyətin, habelə iqtisadi yönümlü dövlət proqramlarının monitorinqi və qiymətləndirilməsi;

2.0.3. icra müddəti bitmiş iqtisadi yönümlü dövlət proqramlarının və dövlət investisiya layihələrinin iqtisadi səmərəsinin qiymətləndirilməsi.

**3. Dövlət qurumları tərəfindən sifarişlərin verilməsi**

3.1. Bu Qaydanın 2-ci hissəsində nəzərdə tutulan xidmətlərin göstərilməsi məqsədilə dövlət orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlar hər il növbəti il üçün sifarişlərini cari il mayın 1-dək, digər dövlət qurumları isə zərurət yarandıqda Mərkəzə təqdim edirlər.

3.2. Bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulan sifarişə müşayiət məktubu, xidmət göstərilməsi zərurətinin əsaslandırılması, habelə sifarişi verən subyektin

qərarına əsasən digər sənədlər əlavə olunur.

3.3. Mərkəz sifarişi qəbul etdikdən sonra 10 (on) iş günü müddətində görüləcək işin müddəti və maliyyə-iqtisadi əsaslandırılması, o cümlədən xidmət haqqı ilə bağlı məlumatı sifarişi verən subyektə təqdim edir.

3.4. Dövlət orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlar xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitin proqnozlaşdırılması ilə bağlı təkliflərini "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11.8-ci maddəsinə əsasən cari il iyulun 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edirlər.

3.5. Mərkəz tərəfindən bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulan sifariş qəbul olunduqdan sonra Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tələb olunan vəsaitin dövlət büdcəsinin müvafiq funksional bölməsində proqnozlaşdırılması üçün tədbirlər görür.

3.6. Mövcud qanunvericiliyin tələblərinə uyğun növbəti il üçün təsdiq edilmiş büdcə göstəriciləri dövlət orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlara daxil olduqdan sonra 10 (on) iş günündən gec olmayaraq, həmin orqanlar və təşkilatlar dövlət büdcəsində bu Qaydanın 2-ci hissəsindəki xidmətlər üçün nəzərdə tutulmuş vəsait barədə məlumatı Mərkəzə təqdim edirlər.

3.7. Dövlət orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlar xidmət göstərilməsi üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsait çərçivəsində Mərkəzlə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin tələblərinə uyğun olaraq müqavilə bağlayırlar.

3.8. Dövlət orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlar istisna olmaqla, digər dövlət qurumları bu Qaydanın 3.3-cü bəndində nəzərdə tutulan məlumatı aldıqdan sonra 6 (altı) ay müddətində Mərkəzlə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin tələblərinə uyğun olaraq müqavilə bağlaya bilərlər.

**4. Mərkəz tərəfindən göstərilən xidmətlərin maliyyələşdirilməsi**

4.1. Dövlət orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlar üzrə bu Qaydanın 2-ci hissəsində qeyd olunan xidmətlərin dəyərinin ödənilməsi dövlət büdcəsində həmin qurumlara bu məqsədlər üçün nəzərdə tutulmuş vəsaitlər daxilində həyata keçirilir.

4.2. Dövlət orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlar Mərkəzlə bağlanmış müqavilə şərtlərinə əsasən büdcənin iqtisadi və funksional təsnifatı üzrə müvafiq sifarişlərini, məxaric cədvəllərini və maliyyələşdirmə sənədlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edirlər.

4.3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi dövlət orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlardan daxil olmuş müraciətləri, məxaric cədvəllərini və maliyyələşdirmə sənədlərini yoxladıqdan sonra müvafiq büdcə təsnifatına uyğun olaraq təsdiq edilmiş büdcə ayırmaları həddində maliyyələşdirməni həyata keçirir.

4.4. Dövlət orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlar bu Qaydanın 3.7-ci bəndində nəzərdə tutulan müqavilənin şərtlərinə uyğun göstərilmiş xidmətlərə görə dövlət büdcəsindən ayrılmış vəsaitlərin Mərkəzə köçürülməsini təmin edirlər.

4.5. Dövlət orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlar istisna olmaqla, digər dövlət qurumları ilə Mərkəz arasında bu Qaydanın 3.8-ci bəndində nəzərdə tutulan müqavilə bağlandıqdan sonra, müqavilədə nəzərdə tutulan və bu Qaydanın 3.3-cü bəndinə əsasən tələb olunan vəsaitin həmin dövlət qurumları tərəfindən Mərkəzə köçürülməsi təmin edilir.

Monitorinq və qiymətləndirmə fəaliyyətinin daha da təkmilləşdirilməsi və bu prosesə müasir standartların tətbiqi xüsusi əhəmiyyət daşıyır. Cənab Prezident tərəfindən dövlət proqramlarının tərtibi, icrası monitorinq və qiymətləndirməsində vahid qanunvericilik standartlarının yaradılması məqsədilə İİTKM-in Nizamnaməsinin 2.2-ci bəndinə uyğun olaraq 2021-cı il 6 mart tarixində yeni bir Fərman verilib. Bu fərmanla İİTKM-in monitorinq və qiymətləndirmə institutunun beynəlxalq standartlar əsasında fəaliyyəti üçün hüquqi əsas formalaşdırılaraq MQ fəaliyyətinin keyfiyyətinin daha da artırılmasına imkan yaradılıb. Qeyd etmək lazımdır ki, yeni Qaydalar dövlət proqramlarının monitorinq və qiymətləndirilməsinə həm fəlsəfi, həm də metodoloji baxış bucağını dəyişdirir. Təsdiqlənmiş yeni Qayda ilə monitorinq və qiymətləndirmə prosesində yeni metodoloji yeniliklər nəzərə alınıb və nəticə əsaslı monitorinq və qiymətləndirmə üçün normativ-hüquqi çərçivə müəyyən edilib. Qaydalarda nəzərdə tutulmuş indikator göstəricilərin müəyyən olunması ilə tədbirlərin həyata keçirilməsindən əvvəlki (ex-ante) və sonrakı (ex-post) vəziyyətin müqayisəli təhlilinin aparılmasına imkan yaranır. Bu da öz növbəsində görülən işlərin monitorinq və qiymətləndirilməsinin daha obyektiv aparılması üçün xüsusi əhəmiyyətə malikdir. Qeyd olunması vacib olan digər məsələlərdən biri də yeni Qaydaların təsdiqi ilə dövlət proqramlarının monitorinq və qiymətləndirməsinin induktiv formada aparılmasına normativ-hüquqi bazanın formalaşdırılmasıdır. Bu o deməkdir ki, tədbirlərin icra vəziyyətinə görə dövlət proqramında müəyyən edilmiş prioritetlərin icra vəziyyəti, prioritetlərin icra vəziyyətinə görə isə ümumi dövlət proqramının icra vəziyyəti qiymətləndiriləcək. Beləliklə, yeni Qaydalar dövlət proqramlarının və onların alt komponenti olan prioritet istiqamətlər üzrə müqayisəli təhlillər aparılmasına və qarşıya qoyulan proqram məqsədlərinə hansı dərəcədə nail olunmasının qiymətləndirilməsinə imkan verir.

Azərbaycan Respublikası Prezidentinin<br>2021-ci il 6 mart tarixli<br>Fərmanı ilə təsdiq edilmişdir

**Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi QAYDASI**

**1. Ümumi müddəalar**

1.1. Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası (bundan sonra – Qayda) "Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 879 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Nizamnaməsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 990 nömrəli Fərmanının 2.2-ci bəndinə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qayda dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların və bu kimi digər sənədlərin (bundan sonra – dövlət proqramı) tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi məsələlərini tənzimləyir.

1.3. Dövlət proqramı ölkənin sosial-iqtisadi inkişafı sahəsində dövlət siyasətinin prioritetlərinə və məqsədlərinə nail olunmasını təmin edən, vəzifələrinə, icra müddətlərinə, icraçılarına və resurslarına görə bir-biri ilə qarşılıqlı şəkildə uyğunlaşdırılmış tədbirlər kompleksindən ibarət və dövlət siyasətinin alətlərini özündə birləşdirən strateji planlaşdırma sənədidir.

1.4. Dövlət orqanlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlətin adından yaradılan publik hüquqi şəxslərin (bundan sonra – dövlət orqanı (qurumu) birbaşa səlahiyyətlərinə aid edilən vəzifələr dövlət proqramında tədbir kimi

müəyyənləşdirilə bilməz.

1.5. Bu Qayda dövlət investisiya proqramlarının, həmçinin dövlətin təhlükəsizliyi baxımından dövlət sirri hesab edilən proqramların tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi fəaliyyətinə şamil edilmir.

1.6. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.6.1. **monitorinq** – dövlət proqramı üzrə məlumatların sistemli toplanması yolu ilə həmin dövlət proqramında qarşıya qoyulmuş məqsədlər üzrə görülmüş işlərin və əldə olunmuş nəticələrin müəyyən edilmiş müddətlərdə nəzərdən keçirilməsi;

1.6.2. **qiymətləndirmə** – dövlət proqramının icrasının və nəticələrinin sistemli və obyektiv ölçülməsi və dövlət proqramında qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi və məqsədlərə nail olunması səviyyəsinin, səmərəliliyinin, effektivliyinin, yekun nəticələrinin, uyğunluğunun və davamlılığının müəyyən edilməsi;

1.6.3. **dövlət proqramının layihəsini hazırlayan orqan (qurum)** – fəaliyyət istiqamətlərinə uyğun olaraq, bu Qaydanın tələbləri nəzərə alınmaqla, dövlət proqramının layihəsini hazırlayan dövlət orqanı (qurumu);

1.6.4. **monitorinq və qiymətləndirmə orqanı (qurumu)** – bu Qaydaya uyğun olaraq dövlət proqramlarının monitorinqini və qiymətləndirilməsini həyata keçirən orqan (qurum);

1.6.5. **əlaqələndirici orqan (qurum)** – dövlət proqramlarının icrasının əlaqələndirilməsini təmin etmək məqsədilə həmin proqramların təsdiq edildiyi hüquqi aktlarla müəyyən olunan dövlət orqanı (qurumu);

1.6.6. **tədbir** – dövlət proqramı çərçivəsində nəticələrə nail olmaq üçün maliyyə vəsaiti, texniki yardım və digər resurslar cəlb olunmaqla həyata keçirilən fəaliyyət;

1.6.7. **resurslar** – dövlət proqramı ilə müəyyən edilmiş tədbirlərin icrası məqsədilə istifadə edilən maliyyə, insan resursları və digər resurslar;

1.6.8. **ilkin nəticələr** – dövlət proqramı ilə müəyyən edilmiş tədbirlərin icrasının ilkin göstəriciləri;

1.6.9. **aralıq nəticələr** – dövlət proqramı ilə müəyyən edilmiş tədbirlərin ilkin nəticələrinin qısamüddətli və ortamüddətli dövrdə yarada biləcəyi və ya yaratdığı təsirlər;

1.6.10. **yekun nəticələr** – dövlət proqramı ilə müəyyən edilmiş tədbirlərin icrasının son göstəriciləri;

1.6.11. **effektivlik** – dövlət proqramının məqsəd və hədəflərinə hansı dərəcədə nail olunduğunu və ya olunacağını əks etdirən qiymətləndirmə meyarı;

1.6.12. **səmərəlilik** – dövlət proqramının icrası məqsədilə sərf edilən resursların nəzərdə tutulan nəticələrə çevrilmə dərəcəsini ölçən qiymətləndirmə meyarı;

1.6.13. **uyğunluq** – dövlət proqramının məqsədlərinin müəyyən edilmiş hədəf göstəricilər çərçivəsində ehtiyaclara və ya prioritetlərə cavabvermə dərəcəsinin qiymətləndirilməsi meyarı;

1.6.14. **indikator** – dövlət proqramı üzrə əldə edilmiş nəticələrin sadə və etibarlı üsulla ölçülməsinə imkan verən, dövlət proqramının tətbiqi nəticəsində yaranmış dəyişiklikləri əks etdirən, habelə icraçı orqanların (qurumların) fəaliyyətinin nəticələrini qiymətləndirməyə kömək edən kəmiyyət və ya keyfiyyət göstəriciləri;

1.6.15. **maraqlı tərəflər** – dövlət proqramının icrasında və ya onun qiymətləndirilməsində birbaşa yaxud dolayısı ilə maraqlı olan dövlət orqanları (qurumları), fiziki və hüquqi şəxslər;

1.6.16. **hədəf qrupu** – dövlət proqramının nəticələrindən faydalanması nəzərdə

tutulan dövlət orqanları (qurumları), fiziki və hüquqi şəxslər.

**2. Dövlət proqramının tərtibi və təsdiqi**

2.1. Dövlət proqramının tərtibi ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətləri və prioritetləri, bu Qaydanın tələbləri nəzərə alınmaqla, habelə aidiyyəti dövlət orqanlarının (qurumlarının) öz strateji planlarına uyğun olaraq texniki-iqtisadi cəhətdən əsaslandırılmış təklifləri əsasında müvafiq dövlət proqramının layihəsinin hazırlanması prosesini nəzərdə tutur.

2.2. Dövlət proqramının layihəsinin hazırlanması zamanı müvafiq sahələrdə həyata keçirilən ölkə əhəmiyyətli layihələrin məqsəd və vəzifələri, eləcə də proqramın tətbiqinin digər sahələrə olan təsiri nəzərə alınır.

2.3. Dövlət proqramının layihəsi hazırlanan zaman aidiyyəti dövlət orqanları (qurumları) ilə məsləhətləşmələr aparılmalı, habelə "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət proqramının ictimai dinləmə və müzakirələrin aparılması təmin edilməlidir.

2.4. Dövlət proqramının strukturu aşağıdakı bölmələrdən ibarət olmalıdır:

2.4.1. **qısa xülasə** – dövlət proqramında qeyd edilmiş mühüm məsələlərin icmalının təsviri;

2.4.2. **qlobal trendlər** – dövlət proqramının aid olduğu sahə üzrə müşahidə edilən başlıca istiqamətlər, bu sahədə gözlənilən əsaslı dəyişikliklər və onların Azərbaycan Respublikasına potensial təsirlərinin təsviri;

2.4.3. **mövcud vəziyyətin təhlili** – dövlət proqramının əhatə edildiyi sahə üzrə ölkəmizdə mövcud vəziyyət və görülmüş işlərlə bağlı qısa məlumat, proqramın hazırlanmasını zəruri edən məsələlərin, bu istiqamətdə aparılmış təhlillərin və əldə edilmiş nəticələrin ümumiləşdirilmiş təsviri;

2.4.4. **hədəf göstəricilər** – dövlət proqramının əhatə etdiyi dövr üzrə nail olunması əsas kimi müəyyənləşdirilmiş göstəricilər;

2.4.5. **məqsədlər** – dövlət proqramı üzrə müəyyənləşdirilən hədəf göstəricilərə nail olunması üçün qarşıya qoyulmuş hədəflərin təsviri;

2.4.6. **prioritet istiqamətlər** – məqsədlərin reallaşdırılması üzrə həyata keçiriləcək konkret tədbirlərin, əldə ediləcək nəticələrin, tələb olunan resursların təsviri;

2.4.7. **maliyyələşdirmə mexanizmləri** – dövlət proqramı üzrə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün müəyyənləşdirilmiş vəsaitin həcminin və həmin vəsaitin təmin edilmə mənbələrinin təsviri;

2.4.8. **tədbirlər planı** – dövlət proqramı üzrə müəyyən olunan hər bir tədbir üzrə icraçıların (əsas və digər icraçıların) və icra müddətlərinin, habelə hər bir prioritet istiqamət üzrə gözlənilən nəticə və nəticə indikatorlarının qeyd olunduğu planın təsviri.

2.5. Bu Qaydanın 2.4.3-cü yarımbəndinə uyğun olaraq müvafiq sahə üzrə mövcud vəziyyətin təhlilində aşağıdakı metodlardan istifadə edilə bilər:

2.5.1. rəqabət üstünlüyü – müvafiq sahəyə rəqabət üstünlüyü verən xüsusiyyətlərin aşkar edilməsi istiqamətində təhlillər aparılması;

2.5.2. tələb bazarlarının təhlili – rəqabət üstünlüyü aşkar edilmiş sahə üzrə gələcəkdə satış bazarlarının formalaşdırılması istiqamətində əsas tələb bazarlarının müəyyən edilməsi üçün təhlillər aparılması;

2.5.3. diaqnostik təhlil – müvafiq sahədə dəyər zənciri üzrə problemlərin və onların mümkün həlli yollarının aşkarlanması istiqamətində təhlillər aparılması;

2.5.4. GZİT (Güclü və Zəif tərəflər, İmkanlar və Təhlükələr) təhlil – müvafiq sahənin güclü və zəif tərəflərinin aşkar edilməsi, imkanların və təhlükələrin müəyyənləşdirilməsi.

2.6. Dövlət proqramı hazırlanarkən müvafiq sahə üzrə mövcud vəziyyətin təhlilində, həmin proqramın predmeti nəzərə alınmaqla, bu Qaydanın 2.5-ci bəndi ilə müəyyən edilən metodlarla yanaşı beynəlxalq təcrübədə tətbiq olunan digər metodlardan istifadə edilə bilər.

2.7. Dövlət proqramı hazırlanarkən müvafiq sahə üzrə mövcud vəziyyətin təhlili və beynəlxalq təcrübənin araşdırılması vasitəsilə həmin sahə üzrə problemlər müəyyən edildikdən sonra hədəf göstəricilər, həmin hədəf göstəricilərə çatmaq üçün qarşıya qoyulan məqsədlər müəyyənləşdirilir.

2.8. Dövlət proqramının hədəfləri müəyyən edilərkən ölkənin sosial-iqtisadi inkişafının proqnoz göstəriciləri, həmçinin həyata keçiriləcək tədbirlərin mümkünlüyü nəzərə alınmalıdır.

2.9. Bu Qaydanın 2.7-ci bəndinə uyğun olaraq müəyyənləşdirilən məqsədlərə nail olmağa xidmət edən prioritet istiqamət aşağıdakı strukturda tərtib edilir:

2.9.1. **əsaslandırma** – müvafiq istiqaməti prioritetləşdirən əsas səbəblərin, mövcud problemlərin, habelə çatışmazlıqların təsviri;

2.9.2. **görüləcək tədbirlər** – dövlət proqramı ilə müəyyən edilmiş icra müddəti çərçivəsində prioritet istiqamət üzrə həyata keçirilməsi zəruri olan tədbirlərin adı və təsviri;

2.9.3. **gözlənilən nəticə və nəticə indikatorları** – prioritet istiqamət üzrə gələcəkdə səmərəliliyin ölçülməsi məqsədilə əvvəlcədən müəyyənləşdirilmiş nəticə indikatorları və prioritet istiqamət tədbirlərinin icrası nəticəsində həmin indikatorlar üzrə əldə olunması gözlənilən hədəf göstəricilər;

2.9.4. **gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri** – prioritet istiqamət üzrə müəyyənləşdirilmiş tədbirlərin icrası prosesində qarşıya çıxa biləcək əsas risk faktorları və onların təsirlərinin aradan qaldırılması məqsədilə həyata keçirilməli olan tədbirlərin təsviri;

2.9.5. **tələb olunan vəsait (uyğun olduqda)** – prioritet istiqamət üzrə nəzərdə tutulan tədbirlərin icrasına tələb edilən vəsaitin məbləği;

2.9.6. **investisiya imkanları (uyğun olduqda)** – prioritet istiqamət çərçivəsində nəzərdə tutulmuş tədbirlərin icrası prosesində özəl sektor üçün yaranan biznes imkanları.

2.10. Bu Qaydanın 2.9.3-cü yarımbəndinə uyğun olaraq nəticə indikatorları hazırlanan zaman "ilkin nəticələr"ə, "aralıq nəticələr"ə və "yekun nəticələr"ə münasibətdə hər bir göstəricinin xüsusiyyətinə uyğun olaraq, baza ili, baza ili üzrə göstərici və həmin göstərici barədə məlumatın əldə edilməsi mənbələri müəyyənləşdirilir.

2.11. Baza ili üzrə göstəricilər əsas götürülməklə, dövlət proqramının əhatə etdiyi dövr çərçivəsində "ilkin nəticələr"ə münasibətdə illik əsasda, "aralıq nəticələr"ə münasibətdə dövlət proqramının icra müddətinin yarı dövrünün sonunda (bu dövrdə prioritetin icra müddəti bitərsə – həmin dövrdə), "yekun nəticələr"ə münasibətdə isə dövlət proqramının yekunu üzrə hədəf göstəricilər müəyyən edilir.

2.12. Dövlət proqramının tədbirlər planı və müvafiq tədbirlərin əsas və digər icraçıları aidiyyəti dövlət orqanlarının (qurumların) fəaliyyət istiqamətlərinə uyğun olaraq müəyyənləşdirilir **(1 nömrəli əlavə)**.

2.13. Bu Qaydaya uyğun olaraq dövlət proqramının tərtib edilməsi prosesinə beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları, dövlət və özəl sektor nümayəndələri, müstəqil ekspertlər və digər maraqlı tərəflər cəlb oluna bilər.

2.14. Dövlət proqramının layihəsini hazırlayan dövlət orqanı (qurumu) dövlət proqramının layihəsini "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun və Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.12-ci bəndinin tələblərini nəzərə almaqla hazırlayır və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

2.15. Dövlət proqramının layihəsinə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən baxılır və bu Qaydanın 2.14-cü bəndində göstərilən normativ hüquqi aktların tələblərinə riayət etməklə təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

2.16. Dövlət proqramı, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin hüquqi aktları ilə təsdiq edilir.

### 3. Dövlət proqramının icrası

3.1. Dövlət proqramının icrası qarşıya qoyulmuş məqsədlərə nail olunması, dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin həmin dövlət proqramında nəzərdə tutulan maliyyələşdirmə mənbələri hesabına icraçılar tərəfindən tam və vaxtında yerinə yetirilməsidir.

3.2. Dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti əlaqələndirici orqan (qurum) həyata keçirir.

3.3. Dövlət proqramının icrasının səmərəli təşkili məqsədilə əlaqələndirici orqanın (qurumun) rəhbərliyi ilə həmin dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin əsas və digər icraçısı olan orqanların (qurumların) nümayəndələrindən ibarət işçi qrup yaradılır.

3.4. Bu Qaydanın 3.3-cü bəndinə uyğun olaraq yaradılan işçi qrupun ildə ən azı bir dəfə iclası keçirilir və icra prosesində qarşıya çıxan əsas problemlərin həlli istiqamətində fikir mübadiləsi aparılır.

3.5. Dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının təşkili məqsədilə prioritet istiqamətlər və (və ya) tədbirlər (bundan sonra – prioritet istiqamətlər) üzrə alt işçi qruplar yaradıla bilər.

3.6. Dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti və nəticələri barədə aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən illik hesabatlar hazırlanır və təsdiqedici sənədlərlə birlikdə hər il yanvarın 20-dək əlaqələndirici orqana (quruma) təqdim edirlir.

3.7. Əlaqələndirici orqan (qurum) bu Qaydanın 3.6-cı bəndinə uyğun olaraq təqdim edilmiş məlumatları ümumiləşdirərək təhlil edir və hazırladığı hesabatı Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

### 4. Dövlət proqramının monitorinqi və qiymətləndirilməsi

4.1. Dövlət proqramının monitorinqini və qiymətləndirilməsini həyata keçirəcək monitorinq və qiymətləndirmə orqanı (qurumu) dövlət proqramı təsdiq edilən zaman müəyyən edilir. Əlaqələndirici orqan (qurum) dövlət proqramları üzrə monitorinq və qiymətləndirmə orqanı (qurumu) kimi müəyyən edilə bilməz.

4.2. Dövlət proqramının monitorinqi və qiymətləndirilməsi prosesinə yerli və ya beynəlxalq ekspertlər cəlb oluna bilərlər.

4.3. Monitorinq və qiymətləndirmə orqanı (qurumu) dövlət proqramının

monitorinqini və qiymətləndirilməsini apararkən əlaqələndirici orqanla (qurumla), habelə müvafiq prioritetlər üzrə əsas və digər icraçı orqanlarla (qurumlarla) əməkdaşlıq edə bilər.

4.4. Dövlət proqramının monitorinqinin nəticələri monitorinq və qiymətləndirmə orqanının (qurumunun) tərtib etdiyi illik hesabatda öz əksini tapır.

4.5. Dövlət proqramının monitorinqi bu Qaydanın 3.6-cı bəndinə uyğun olaraq əlaqələndirici orqanda (qurumda) toplanaraq monitorinq və qiymətləndirmə orqanına (qurumuna) təqdim edilən hesabatların və təsdiqedici sənədlərin əsasında tədbirlərin icra vəziyyətinin və nəticələrinin illik monitorinqi formasında aparılır.

4.6. Dövlət proqramları üzrə icra vəziyyətinin monitorinqi bu Qayda ilə müəyyən edilən metodologiyaya əsasən aparılır və monitorinqin nəticələrinə dair hesabat tərtib olunur **(2 və 3 nömrəli əlavələr)**.

4.7. Dövlət proqramı üzrə nəticələrin monitorinqi dövlət proqramının nəticə indikatorları üzrə müəyyən edilmiş hədəf göstəricilərin və əldə edilmiş faktiki göstəricilərin müqayisəsi əsasında aparılır və dövlət proqramının nəticələrinin monitorinqi üzrə hesabat tərtib olunur **(4 nömrəli əlavə)**.

4.8. Dövlət proqramının icra vəziyyətinin və nəticələrinin monitorinqi zamanı təqdim edilmiş hesabatların təhlili aparılır və məlumatlar müvafiq dövlət orqanlarının (qurumlarının) nümayəndələri ilə müzakirələr əsasında dəqiqləşdirilir. Bu zaman müvafiq dövlət orqanlarından (qurumlarından) tədbirlərin icra vəziyyəti barədə əlavə məlumatlar və təsdiqedici sənədlər istənilə bilər.

4.9. Dövlət proqramının icrasının bu Qaydaya uyğun monitorinqi həmin dövlət proqramının icrasına dövlət büdcəsindən ayrılmış vəsaitin təyinatına uyğun və səmərəli xərclənməsinin dövlət maliyyə nəzarəti qaydasında yoxlanılmasını, habelə qanunvericiliyin icrasına nəzarət və icra intizamının təmin edilməsi çərçivəsində Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən dövlət nəzarəti tədbirlərinin həyata keçirilməsini, icra hakimiyyəti orqanlarının və dövlət qurumlarının fəaliyyətinin, onların həyata keçirdikləri layihələrin səmərəliliyinin qiymətləndirilməsini istisna etmir.

4.10. Dövlət proqramının icra vəziyyətinin və nəticələrinin monitorinqi aparılarkən dövlət proqramının həyata keçirilməsi üzrə əsas icraçı olan dövlət orqanlarının (qurumlarının) hər birinin fəaliyyətinin qiymətləndirilməsi də aparılır və bu məqsədlə onların reytinqi hesablanır.

4.11. Dövlət proqramının qiymətləndirilməsi zamanı müvafiq sahə üzrə proqramda nəzərdə tutulan tədbirin həyata keçirilməsindən əvvəlki göstəricilərlə faktiki göstəricilər müqayisə edilir və səmərəlilik hesablanır.

4.12. Dövlət proqramının qiymətləndirilməsi dövlət proqramının icrası və onun yekunlaşması mərhələsində aşağıdakı ardıcıllıqla aparılır:

4.12.1. dövlət proqramının qiymətləndirilməsinə hazırlıq – monitorinq və qiymətləndirmə orqanı (qurumu) tərəfindən effektivliyin, uyğunluğun və səmərəliliyin müəyyən olunmasına imkan verən qiymətləndirmə suallarının əlaqələndirici orqanın (qurumun) rəyi nəzərə alınmaqla tərtib olunması;

4.12.2. dövlət proqramının qiymətləndirilməsi planı – bu Qayda ilə müəyyən edilən forma üzrə qiymətləndirmə planının hazırlanması **(5 nömrəli əlavə)**;

4.12.3. dövlət proqramının qiymətləndirilməsi üzrə hesabat və tövsiyələrin hazırlanması – dövlət proqramının qiymətləndirilməsi üzrə qiymətləndirmə hesabatının və müvafiq tövsiyə sənədinin hazırlanması.

4.13. Dövlət proqramının qiymətləndirilməsi dövlət proqramının icra müddətinin yarısı bitdikdən və ya dövlət proqramının icrası yekunlaşdıqdan sonra aparılır. İcra

müddəti 3 (üç) il və daha az olan dövlət proqramının qiymətləndirilməsi yalnız həmin proqram yekunlaşdıqdan sonra aparılır.

4.14. Dövlət proqramının icra vəziyyətinin və nəticələrinin monitorinqi üzrə hesabat ildə bir dəfə, qiymətləndirilməsi üzrə hesabat isə bu Qaydanın 4.13-cü bəndi ilə müəyyən olunmuş müddət bitdikdən sonra Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

4.15. Dövlət proqramının yekun qiymətləndirilməsi üzrə hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edildikdən sonra bir ay müddətində monitorinq və qiymətləndirmə orqanının (qurumunun), habelə əlaqələndirici orqanın (qurumun) rəsmi internet səhifəsində yerləşdirilərək ictimaiyyətə açıqlanır.

"Dövlət proqramlarının tərtibi, icrası,
monitorinqi və qiymətləndirilməsi Qaydası"na
1 nömrəli əlavə

**Dövlət proqramının**
**TƏDBİRLƏR PLANI**

| Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti* | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|
| | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| Prioritet 1. | | | | | | |
| Tədbir 1.1. …… | | | | | | |
| Alt tədbir 1.1.1**.. | | | | | | |
| Alt tədbir 1.1.2**.. | | | | | | |
| Tədbir 1.2. … | | | | | | |
| Tədbir 1.3. … | | | | | | |

* İcra müddəti ən azı illik əsasda tərtib edilməlidir.
** Tədbirlər üzrə alt tədbirlər də müəyyənləşdirilə bilər.

"Dövlət proqramlarının tərtibi, icrası,
monitorinqi və qiymətləndirilməsi Qaydası"na
2 nömrəli əlavə

**Dövlət proqramının icra vəziyyətinin monitorinqi üzrə**
**METODOLOGİYA**

1. Dövlət proqramında nəzərdə tutulan tədbirlərin icra vəziyyətinin monitorinqi məqsədilə məlumatların yığılmasında və emalında aşağıdakı metodlardan istifadə olunur:

1.1. əlaqələndirici orqanın (qurumun) təqdim etdiyi hesabatların və təsdiqedici sənədlərin təhlili;

1.2. tədbirin icra vəziyyətinin müəyyən olunması məqsədilə sənədlərin təhlili;

1.3. aidiyyəti dövlət orqanları (qurumları) ilə və mütəxəssislərlə müzakirələrin təşkili;

1.4. üçüncü tərəflərdən məlumatların əldə edilməsi;

1.5. yerində baxış tədbirlərinin təşkili.

2. Dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyətinin monitorinqi aşağıdakı ardıcıllıqla həyata keçirilir:

2.1. məlumatların və təsdiqedici sənədlərin əldə edilməsi və təhlili

2.1.1. Monitorinq və qiymətləndirmə orqanı (qurumu) hər bir tədbir üzrə görülmüş işləri və təqdim olunmuş müvafiq təsdiqedici sənədləri nəzərdən keçirərək, tədbirlərin icra vəziyyətinin monitorinqi çərçivəsində aşağıdakı meyarlar üzrə əsaslandırmaqla, ilkin qiymətləndirmə aparır:

1. tədbir icra edilmişdir;

2. tədbir qismən icra edilmişdir;

3. tədbir icra edilməmişdir;

2.2. aidiyyəti dövlət orqanları (qurumları) ilə müzakirələrin təşkili

2.2.1. dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyətinin monitorinqi çərçivəsində ilkin qiymətləndirmə həyata keçirildikdən sonra monitorinq və qiymətləndirmə orqanı (qurumu) aidiyyəti orqanlarla (qurumlarla) birlikdə görülmüş işlərin və icra prosesində qarşıya çıxan problemlərin müzakirəsini keçirir. Bu zaman aidiyyəti orqan (qurum) tədbirlərin icra vəziyyəti ilə bağlı əlavə məlumat təqdim edə, həmçinin tədbirlərin icrası ilə əlaqədar qarşıya çıxan əsas problemlər və onların həlli yolları müzakirə oluna bilər;

2.3. mütəxəssislərlə müzakirələrin təşkili

2.3.1. aidiyyəti dövlət orqanları (qurumları) ilə müzakirələr tamamlandıqdan və təsdiqedici sənədlər əldə edildikdən sonra müvafiq sahə mütəxəssisləri ilə tədbirlərin icra vəziyyəti, o cümlədən aidiyyəti dövlət orqanlarının (qurumlarının) icra ilə əlaqədar qaldırdığı əsas problemlər, təklif etdikləri həll yolları və digər məsələlər yenidən müzakirə edilir. Monitorinq və qiymətləndirmə orqanı (qurumu) bu müzakirələrə beynəlxalq təşkilatları, vətəndaş cəmiyyəti təsisatlarını, qeyri-hökumət təşkilatlarını və digər maraqlı tərəfləri cəlb edə bilər;

2.4. icra vəziyyətinin monitorinqi çərçivəsində əldə olunan məlumatlar əsasında tədbirlərin qiymətləndirilməsi

2.4.1. bu metodologiyanın 2.1 – 2.3-cü bəndlərində qeyd olunan ardıcıllıqla məlumatların əldə edilməsi, yoxlanılması, müzakirələrin təşkili işləri yekunlaşdıqdan sonra, tədbirlərin icra vəziyyətinin monitorinqi çərçivəsində ilkin qiymətləndirmədə müvafiq dəqiqləşdirmələr aparılır və hər bir tədbir, yekun qiymətləndirmə nəticələrinə uyğun olaraq, aşağıdakı qaydada müvafiq balla qiymətləndirilir:

1. icra edilmiş tədbir – 1 bal;

2. qismən icra edilmiş tədbir – 0,5 bal;

3. icra edilməmiş tədbir – 0 bal;

2.5. dövlət proqramı ilə müəyyən edilmiş prioritet istiqamətlərin və dövlət proqramının icra vəziyyətinin qiymətləndirilməsi

2.5.1. dövlət proqramı ilə müəyyən edilmiş prioritet istiqamətlər və ümumilikdə dövlət proqramının icra vəziyyətinin qiymətləndirilməsi aşağıdakı qaydada həyata keçirilir:

1. tədbirlərin icra vəziyyətinə əsasən prioritet istiqamətlər və dövlət proqramı üzrə “icra edilmişdir”, “qismən icra edilmişdir” və “icra edilməmişdir” kimi qiymətləndirilmiş tədbirlərin sayının ümumi tədbirlərin sayına nisbəti əsasında xüsusi çəki müəyyən edilir;

2. prioritet istiqamətlərin ümumi icra vəziyyəti aşağıdakı düsturla qiymətləndirilir:

$$(İE+Qİ+İB)/TS*100=İF$$

burada:

İE – icra edilmiş tədbirlər üzrə ümumi bal;
Qİ – qismən icra edilmiş tədbirlər üzrə ümumi bal;
İB – icra edilməmiş tədbirlər üzrə ümumi bal;
TS – prioritet istiqamət üzrə tədbirlərin sayı;
İF – prioritet istiqamət üzrə icra faizi.

Qeyd: Prioritet istiqamətdə nəzərdə tutulmuş bütün tədbirlər icra olunarsa, bütün tədbirlər üzrə ümumi balın tədbirlərin ümumi sayına nisbəti maksimum 1-ə bərabər olacaqdır;

3. prioritet istiqamətin ümumi icra vəziyyətinə uyğun olaraq əldə edilmiş nəticələr aşağıdakı qaydada qiymətləndirilir:

burada:

0 – 50 faiz aralığındakı göstərici – qırmızı (qeyri-məqbul);
51 – 80 aralığındakı göstərici – sarı (məqbul);
81 –100 faiz aralığındakı göstərici – yaşıl (qənaətbəxş);

4. dövlət proqramının icra vəziyyətinin ümumi qiymətləndirilməsi aşağıdakı düsturla aparılır:

$$PB/PS*100 = DPQ$$

burada:

PB – prioritet istiqamətlər üzrə ümumi bal;
PS – prioritet istiqamətlərin sayı;
DPQ – dövlət proqramının icra faizi;

5. dövlət proqramının icra vəziyyətinin ümumi qiymətləndirilməsinə dair əldə edilmiş nəticə aşağıdakı qaydada qiymətləndirilir:

burada:

0– 50 faiz aralığındakı göstərici – qırmızı (qeyri-məqbul);
51 – 80 aralığındakı göstərici – sarı (məqbul);
81 – 100 faiz aralığındakı göstərici – yaşıl (qənaətbəxş);

6. dövlət proqramı üzrə hər bir əsas icraçı orqanın (qurumun) məsul olduğu tədbirlər üzrə qiymətləndirmədən istifadə olunmaqla, tədbirlərin icra vəziyyətindən asılı olaraq, əsas icraçı orqanların (qurumların) fəaliyyətinin nəticələri aşağıdakı qaydada qiymətləndirilir:

$$TB/TS*100= İQF$$

burada:

TB – orqanların (qurumların) əsas icraçı olduğu tədbirlər üzrə ümumi bal;
TS – orqanların (qurumların) əsas icraçı olduğu tədbirlərin ümumi sayı;
İQF – icraçı orqanların (qurumların) fəaliyyətinin nəticələri (faizlə);

7. dövlət proqramında müəyyən edilmiş tədbirlər üzrə əsas icraçı orqanların (qurumların) ümumi qiymətləndirilməsinə dair əldə edilmiş nəticələr aşağıdakı qaydada qiymətləndirilir:

burada:

0 – 50 faiz aralığındakı göstərici – qırmızı (qeyri-məqbul);
51 – 80 faiz aralığındakı göstərici – sarı (məqbul);
81 – 100 faiz aralığındakı göstərici – yaşıl (qənaətbəxş)

“Dövlət proqramlarının tərtibi, icrası,
monitorinqi və qiymətləndirilməsi Qaydası”na
3 nömrəli əlavə

**Dövlət proqramının icra vəziyyətinin monitorinqi**
**H E S A B A T I**

Dövlət proqramının adı:

İcra vəziyyətinə dair qısa məlumat:

Qısa xülasənin ümumi strukturu:

– dövlət proqramında nəzərdə tutulan tədbirlərin icra vəziyyətinin ümumi qiymətləndirilməsi;

– dövlət proqramının icrası ilə bağlı həyata keçirilən əsas işlər;

– dövlət proqramında nəzərdə tutulan tədbirlər üzrə aşağı icra göstəricisinə malik olan sahələr;

– dövlət proqramının həyata keçirilməsi prosesində qarşıya çıxan əsas problemlər*;

– problemlərin həlli ilə bağlı tövsiyələr.

Prioritet istiqamət 1:

– görülmüş işlərin qısa təsviri (görülmüş bütün tədbirlər əhatə edilməklə);

– prioritet istiqamət üzrə nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı görülmüş işlər;

– prioritet istiqamətlərdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi prosesində qarşıya çıxan əsas problemlər;

– problemlərin həlli ilə bağlı tövsiyələr.

**Prioritet istiqamətlərdə nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti**

| Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Təqdim edilmiş məlumatlar | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| Prioritet istiqamət 1. | | | | | |
| Tədbir 1.1. | | | | | ○ icra edilmişdir<br>○ qismən icra edilmişdir<br>○ icra edilməmişdir |
| ...... | | | | | ○ icra edilmişdir<br>○ qismən icra edilmişdir<br>○ icra edilməmişdir |

Risklərin nəzərdən keçirilməsi:

Risklərin monitorinqi həmin risklərin başvermə ehtimalının və ya təsir dairəsinin azaldılması məqsədini daşıyır.

Qeyd: Dövlət proqramının icra vəziyyətinin qiymətləndirilməsi üzrə monitorinq və qiymətləndirməni həyata keçirən orqana (quruma) dair ümumi göstəriş:

– **“İcra edilmişdir”** kimi qiymətləndirmə hesabat dövrü ərzində tədbirdə nəzərdə tutulan bütün işlərin artıq həyata keçirildiyini və tədbirin icrasının tamamlandığını bildirir;

– **“Qismən icra edilmişdir”** kimi qiymətləndirmə tədbirin icrası istiqamətində bir çox

vacib addımlar atıldığını və həmin tədbirdə nəzərdə tutulmuş layihələrin hazırlandığını və ya qismən həyata keçirildiyini bildirir;

– **“İcra edilməmişdir”** kimi qiymətləndirmə tədbirin icrası istiqamətində hər hansı əməli addım atılmadığını bildirir.

** Dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin icrası prosesində qarşıya çıxan ən mühüm bir və ya bir neçə problem qeyd edilir.*

“Dövlət proqramlarının tərtibi, icrası,
monitorinqi və qiymətləndirilməsi Qaydası”na
4 nömrəli əlavə

**Dövlət proqramının nəticələrinin monitorinqi**
**H E S A B A T I**

Dövlət proqramının adı:

İcra vəziyyətinə dair qısa məlumat:

Qısa məlumat aşağıdakı qaydada iki əsas hissəni ehtiva edir:

Dövlət proqramının ümumi qiymətləndirilməsi:

– dövlət proqramında nəzərdə tutulan prioritet istiqamətlərin qiymətləndirilməsi;

– dövlət proqramında müəyyən edilmiş ilkin nəticə indikatorlarının (prioritet istiqamətlər üzrə müəyyən edilmiş əsas icra göstəricilərinin) təhlili;

– dövlət proqramının ölkənin sosial-iqtisadi inkişaf göstəricilərinə (ÜDM-ə, məşğulluğa və s.) təsiri;

– dövlət proqramında müəyyən edilmiş məqsədlərə nailolma səviyyəsi.

Qiymətləndirmənin nəticələrinin qısa rəqəmsal təsviri:

– planlaşdırılmış investisiya məbləği ilə sərf edilmiş məbləğin müqayisəli təhlili (faizlə);

– dövlət proqramında müəyyən edilmiş tədbirlərin icra göstəricisi (“icra edilmişdir”, “qismən icra edilmişdir”, “icra edilməmişdir” meyarları üzrə).

Prioritet istiqamət 1:

İcra vəziyyətinə dair qısa məlumat

Qısa məlumat son bir il ərzində prioritet istiqamətlərdə müəyyən edilmiş tədbirlər və əldə olunmuş nəticələr üzrə irəliləyişi əhatə edir. Prioritet istiqamət üzrə müəyyən edilmiş tədbirlərin icrası nəticəsində əldə olunmuş nəticələrin aşağıdakı qaydada təhlili:

– əsas icra göstəricilərindən istifadə;

– əsas icra göstəricilərindən başqa, əlavə məlumatdan istifadə;

– təhlillərə müvafiq olaraq əldə edilmiş nəticənin qiymətləndirilməsi.

Prioritet istiqamətlərdə müəyyən edilmiş tədbirlərin icra vəziyyətinin təhlili Prioritet istiqamətlərdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi prosesində qarşıya çıxan əsas problemlər*

Problemlərin həlli məqsədilə tövsiyələr**

Prioritet istiqamət üzrə müəyyən edilmiş tədbirlərin icrası məqsədilə sərf edilmiş vəsaitin məbləği (qrafiklə göstərilə bilər).

** Dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı ən mühüm bir və ya bir neçə problem qeyd edilməlidir. Problemlər prioritetliyinə görə sıralanır.*

*** Problemin aradan qaldırılması üzrə tövsiyələr və/və yaxud müvafiq tədbirlər qeyd edilməlidir.*

“Dövlət proqramlarının tərtibi, icrası,
monitorinqi və qiymətləndirilməsi Qaydası”na
5 nömrəli əlavə

## Dövlət proqramının qiymətləndirilməsi
## P L A N

| | |
|---|---|
| 1 | **Dövlət proqramının adı** |
| 2 | **Dövlət proqramının aid olduğu yer (yerlər)** |
| 3 | **Əlaqələndirici orqan (qurum)** |
| 4 | **Əsas və digər icraçı orqanlar (qurumlar)** |
| 5 | **Dövlət proqramının məqsədi və əsaslandırılması** |
| 6 | **Qiymətləndirmənin məqsədi** |
| 7 | **Əsas maraqlı tərəflər** |
| 8 | **Əsas qiymətləndirmə sualları** (effektivliyin, uyğunluğun və səmərəliliyin ölçülməsi) |
| 9 | **Dövlət proqramının icrasının nəticələr** |
| 9.1 | **Aralıq nəticələr** |
| 9.2 | **Yekun nəticələr** |
| 10 | **Risklərin müəyyən olunması və təhlili** |
| 11 | **Qiymətləndirmə qrafiki** |
| 12 | **Dövlət proqramını qiymətləndirəcək orqan (qurum)** |
| 13 | **Baza ili üzrə məlumat və metodologiya** (Baza ili üzrə məlumatlar hansılardır? Nəticələrin effektivliyinin, uyğunluğunun və səmərəliliyinin ölçülməsi üçün hansı məlumattoplama metodlarından istifadə olunacaqdır? Məsələn, sorğu (anket), diaqramlar, xəritələr, proqramdan əvvəl və proqramın icrasından sonra statistika və ya birinci və ya ikinci dərəcəli məlumatlar) |
| 14 | **Kommunikasiya planı** (nəticələrin bildirilməsi) |